**JALƏ QULAMOVA**

# Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının 30 ildə keçdiyi yaradıcılıq yolu

**Bakı - 2010**

**Redaktor:** Azərbaycan Bəstəkarlar Ittifaqının katibi, Azərbaycan Respublikasının xalq artisti, əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor **Ramiz Zöhrabov**

**Rəyçilər:** Respublikanın xalq artisti, Azərbaycan və Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi, professor **Nəriman Məmmədov**

Azərbaycan Milli Konservatoriyasının professoru, sənətşünaslıq namizədi **Fəttah Xalıqzadə**

«Naxçıvan Muxtar Respublikası Bəstəkarlarlar Təşkilatının 30 ildə keçdiyi yaradıcılıq yolu» monoqrafiyasında Naxçıvan MR-da musiqi mühitinin təşəkkülündə, formalaşmasında, inkişafında, təkmilləşməsində böyük rol oynayan Bəstəkarlar Təşkilatının 30 ildə keçdiyi yola nəzər salınmış, bu təşkilatın yaranmasında mühüm xidmətləri olan ayrı-ayrı professional musiqiçilərin yaradıcılıq fəaliyyətləri işıqlandırılmışdır.

Monoqrafiya bəstəkar, musiqşünas və xalq professional musiqi irsini sevən oxucular üçün nəzərdə tutulmuşdur.

**Kod 097**

**© «Mars-Print» 2010**

# I FƏSIL

## *NAXÇIVAN MUXTAR RESPUBLIKASI BƏSTƏKARLAR TƏŞKILATI*

***Dünən …***

***Bu gün …***



***«Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsirlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir. Naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq işləri gedir».***

**Heydər Əliyev**.

Naxçıvan Azərbaycanın qədim və maddi, mənəvi dəyərləri ilə zəngin olan ərazilərindəndir. Bu torpaq Azərbaycan tarixinin yaddaşına ululuq simvolu kimi daxil olmuşdur. Naxçıvan yaranışı günündən mədəniyyət, sənət, ədəbiyyat beşiyi olub və dünya mədəniyyətinə onlarla qüdrətli sənətkarlar bəxş edib. Əcəmi Əbubəkir, Bəhruz Kəngərli, Cəlil Məmmədquluzadə, Yusif Məmmədəliyev, Rza Təhmasib, Kazım Ziya.... kimi ədiblər, memarlar, alimlər bu torpaqda dünyaya göz açmışlar.

Naxçıvan tarixinin möhtəşəm sütunlarından biri də Naxçıvan musiqi mədəniyyəti tarixidir.

Bir çox sənətkarlar kimi musiqiçilər də yaşayıb-yaratdıqları dövrün ictimai-siyasi həyatının, mədəniyyətinin, məişətinin bu günümüzə gəlib çatmasında mühüm rol oynamışlar. Şübhə yoxdur ki, onlar yazdıqları əsərlərində, ifaçılıq sənətində tarixi hadisələri, qəhrəmanları, onların göstərdikləri şücaət və igidlikləri, yaşadıqları dövrün, məkanın xüsusiyyətlərini vəsf etmiş, xalqa məhz həqiqətləri sehirli musiqi vasitəsilə çatdırmışlar.

Naxçıvan musiqi mədəniyyəti onun tarixi kimi qədimdir. Naxçıvanın musiqi sənətindən danışarkən ilk növbədə gözümüz

önündə xalq şənətkarlari, saray musiqisi, toy mərasimləri və i.a. canlanır.

Hələ XII əsrdə dahi memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən yaradılan Mömünə Xatun türbəsi kimi dünya şöhrətli mədəniyyət abidəsi o dövrdə Naxçıvanın elmindən, mədəniyyətindən, insəsənətindən xəbər verir. Bəli, yalnız yüksək səviyyəli mədəniyyəti olan bir diyarda hələ də öz gözəlliyini itirməyən bu cür abidələr yarana bilərdi. Əlbəttə ki, belə mədəniyyətə malik Naxçıvan torpağı, memarlıqla yanaşı bir çox sənətlərin də inkişafına təkan vermiş, istedadlı sənətkarların yetişməsinə mühüm təsir göstərmişdir.[1]

Ümumiyyətlə, Naxçıvan mədəniyyəti, eləcə də onun bir qolu olan musiqi mədəniyyəti heç bir dövrdə istimai inkişafdan geri qalmamış, əlaxsus X-XIII əsrlərdə Azərbaycanın yüksək inkişaf etmiş mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Naxçıvan musiqi mədəniyyətinin inkişafı bir çox xalqların musiqi mədəniyyəti kimi məişət musiqisi, xalq şənlikləri, saray musiqisi ilə bağlı olmuşdur. XI əsrdə saray məclislərində musiqiçilər sevimli xalq qəhrəmanlarını, Naxçıvanın tarixi hadisələrini, bənzərsiz təbiətini vəsf etmişlər. Eramızdan əvvəl V minilliyə aid olan Şərur yallılarının, XVIII əsrdə yaşayıb-yaratmış ifaçı-bəstəkar Muradağa Naxçıvanlının, Şərurlu saz-söz ustadı Ağ Aşıq Allahverdi Kosacanlının bu günümüzə qədər gəlib çatan musiqisi Naxçıvan musiqi mədəniyyətinin möhkəm sütunlarından xəbər verir. İllər ötsə də «Naxçıvan diringəsi», Naxçıvan, Ordubad, Şahbuz haqqında saz və aşıq havaları, «Araz», «Apardı sellər Saramı» kimi xalq

[1] Naxçıvan tarixinin səhifələri. N.Tusi adına ADPU-nun mətbəəsi. Bakı, 1996

mahnıları, bir çox xalq rəqsləri və oyunları bu günlə səsləşən əsərlərdir.[1]

Naxçıvan diyarında ta qədimdən həm xalq musiqisi, həm də klassik musiqi yanaşı şəkildə yayılmışdır. Musiqi mədəniyyətinin inkişafında xalq mahnı və rəqslərinin, aşıq və muğam sənətinin mühüm rolu olmuşdur. Mövsüm və mərasim nəğmələri – (üzərliksalma, xanbəzəmə, duvaqqapma, zorxanaçılıq, şəbeh tamaşaları və s.), əmək fəaliyyəti ilə bağlı nəğmələr – (qodu - qodu, sayaçı, xırman nəğmələri) – musiqi folklorunun qədim nümunələrindəndir.

Xalq mahnıları «Ay qız, dur gəl, sabah oldu», «Aynalı göz», «Çobanla qız», «Oyanmır, yatmış, oyanmır» və s., habelə toy mərasimləri ilə bağlı haxıştalar, rəqs havaları, xüsusilə xalq yaradıcıdığının sintetik janrı, vokal və instrumental musiqini özündə birləşdirən yallı və yallıbaşı mahnıları ən çox Şərur bölgəsində geniş yayılmışdır.

Xalq yaradıcılığında özünəməxsus yeri olan aşıq sənəti əsasən Şərur, Şahbuz, Sədərək və Ordubad bölgələrində geniş yayılmışdır. Naxçıvan aşıq mühiti Aşıq Süleyman, Xanxanım oğlu Əli, Çobankərəli Aşıq Cəfər, Aşıq Məmmədcəfər, Aşıq Muxtar, Aşıq Əzim, Aşıq Yusif Sədərəkli kimi ustad aşıqlar yetişdirmişdir.[2]

«İfaçılıq prinsipləri baxımından qonşu mühitlərdən o qədər də seçilməyən Naxçıvan mühiti yüzilliklər ərzində söz yaradıcılığı və saz bəstəçiliyi sahəsində özünəməxsus uğurlar qazanaraq aşıq sənətinin repertuar zənginliyinə qiymətli örnəklər əlavə etmişdir.

---

[1] Nazim Quliyev «Naxçıvan musiqi mədəniyyəti tarixindən». Bakı, Elm, 1999, s.7

[2] Azərbaycan folkloru antologiyası. I cild /Naxçıvan folkloru/, Bakı, «Sabah», 1994, s.309-326

«Naxçıvani»,»Naxçıvan gülü», «Köhnə Naxçıvan», «Aşıq şərili», «Yüngül şərili» (Naxçıvanda yerli camaat «Şərur» adını «Şəril» şəkliində tələffüz edir. «Şərili» - «Şərura bənzər hava» anlamında işlədilmişdir) və s. bu kimi orijinal saz havaları, «Ordubadlı Kərim», «Ziyad-Şövkət» dastanları, habelə regionun tarixi güzəranını əks etdirən çoxsaylı aşıq rəvayətləri və aşıq şeri nümunələri Naxçıvanda saz-söz ovqatının uzun bir zaman ərzində sənət mühiti şəklində yaşadığını göstərir».[1]

Bu dövrdə yaşayıb-yaradan musiqiçilər nəinki xalq şənliklərində öz yaradıcılıqlarını nümayiş etdirmiş, onlar eyni zamanda Ordubad və Naxçıvanda geniş yayılmış muğam-şeir məclislərində iştirak edərək, muğamın sirlərinə yiyələnmiş və sənətsevərlər arasında muğamın təbliği xüsusi əhəmiyyət kəsb etmişdir.

Heç təsadüfi deyil ki, 1920-ci ilədək professional musiqiçi olmayan sənətsevərlər də muğam məclisləri təşkil edib, bu məclislərdə muğam sənətinə böyük hörmət və ehtiramla yanaşaraq, bu sənəti yüksək qiymətləndirərdilər. Onu da qeyd edək ki, klassik muğam ifaçılığı, xanəndəlik və sazəndəlik sənəti əsasən Ordubad və Naxçıvanda yayılmışdır. Musiqiçilərdən Mandi Mələk, Kəblə Baxşəli, Idris Nağıyev, Məşədi Əbil, Sarı Heydər və başqaları yaşadıqları dövrün mahir sənətkarları olmuşlar. Məşhur çalğıçı Muradağa Naxçıvanlı (XVIII əsr) Türkiyə sultanı IV Muradın sarayında musiqiçi kimi fəaliyyət göstərmişdir. O, öz zəmanəsinin mahir çahartar musiqi aləti çalanlarından olub, bəstəkarlıq qabiliyyətinə də malik şəxslərdən sayılıb.

Naxçıvan musiqiçilərinin digər qismi isə Azərbaycan xalq musiqisinə yiyələnməklə yanaşı artıq not savadı almağa da çalışır və

[1] Məhərrəm Qasımlı «Ozan-aııııq sənəti».Bakı, Uğur, 2007, s.193

tədricən peşəkar bəstəkarların əsərlərini öyrənərək, öz ifaçılıq səviyyələrini daha da püxtələşdirirdilər. Bu kimi musiqiçilərin inkişaf dövrünün başlanması bilavasitə 1927-1928-ci illərə təsadüf edir. Onlar Azərbaycan bəstəkarlarının yeni yazdıqları əsərlərlə yanaşı, qərb bəstəkarlarının əsərlərini də öyrənirdilər.

Beləliklə, Azərbaycan xalq çalğı alətlərində ifa texnikası inkişaf edərək alətlərin imkanları daha da genişlənirdi. Bu dövrdə Naxçıvanda ilk musiqi məktəbi açılır və gələcəkdə bu məktəb musiqiçilərin yaradıcılıq imkanlarının yüksəlməsində müstəsna rol oynayır. Musiqi məktəbi ilə yanaşı Naxçıvanda özfəaliyyət kollektivlərinin yaranması da sözün əsl mənasında musiqi sənətinin püxtələşməsində mühüm əhəmiyyət kəsb edirdi.

XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda iri həcmli musiqi tamaşalarına maraq artır. Məhz həmin dövrdə drama və musiqili teatr yaranır, açıq konsertlər təşkil edilirdi. XX əsrin əvvəllərində tikilmiş Naxçıvan Dövlət Dram Teatrında Üzeyir Hacıbəyliun «Leyli və Məcnun», «Şah Abbas və Xurşidbanu» kimi operaları, «Arşın mal alan», «Ər və arvad», habelə Zülfüqar Hacıbəyovun «Əlli yaşında cavan», «Evliykən subay» musiqili komediyaları tamaşaya qoyulur. Bu da təbii ki, insanların təfəkkür tərzinin mənəvi cəhətdən formalaşmasına müsbət təsir göstərmişdi.

Onu qeyd edək ki, bəstəkar Zülfüqar Hacıbəyovun Naxçıvan teatrı ilə əlaqəsi 1910-cu ildə başlanır. Belə ki, o, həmin ildə ilk dəfə Mirzəağa Əliyev, Göyərçin xanım və digər sənətkarlarla birlikdə Naxçıvana gələrək, 1911-ci ildə yerli truppa üzvlərinin iştirakı ilə Üzeyir Hacıbəylinin «O olmasın, bu olsun», «Ər və arvad» və özünün «Əlli yaşında cavan» əsərlərini tamaşaya hazırlayır. «Evliykən subay» musiqili komediyasını isə bilavasitə Naxçıvanda olarkən yazıb qurtarır. Əsər 1912-ci ilin mart ayında Naxçıvan Dram

Teatrının səhnəsində tamaşaya qoyulur. Bəstəkar bu illərdə Naxçıvanda Şərq musiqisindən ibarət müsamirələr də təşkil edir. Zülfüqar Hacıbəyov dram dərnəyi üzvlərinin musiqi təliminə də xüsusi diqqət yetirir, ifaçıların zövqünün inkişafına çalışır. Onun rəhbərlik etdiyi musiqiçilər heyəti – Mənsur Sultanov (kamança), Adil Kəngərli (tar), Heydər Təhmasib (tar), Əli Şərifov (fleyta) Məmməd Sultanovdan (klarnet) ibarət idi.[1]

Mənsur Sultanovla Adil Kəngərlinin Naxçıvan teatrının inkişafındakı xidmətləri də unudulmazdır. Onlar teatrın gənc həvəskarlarından ibarət musiqiçilər dəstəsi təşkil etmişdilər.

Naxçıvan teatrında oynanılan musiqili komediya əsərlərinin tamaşalarına qadınlar da böyük maraq göstərirdilər. Truppanın rejissoru Rza Təhmasib qadınların teatra həvəsini görüb, fəqət onların kişilərlə bir yerdə oturmaqlarının çətinliyini nəzərə alaraq, gündüzlər qadınlar üçün ayrıca teatr tamaşaları təşkil etməyə başlayır. Bu dövrdə Naxçıvan qızlar məktəbinin müdiri Nazlı xanım Nəcəfova Rza Təhmasibin köməyi ilə məktəbli qızlardan ibarət dram dərnəyi təşkil edir. Sözsüz ki, bu Naxçıvan tarixində görünməmiş bir hadisə idi. Dərnəyin məşqləri həm məktəbdə, həm də qadınların maariflənməsi yolunda fədakarlıqla çalışan Nazlı xanım Nəcəfovanın evində keçirilirdi. Nəhayət 1917-ci ilin noyabr ayının 12-də cümə günü teatrın binasında qadınlar üçün «Arşın mal alan» musiqili komediyası göstərildi. Tamaşada Soltan bəyi - Süsən Sultanova, Cahan xalanı - Gövhər Kəngərli, Süleymanı - Asya Məmmədəliyeva, Vəlini - Xanım Vəzirova, Gülçöhrəni - Dilbər

[1] Əli Xəlilov «Naxçıvan teatrının tarixi».Bakı, 1964, s.30

Sultanova, Əsgəri - Günəş Kəngərli, Asiyanı - Bilqeyis Naxçıvanskaya və Tellini - Fatma Şeyxova ifa edirdi.[2]

1930-cu ildə artıq Naxçıvanda professional bəstəkarlıq sənəti sürətlə inkişaf etməyə başlayır. Qeyd etdiyimiz kimi, 1937-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəylinin Naxçıvana gəlişi, 1942-ci ildə bu diyarda Tofiq Quliyevin rəhbərlik etdiyi caz orkestrinin fəaliyyət göstərməsi, 1959-cu ildə Naxçıvan Dövlət konsert briqadasının yaranması, bəstəkar Xəlil Cəfərovun Naxçıvan şəhər uşaq musiqi məktəbində müəllim işləməsi və mütəmadi olaraq zəmanəmizin məşhur dirijoru Niyazinin, görkəmli müğənnilərdən Bülbülün, Rəşid Behbudovun, Lütfiyar Imanovun və başqa musiqiçilərin qədim şəhərlə yaradıcılıq əlaqələri istər bəstəkarlıq, istərsə də ifaçılıq sənətinin yüksəlməsinə mühüm təsir göstərməyə bilməzdi.

Ötən əsrin 20-ci illərindən başlayaraq, Naxçıvan şəhərinin mərkəzi istirahət parkında nəfəs alətləri orkestri və Şərq üçlüyü konsertlər verirdi. Sonralar onları xalq çalğı alətləri ansamblları əvəz etdi. XX əsrin 30-cu illərində xalq çalğı alətləri ilə yanaşı, Avropa alətləri də istifadə olunurdu. 1937-ci ildə Üzeyir Hacıbəylinin təşəbbüsü ilə Naxçıvanda uşaq musiqi məktəbi açıldı. Dahi bəstəkar məktəbə notlar və «Berlin» markalı piano hədiyyə etmişdi.

Musiqi mədəniyyətinin digər əsas inkişaf mərhələsi musiqi təhsili və peşəkar musiqi kollektivlərinin yaranması ilə bağlı olmuşdur.

Bu diyar Azərbaycan musiqi mədəniyyətinə Ərtoğrul Cavid kimi gənc bəstəkar bəxş edib. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin sevimli və istedadlı tələbələrindən biri olan və vaxtıilə bu qədim diyarda yaşayan gənc sənətkar Ərtoğrul dövrünün amansız

[2] Lətif Hüseynzadə «Naxçıvan teatr tarixindən». Bakı, 2002, s.53

rejimindən xilas ola bilsəydi, şübhəsiz ki, Naxçıvan bəstəkarlıq məktəbi daha da zənginləşərdi.

Üzeyir bəyin tələbəsi olmuş daha bir Naxçıvanlı, professional bəstəkarlıq təhsili almış ilk musiqiçilərdən olan Məmməd Nəsirbəyovdur. O, 1897-ci ildə XIX-əsrin sonu XX əsrin əvvəllərində tanınmış ziyalı, istedadlı müəllim, Mirzə Cəlil Məmmədqluzadənin və Nəriman Nərimanovun yaxın dostu və silahdaşı Mirzəhəsən Nəsirbəyovun ailəsində anadan olmuşdur. Onun gözəl səsi var idi. Uşaqlıqdan musiqiyə çox diqqət yetirir, tez-tez Naxçıvanda göstərilən teatr tamaşalarına gedirdi. 1910-12-ci illərdə bəstəkar Zülfüqar Hacıbəyov Naxçıvanda işlədiyi dövrdə Üzeyir bəyin musiqili əsərlərini tamaşaya hazırlayarkən, təsadüfən Məmmədin səsini eşidir və onu teatra dəvət edir. Həmin gündən Məmməd Nəsirbəyov teatrda tamaşaya qoyulan musiqili əsərlərin gənc ifaçısı kimi tanınmağa başlayır. Lakin ilk musiqi təhsilini 1923-cü ildə Üzeyir Hacıbəylinin Bakıda açdığı musiqi məktəbində alır. Bu illərdə onun ailəsi Bakıya köçür və gənc musiqiçinin yaradıcılığında yeni bir dövr başlayır. «Arşın mal alan» operettasında Əsgər rolunun müvəffəqiyyətli debütündən sonra o, Azərbaycan Dövlət Opera və Balet Teatrının truppasına daxil olur. Bu gün çox az adama məlumdur ki, Pyotr İliç Çaykovskinin məşhur «Yevgeni Onegin» operasından Lenskinin partiyasının ilk ifaçısı məhz Məmməd Nəsirbəyov olmuşdur.

Üzeyir bəyin təkidi ilə o, Musiqi Texnikumuna daxil olur. 1937-ci ildə Moskvaya P.I.Çaykovski adına Konservatoriyada bir ililk təkmilləşdirmə kursuna gedir. 1938-ci ildə isə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakultəsinə qəbul olan Məmməd hələ tələbəlik illərində müəllimi Üzeyir Hacıbəyli ilə birlikdə xalq musiqisini toplamaq üçün Azərbaycanın bir çox rayon

və kəndlərinə yollanır. Eyni zamanda o, Bakıda 3 musiqi məktəbi açmağa nail olur. Uzun müddət bu məktəblərdən birində direktor işləyir. Böyük Vətən Müharibəsi başlayarkən könüllü olaraq cəbhəyə yola düşür.[1]

Onun sonrakı yaradıcılıq fəaliyyəti haqqında demək olar ki, heç bir məlumat yoxdur. Çox az mənbələrdə Məmmədin adı çəkilir. Tanınmış kamança ifaçısı Ruqiyyə Rzayevanın «Unudulmaz əziz müəllimim Qılman Salahov haqqında xatirələrim» məqaləsində Məmməd Nəsirbəyov haqqında az da olsa məlumat veririlir. O, yazır: «1926-cı ildə Bakıda Radio verilişləri təzə başlayanda musiqi nömrələrinə çox yer verilirdi. Oxuyanları tar, kamança, qaval üçlüyü müşayiət edirdi. Bu üçlükdə əsasən Xosrov Məlikov – tar, Qılman Salahov – kamança, Xalıq qavalda çalırdılar. Bu verilişlərdə məşhur xanəndələr müntəzəm iştirak edirdilər. O vaxt gənc vokalist Nəsirbəyov Məmmədin məlahətli lirik səslə oxuduğu mahnılar çox sevilirdi. Sonra o, bəstəkar oldu».

Biz də qısa da olsa Məmməd Nəsirbəyov haqqınca danışmağı özümüzə borc bildik.

Bu dövrdə gənc instrumentalist musiqiçilər – Nəriman Məmmədov, Ramiz Mirişli, Məmməd Məmmədov, Məmməd Ələkbərov, Rəşid Məmmədov, Səfər Rəcəbov, Vahid Axundov, Məmməd Cavadov, Bəxtiyar Kərimov və başqaları ilk əsərlərini yaradırlar. Gənc, istedadlı musiqi ifaçıları, bəstəkarlıq sənətinə hədsiz dərəcədə həvəsləri və qabiliyyətləri olan Nəriman Məmmədov 1951-ci ildə, Ramiz Mirişli isə 1959-cu ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbələrinə

---

[1] Л.Багирова «Страницы биографии забытой личности». «Наш век» qəzeti, 23 fevral, 2001, s. 15

daxil olurlar. Beləliklə, bu cəhəti Naxçıvanda professional bəstəkarlıq sənətinin ilk mərhələsi hesab etmək olar.

1958-ci ildə Naxçıvan Dövlət «Araz» Mahnı və Rəqs ansamblı yaradıldı. Bu ansambl yaradıcı axtarışların nəticəsində repertuar zənginliyinə ciddi fikir verdi və yüksək səviyyəli bir kollektivə çevrildi. Bircə faktla demək olar ki, ötən 50 il ərzində bu yaradıcı kollektiv məhz ustad musiqiçilər - müğənnilər, rəqaslar yetişdirmişdir. Bu baxımdan Ələkbər Ələkbərov, Əzizağa Məmmədov, Tamerlan Bağırov, Zöhrab Axundov, Zeynalabdın Babayev, Ramiz Məmmədov, Arif Quliyev, Məmməd Məmmədov, Əkrəm Məmmədov, Ramazan Axundov, Çingiz Axundov, Elman Əliyev, Vidadi Heydərov, Namiq Vəliyev, Oktay Məmmədov, Ülviyyə Sultanova, Qəribə Qürbətova (Həsənova), Hünər Əliyev və onlarala başqaları istedad və bacarıqlarıyla çoxsaylı tamaşaçıların rəğbətini qazanmışlar.

Doğrudan da Naxçıvan Muxtar Respublikasında musiqi sənətinin formalaşmasında «Araz» Mahnı və Rəqs ansamblının böyük xidmətləri olmuşdur. Məhz bunun əyani nəticəsidir ki, bu ansamblın bazası əsasında 1984-cü ildə Naxçıvan Dövlət Filarmoniyası yaradıldı. Bu filarmoniya təbii zərurətdən – Naxçıvanda yetişən gənc musiqi kadrlarının bolluğundan yarandı. Bu gün böyük bir nəğməli kollektivi birləşdirən Naxçıvan Dövlət Filarmoniyası özünün fərəhli, sevincli günlərini yaşayır. Əsasən istedadlı gəncləri öz ətrafında toplayan Naxçıvan Dövlət Filarmoniyasının nəzdində xalq çalğı alətləri orkestri, kamera orkestri, rəqs ansamblı, instrumental ansambl fəaliyyət göstərir.

Eyni zamanda 1975-ci ildə Üzeyir Hacıbəyli adına Naxçıvan Orta Ixtisas Musiqi Məktəbi (indiki Musiqi Kolleci), 1988-ci ildə Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji Instiutunda

«Musiqi və təsviri incəsənət» kafedrası, 1996-cı ildə həmin kafedranın bazası əsasında konservatoriya ixtisasları yaranır. Belə ki, Konservatoriyada fortepiano, skripka, musiqişünaslıq, bəstəkarlıq, xor-dirijorluğu, xalq çalğı alətləri, ifaçılıq ixtisasları açılır. 2000-ci ildən burada opera studiyası da fəaliyyət göstərir.



***Naxçıvan Dövlət Filarmoniyasının «Mahnı və rəqs» ansamblı, 2002-ci il***



***Naxçıvan Dövlət Filarmoniyasının «Gəmiqaya» instrumental ansamblı, 2002-ci il***




***Naxçıvan Dövlət Filarmoniyasının «Gəmiqaya» instrumental ansamblı, direktor Arif Quliyev və Əzizağa Məmmədov, 2002-ci il***





***Naxçıvan Dövlət Filarmoniyasının «Gəmiqaya» instrumental ansamblı, 2002-ci il***

Bütün bunların bariz nümunəsi kimi, zəmanəmizin böyük siyasi xadimi, ümummilli liderimiz Heydər Əliyevin 1999-cu ildə Naxçıvan Muxtar Respublilasının yaranmasının 75 illiyi münasibətilə keçirilən təntənəli gecədə naxçıvanlı sənətçilərinin istedadına, bacarığına yüksək qiymət verərək dediyi sözləri xatırlatmaq yerinə düşərdi: «Naxçıvanda mədəniyyət xeyli inkişaf edib, tərəqqi yoluna çıxıb. Bu torpağın istedadlı gəncləri çoxdur. Onlar Milli mədəniyyəti və milli ruhu gözəl qoruyurlar».

Təbii ki, bu qiymətli sözlərin fonunda çox şeylər durur, çünki həmin tədbirdə bu nəğməli kollektivin üzvləri professional bacarıqlarını bariz şəkildə nümayiş etdirdilər.



***Naxçıvan Respublikasının 75-ci ildönümü ərəfəsində keçirilən konsertdən sonra Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Naxçıvan incəsənət ustaları ilə görüşü. 1999-cu il***



***Heydər Əliyev Naxçıvan MR-nin 75 illiyinə həsr olunmuş konsertdən sonra Naxçıvan Musiqi Texnikumununda iştirak etdiyi musiqi***

***kollektivlərini təbrik edir. 1999-cu il***

Bildiyimiz kimi, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə başqa sənət sahələri ilə yanaşı Azərbaycan bəstəkarlıq məktəbinin və musiqişünaslığının inkişafına böyük diqqət və qayğı ilə yanaşmışdır. İncə və həssas musiqi duyumuna, musiqi zövqünə malik olan, Azərbaycan və dünya musiqisinin bədii nümunələrini həvəslə dinləyən, musiqişünaslığın elmi fikir və ideyalar dairəsini zənginləşdirən, daim musiqiçilərlə dostluq edən bu insanın həyat və fəaliyyətini musiqi incəsənətindən ayrı təsəvvür etmək qeyri mümkündür. Onu musiqi mədəniyyətinin bütün çağdaş və aktual məsələləri, bəstəkarların və ifaçıların problemləri, fikir və təklifləri, uğurları daim maraqlandırmışdır. Ümumiyyətlə, Heydər Əliyevin Azərbaycan musiqi mədəniyyəti və incəsənətinin inkişafı, təbliği, yüksəlişi, sağlam ənənələr üzərində yeniləşməsi, ənənəvi musiqi sərvətimizin qorunması və yaşadılması, yeni və müasir konsert salonlarının tikilməsi, peşəkar musiqi kollektivlərinin səmərəli fəaliyyəti, xalqlarla və ölkələrlə musiqi-mədəni əməkdaşlığın genişlənməsi, peşəkar musiqiçilərə yaradıcılıq şəraiti və imkanlarının yaradılması, musiqinin müxtəlif sahələri üzrə peşəkar kadrların yetişdirilməsi, musiqi əsərlərinin ifa olunması və nəşri, gənclərin musiqi-estetik tərbiyəsinin fəal və düzgün şəkildə qurulması və sairə bu kimi aktual, mühüm məsələlər və onların həlli yolları ilə maraqlanması, musiqi mədəniyyətinin inkişafına dövlət siyasəti səviyyəsində yanaşması onun siyasi və dövlətçilik fəaliyyətinin bütün dövrlərini əhatə edir. Beləliklə, Heydər Əliyev çoxillik zəngin siyasi və dövlətçilik fəaliyyəti ərzində Azərbaycan musiqi mədəniyyətinə dair özünün çox dəyərli, maraqlı irsini yaratmışdır. Bu irs XX-XXI əsr Azərbaycan musiqi mədəniyyətinin demək olar ki, yarım əsrlik dövrünü əhatə edərək, bu dövr ərzində

Azərbaycan musiqisinin bütün sahələrini, məsələlərini, yeniliklərini və nailiyyətlərini özündə cəmləşdirir.

1969-cu ilin iyul ayından etibarən respublikada siyasi rəhbərliyə başlamaqla Azərbaycan tarixində keyfiyyətcə yeni dövrün təməlini qoyan Ulu Öndər siyasi hakimiyyətinin ilk illərindən respublikada elmin, təhsilin, mədəniyyət və incəsənətin də müasir zamana və tələblərə, milli maraqlara və ənənələrə, gələcək tərəqqiyə uyğun hərtərəfli inkişafı üçün uğurlu dövlət siyasəti həyata keçirməyə başladı.

Heydər Əliyev 1969-cu ildə respublikaya siyasi rəhbərlik edənə qədər Azərbaycanda professional musiqi incəsənəti və bəstəkarlıq məktəbi artıq SSRI miqyasında tanınırdı. Üzeyir Hacıbəyli SSRI miqyasında ilk Milli klassik - professional musiqinin banisi kimi hörmətlə anılır, klassiklərimizə və çağdaş bəstəkarlarımıza yubileylər təşkil olunurdu. Azərbaycan bəstəkarlarının əsərləri SSRI-nin müxtəlif respublikalarında, şəhərlərində tez-tez səslənir, dirijor, ifaçı və peşəkar musiqi kollektivlərimizin ifaları maraqla qarşılanırdı. Hətta SSRI Mədəniyyət Nazirliyi, SSRI Bəstəkarlar Ittifaqı tərəfindən xaricdə yaradıcılıq səfərləri, festivallar, görüşlər, qastrol konsertləri təşkil edilərkən Azərbaycan Bəstəkarlar Ittifaqının üzvlərindən, respublikamızın ifaçılarından da kimlərsə siyahıya daxil edilirdi. Ikinci məsələ, Azərbaycanın, Orta Asiya respublikalarının, SSRİ-nin müsəlman və türk mənşəli xalqlarının yaşadıqları digər respublika və muxtar respublikaların milli – mədəni ucqarlar hesab olunması idi.

Azərbaycanın mədəniyyət və incəsənət sahəsində milli ucqar kimi qəbul edilməsi onun təmsilçilərinə də hiss etdirilirdi. Peşəkar musiqiçilərimizə fəxri adların, mükafatların verilməsi, yeni əsərlərin təsdiqi və nəşri, yeni tədbirlərin keçirilməsi, xaricdə yaradıcılıq

səfərləri bilavasitə mərkəzdə – SSRI Bəstəkarlar Ittifaqında və Mədəniyyət Nazirliyində həll olunurdu, çox hallarda isə bu məsələlər qəsdən biganəliklə yubadılırdı. Dövrün yazılmamış «qanunlarına» görə, mərkəzi bəstəkarlar ittifaqının hər hansı tədbirində kimlərin və neçə nəfərin iştirak etməsi də «yuxarının» razılığı və siyahını təsdiq etməsi ilə baş tuta bilirdi və i.a. Azərbaycan Bəstəkarlar Ittifaqının əldə etdiyi yaradıcılıq və təşkilatçılıq nailiyyətlərinə baxmayaraq, bu qurum yuxarı instansiyalarda daim tənqid edilir, musiqi mədəniyyətimiz və onun təmsilçiləri haqqında «durğunçuluq», «ətalət», «yeniliklərə və novatorluğa meyldən uzaq», «sovet incəsənətinin tələblərinə tam cavab verməyən» təəssüratları formalaşdırırdılar. Yalnız bəzi dirijor, bəstəkar, musiqişünas və ifaçılarımızın fərdi təşəbbüsləri və fəaliyyətləri Azərbaycan musiqi incəsənətini «Milli ucqar» kimi baxımsızlıqdan, saymazlıqdan və sairədən müəyyən qədər xilas edirdi. Bu siyasi, tarixi, mədəni missiyanı, Milli musiqi incəsənətinin tərəqqi yollarının genişlənməsi kimi həllivacib problemi məhz Heydər Əliyev bir siyasi rəhbər, bir mədəniyyət hamisi, vətənini və millətini sonsuz məhəbbətlə sevən böyük bir vətəndaş olaraq birdəfəlik aradan qaldırdı.[1]

Respublikada hər bir sahədə yeniliklərin, islahatların, aparılmasına, ətrafda baş verən bütün demokratik və tərəqqi proseslərinin respublikanın inkişafında əks olunmasına, respublikanın yeni iqtisadi və sənaye potensialının tam gücü ilə qurulmasına, hərtərəfli iqtisadi inkişafın və yüksəlişin hər bir sahəyə, o cümlədən mədəniyyət və incəsənətin yüksəlişinə müsbət təsir göstərməsinə nail olan Heydər Əliyev məhz həyata keçirdiyi inkişaf

---

[1] Ariz Abduləliyev «Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti». Musiqi dünyası jurnalı, №1-2, 2008, s.6

siyasətinin uğurlu nəticələri kimi tezliklə bütün respublikanı böyük bir tikinti, abadlaşdırma meydanına çevirdi, iqtisadiyyatın və sənayenin bir çox aparıcı sahələrinin qurulmasına və inkişafına imkanlar yaratdı. Bunun nəticəsində respublikamızda çoxlu sayda yeni mədəniyyət evləri, mədəniyyət sarayları, konsert salonları tikildi, opera və balet incəsənətinin inkişafına xidmət edən təhsil, mədəniyyət qurumları, binaları tikilib istifadəyə verildi. Məsələn, hazırda Ulu Öndərin adını daşıyan Heydər Əliyev Sarayı, Bakı Xoreoqrafiya Məktəbi, Ş.Məmmədova adına Opera Studiyası, Dövlət Mahnı Teatrı, Yaşıl Teatr, Məktəblilər Sarayı, Bakıətrafı və respublikanın rayonlarında yeni mədəniyyət evləri, yeni uşaq musiqi və incəsənət məktəbləri, musiqi texnikumları, Naxçıvan Muxtar Respublikasının və Dağlıq Qarabağ Muxtar Vilayətinin Filarmoniyaları, Naxçıvanda Musiqi Texnikumu, Konservatoriyanın yaradılması və i.a. fikirlərimizə konkret nümunə ola bilər.

Qeyd etdiyimiz kimi, Bəstəkarlar Ittifaqının fəaliyyətinin tənzimlənməsində, musiqi sənətimizin inkişaf etdirilib dünya miqyasında tanıdılmasında Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Dahi şəxsiyyətin yaradıcı ziyalıların, o cümlədən Azərbaycan Bəstəkarlar Ittifaqının görkəmli üzvlərinin, xüsusi xidmətləri olan bəstəkarların, musiqişünasların əməyini yüksək qiymətləndirməsi, onların yaradıcılıqlarını yüksək fəxri adlar və mükafatlarla dəyərləndirməsi bilavasitə Bəstəkarlar Ittifaqının fəaliyyətinə verdiyi qiymətin bariz nümunəsidir. [1]

Azərbaycanın xarici ölkələrlə mədəni əlaqələrinin yaranması və inkişafını daim diqqət mərkəztndə saxlayan, görkəmli sənətkarları

[1] Azərbaycan Respublikasının ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. «Azərbaycan» qəzeti, 1997, 11 noyabr

respublikamıza dəvət edən bu dahi şəxsiyyət bununla da Bəstəkarlar Ittifaqının beynəlxalq əlaqələrinin daha da genişlənməsinə şərait yaradırdı. Xalqımızın böyük oğlu Azərbaycan Bəstəkarlar Ittifaqının müxtəlif tədbirlərində, müəllif və yubiley gecələrində, bəstəkarlarımızın yeni səhnə və konsert əsərlərinin premyeralarında iştirak edərək, dəyərli fikir və mülahizələrini söyləmiş, bəstəkarlarımıza dəstək vermişdir. Bu faktlar bir daha sübut edir ki, Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə Bəstəkarlar Ittifaqının və onun üzvlərinin yaradıcılıq fəaliyyəti ilə daim maraqlanmış, onların uğurlarına və nailiyyətlərinə yüksək qiymət vermişdir. Bəstəkarlar Ittifaqının inkişafını, yerlərdə onun təşkilatlarının yaradılmasına böyük qayğı göstərmişdir.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı da ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə yaradılan yaradıcılıq təşkilatlarındandır.

Naxçıvan Muxtar Respublikasında musiqi sənətinin inkişafının son 35 ili Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun sayəsində 1978-ci ildə Azərbaycan Bəstəkarlar Ittifaqının Naxçıvan Təşkilatı yaradılmışdır. Hələ 1976-cı ildə ulu öndərimizin tapşırığı ilə Naxçıvanda Bəstəkarlar Təşkilatının yaranması ilə əlaqədar SSRI xalq artisti, Azərbaycan Bəstəkarlar Ittifaqının katibi, bəstəkar Rauf Hacıyev Naxçıvanda olmuş və burada Naxçıvan bəstəkarlarının əsərlərindən ibarət konsertdə iştirak etmişdir. Konsertdə hər bir bəstəkarın yaradıcılığı haqqında söhbət getmiş və əsərləri səslənmişdir.

## NAXÇIVAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİNDƏN İBARƏT KONSERT PROQRAMI (1976)

| | | |
|---|---|---|
| **1.** | Məmməd Məmmədov «Doğma diyar», sözləri M.Nəsirlinindir | Oxuyur Gülşən Qurbanova. Müşayət edir Naxçıvan Orta Ixtisas Musiqi Məktəbinin Xalq Çalğı Alətləri Orkestri. Dirijor Arif Məhərrəmovdur. |
| **2.** | Həlimə Məhərrəmova «Prelüd» | Royalda çalır müəllif |
| **3.** | Həlimə Məhərrəmova «Səni unuda bilmirəm», sözləri H.Hüseynzadənindir | Oxuyur Gülbəniz Rzayeva |
| **4.** | Elxan Muradov «Dodaqda gəz», sözləri B.Vahabzadənindir | Oxuyur Vilayəddin Əmirov |
| **5.** | Elxan Muradov «Sən getdin», sözləri B.Vahabzadənindir | Həmin ifada |
| **6.** | Məmməd Ələkbərov «Ilk görüş», sözləri N.Xəzrinindir | Oxuyur Ilhamə Quliyeva (val) |
| **7.** | Məmməd Ələkbərov «Doğma Naxçıvan», sözləri E.Əliyevindir | Oxuyur Elbrus Mehdiyev (val) |
| **8.** | Nizami Məmmədov «Lirik mahnı» | Klarnetdə çalır müəllif. Royalda müşayət edir Nüşabə Məmmədova |
| **9.** | Dilqəm Məhərrəmov «A dilbər» | Ifa edir Naxçıvan Orta Ixtisas Musiqi Məktəbinin vokal ansamblı |
| **10.** | Sadiqə Qulubəyova «Layla», sözləri A. Qulubəyovanındır | Ifa edir müəllif. Royalda müşayət edir Əliağa Seyidov |
| **11.** | Rəşid Məmmədov «Ürək pıçıldayır», sözləri Ə.Yusiflinindir | Oxuyur Hünər Əliyev |
| **12.** | Rəşid Məmmədov «İntizar», sözləri B.Vahabzadənindir | Həmin ifada |
| **13.** | Səyavuş Əlizadə «Xətrinə dəydi», sözləri E.Əliyevindir | Ifa edirlər Sevda Vəliyeva və Bətulə Məmmədəliyeva. Royalda müşayət edir Əliağa Seyidov |
| **14.** | Azər Abbasov «Süita» | İfa edir instrumental kvartet |
| **15.** | Nazim Quliyev «Ordubad bağları», | İfa edir vokal ansamblı |

| | | |
|---|---|---|
| | sözləri A.Qasımovundur | |
| **16.** | Nazim Quliyev «Naxçıvan eskizləri» süitasından IV və V hissələr | Royalda çalır Həlimə Məhərrəmova |
| **17.** | Səidə Məmmədova «Ürəyimdəsən», sözləri H.Razinindir | İfa edir vokal ansamblı |
| **18.** | Səidə Məmmədova «Sevirəm yurdumu», sözləri M.Nəsirlinindir | İfa edir Dilqəm Məhərrəmov və vokal ansamblı |

Konsertin bədii rəhbəri Nazim Quliyev, dirijoru Arif Məhərrəmov idi. Ümumiyyətlə, bu konsertin ərsəyə gəlməsində Nazim Quliyevin əsas məqsədi Naxçıvanda bəstəkarlıq sənətinin də inkişaf etdiyini Respubika rəhbərliyinə çatdırmaq və bu bölgədə Bəstəkarlar Ittifaqının bölməsinin yaradılmasının zəruri olduğunu göstərmək idi.

18 musiqi nömrəsindən ibarət böyük konsertə baxdıqdan sonra Rauf Hacıyev bəstəkarlarla görüşdə hər bir əsəri geniş təhlil etmiş, əsərlərin bir çoxu haqqında müsbət fikirlər söyləmiş, gənclərdən bir neçəsinə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsində təhsillərini davam etdirməyi məsləhət görmüşdür. 1978-ci ilin sentyabr ayında ulu öndərimizin göstərişi ilə Naxçıvanda Azərbaycan Bəstəkarlar Ittifaqının Naxçıvan Bölməsi yaradıldı. Görkəmli bəstəkar, əməkdar incəsənət xadimi Ramiz Mirişli təşkilatın sədri, Məmməd Ələkbərov isə məsul katib təyin olundular. Bəstəkar Ramiz Mirişli 1978-ci ildən 1998-ci ilədək bu təşkilata rəhbərlik etdi.

Onu da qeyd edək ki, 1978-ci il Naxçıvan bəstəkardıq sənətinin inkişafında məhsuldar illərdən birinə çevrildi. Naxçıvan bəstəkarları təşkilatın açılmasından ruhlanaraq yeni-yeni əsərlər yaratdı. Məmməd Ələkbərovun, Rəşid Məmmədovun, Məmməd Məmmədovun, Əkrəm Məmmədovun, Səidə Məmmədovanın, Elxan Muradovun, Azər Abbasovun, Ramiz Mirişlinin, Nəriman

Məmmədovun yaradıcılıqlarının çiçəklənməsi məhz bu dövrə təsadüf edir.



*Azərbaycan Respublikasının xalq artisti, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi,professor Nəriman Məmmədov*

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Nəriman Məmmədov yaradıcılığının Azərbaycan musiqi mədəniyyətinin, eləcə də Naxçıvan mədəniyyətinin inkişafında xüsusi yeri vardır. O, uzun illərdir ki, bəstəkarlıq sahəsində çalışır. Bu müddətdə bəstəkar bir çox janrlarda maraqlı əsərlər yaratmışdır.

Belə ki, bəstəkar 6 musiqili komediya (3-ü Tofiq Bakıxanovla birlikdə), 7 simfoniya (4-cü simfoniyası dahi Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidə, 5-ci simfoniyası isə Xocalı faciəsinə həsr olunub), simfonik poema, fortepiano və simfonik orkestr üçün

4 konsert, tar və orkestr üçün konsert (görkəmli tarzən Ramiz Quliyevin ifasında), skripka və simfonik orkestr üçün konsert (Seyran Qəniyevin ifasında), fleyta və simfonik orkestr üçün konsert, «Azərbaycan» oratoriyası, xalq çalğı alətləri orkestri üçün Simfonietta, süitalar, həmçinin kamera əsərləri, 25-dən artıq dram tamaşasına musiqi, 300-dən artıq mahnı və romans yazmışdır. Onun 3 pərdə və 6 şəkildən ibarət olan «Humay» baleti bütün dünyada məşhurdur. Bu baletin partiturası Moskvada nəşr olunmuş, orada məşhur dirijorların ifasında vala yazılmışdır.

Nəriman Məmmədovun bir musiqişünas kimi fəaliyyəti Azərbaycan musiqi elminə bir sıra töhfələr vermişdir. Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunda elmi işçi kimi çalışan musiqişünas uzun illərdir ki, muğamlarımızı nota köçürür və onları tədqiq edir. Bildiyimiz kimi, uzun illər hesab olunurdu ki, özünəməxsus lad-intonasiya və metroritmik cəhətləri ilə fərqlənən muğamlar ənənəvi Avropa not sisetmi ilə yazıla bilməz. Lakin dəfələrlə muğamın nota köçürülməsinə cəhd göstərilirdi. Bu haqda bəstəkar Nəriman Məmmədov belə deyir: «Musiqişünas Qəmər İsmayılova qeyd edirdi ki, ilk dəfə olaraq muğamı 1928-ci ildə Müslüm Maqomayev nota köçürmüşdür. Təəssüf ki, bu yazı bizə məlum deyil. 1930-cu illərin ortalarında «Rast» və «Şur» muğamları instrumental şəkildə maestro Niyazi tərəfindən nota salınır. Həmin dövrdə Qara Qarayev «Şur» muğamını vokal-instrumental şəkildə nota köçürür. Məşhur rus musiqişünası V.Belyayev özünün «Yaxın və Orta Şərq xalqlarının musiqi mədəniyyəti» haqqında çox mühüm əsərində Qara Qarayevin bu yazısının fraqmentlərini yerləşdirib. Ilk dəfə olaraq Tofiq Quliyev və Zakir Bağırovun 1936-cı ildə «Rast», «Dügah», «Zabul-Segah» muğamlarının nota köçürmələrinin nəşri

Azərbaycanın musiqi həyatında böyük bir hadisə oldu. Ondan sonra bir çox bəstəkarlarımız muğamları nota köçürməyə başladı». Nəriman Məmmədov özü də muğamlarımızın təbliğində böyük rolu olan, onları nota köçürən bəstəkarlar sırasındadır. Onunla müsahibələrin birində – «Nəriman müəllim, necə oldu ki, muğamları nota salmaq qərarına gəldiniz? sualına o, belə cavab vermişdir: «1950-ci illərin sonunda Azərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun musiqi şöbəsinin müdiri Q.Qasımov mənə muğamların nota salınmasını təklif etdi. Böyük sevinclə razılaşdım. Muğamları uşaqlıqdan sevirdim. Bu məhəbbət məndə tardan təhsil aldığım illərdə daha da möhkəmləndi. Lakin bəstəkar və nəzəriyyəçi olmasaydım, çox çətin janr olan muğamın professional yazılışını edə bilməzdim».[1] Onun «Rast», «Cahargah», «Humayun», «Segah-zabul», «Şahnaz», «Rahab» instrumental muğamları Bakıda, «Çahargah», «Rast» muğamları vokal-instrumental şəkildə, «Bayatı-Şiraz», «Şur» muğamları isə instrumental şəkildə Moskvada nəşr edilmişdir. Nəriman Məmmədovun Əhməd İsazadə ilə birlikdə topladığı və nəşr etdirdiyi «Azərbaycan xalq mahnı və oyun havaları» adlı məcmüəsi, xalq musiqi nümunələrimizin öyrənilməsi və tədqiqi sahəsində yeni nailiyyətlərdən hesab edilir. Qeyd edək ki, bəstə-karın muğam nəşrləri (nota köçürmələri) Rusiyada, Almaniyada, Amerikada, İngiltərədə, Polşada, Rumıniyada, Misirdə, Türkiyədə və digər ölkələrdə geniş yayılmışdır. O cümlədən Moskvada VII Beynəlxalq musiqi konqresində, Alma-Atada Beynəlxalq musiqi tribunasında, Səmərqənddə Beynəlxalq xalq musiqi simpoziumla-rında nümayiş etdirilmişdir. Azərbaycan Milli Elmlər Akademi-

[1] Yusif Hüseynov «Vəfa» ədəbi-bədii, ictimai-publisistik jurnal, 4(5) / 2004, s.11

yasının Memarlıq və Incəsənət Institutunda xalq musiqisinin tarixi və nəzəriyyəsi şöbəsi tərəfindən uzun illər ekspedisiyada toplanılan xalq mahnıları və rəqsləri, eləcə də 12 muğam (bəziləri instrumental, bəziləri isə vokal-instrumental şəkildə) YUNESKO və ISESKO-nun xoş məramlı səfiri və Heydər Əliyev fondunun prezidenti Mehriban xanım Əliyevanın himayəsilə hazırlanan VII cilddən ibarət «Antologiya»da çap edilmişdir.



***Nəriman Məmmədov Azərbaycanın görkəmli incəsənət ustaları ilə birlikdə***

Bəstəkar bir pedaqoq kimi də uzun müddət Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda dərs demiş, hal-hazırda Bakı Musiqi Akademiyasında və Azərbaycan Milli Konservatoriyasında professor vəzifəsində çalışır. Prezident təqaudçüsüdür.

Son illərdə Nəriman Məmmədov Hüseyn Cavidin «Şeyx Sənan» baleti üzərində işini başa çatdırmışdır. Musiqili komediyaları – «Altı qızın biri Pəri», «Məmmədəli kurorta gedir», «Qız görüşə tə-

ləsir» və eləcə də «Olacağa çarə yoxdur» (Ramiz Abdullayevin librettosu əsasında), «Pasport» (Ramiz Abdullayevin librettosu əsasında 2 hissəli komediya), «Qurbanəlibəy kurorta gedir» (Ramiz Heydərin librettosu əsasında) musiqili komediyaları bəstəkarın son uğurlarındandır.

Bəstəkarın Naxçıvan Dövlət Musiqili Dram Teatrının inkişafında da xidmətləri az olmayıb. Onun musiqi yazdığı dram tamaşaları içərisində, Əliyar Yusiflinin «Səadət naminə», Adil Babayevin «Yarımçıq şəkil», Ramiq Muxtarın «Əgər sevirsənsə», «Şəhərli kürəkən», «Üfüqlər qızaranda» və bir sıra pyeslərə bəstələdiyi musiqi obrazların psixoloji və fəlsəfi mənasının açılmasında mühüm əhəmiyyət kəsb etmişdir. O, bu gün də Naxçıvan teatrı ilə öz əlaqəsini davam etdirir, teatrın repertuarını zənginləşdirir.

Nəriman müəllim Dövlət İmtahanlarında iştirak etmək üçün üzün illər Naxçıvan Musiqi Texnikumuna (indiki Naxçıvan Musiqi Kolleci) dəvət almışdır.



***Bəstəkar Nəriman Məmmədov Naxçıvan Musiqi Texnikumunda Dövlət Imtahanı zamanı müəllim kollektivi ilə birlikdə***



***Bəstəkar Nəriman Məmmədov Naxçıvan Musiqi Texnikumunda, 1995-ci il.***

Nəriman Məmmədov eyni zamanda Naxçıvan Bəstəkarlar Təşkilatının işi ilə yaxından maraqlanır, təşkilatın keçirdiyi konfranslarda iştirak edir, gənc bəstəkar və musiqişünaslara öz tövsiyyələrini verir.

Beləliklə, Azərbaycan musiqi mədəniyyətinin inkişafında Nəriman Məmmədovun xidmətləri bir bəstəkar, musiqişünas və pedaqoq kimi əvəz edilməzdir.

Ramiz Mirişli Azərbaycanın görkəmli bəstəkarlarından biridir. Bəstəkar yaradıcılığı boyu müxtəlif janrlarda əsərlər yazmışdır. O, 2 operettanın, kamera orkestri üçün simfoniyanın, 3 simfonik poemanın, 4 simfonik süitanın, 3 kantatanın, səs və simfonik orkestr üçün iki vokal məcmüənin, fortepiano üçün 12 süita və miniatürlərin, 50-dən artıq teatr tamaşalarına və kinofilmlərə yazılmış musiqinin müəllifidir.



***Ramiz Mirişli, Azərbaycan Respublikasının xalq artisti, professor***

Bəstəkarın yaradıcılığında Azərbaycan xalq mahnılarının ilhamlı melodiyalarına tez-tez rast gəlmək olar. Onun bir-birinə bənzəməyən, ürəkləri riqqətə gətirən, melodiyalarına, məzmununa, rəngarəng ifaçılıq vasitələrinə malik olan mahnılarında xalqın həyatı, mənəviyyatı, əhval-ruhiyyəsi təsvir edilir. Bəstəkar bütün həyatı boyu mahnı janrının spesifikasını gözəl duyan şairlərimizin şerlərinə müraciət etmişdir. Fikrət Qoca, Məmməd Araz, Islam Səfərli, Süleyman Rüstəm, Dilsuz Mustafayev və başqalarının sözlərinə 300-ə qədər mahnı bəstələmişdir. Bəstəkar mahnılarda şerin məzmununu müsiqi təranələrində açmağa nail olmuşdur.

Ramiz Mirişli yaradıcılığında səhnə janrlarına da yer vermişdir. 1983-cü ildə Şıxəli Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında tamaşaya qoyulmuş «Qaçırılmış qız» musiqili komediyası bəstəkarın ilk səhnə əsəridir. Ikinci bir səhnə əsəri Isi Məlikzadənin «Gəl qohum olaq» əsərinə yazılmış musiqili komediyasıdır. Ramiz Mirişli respublikanın müxtəlif teatrları ilə də

yaradıcılıq əlaqəni saxlayır. Məşədi Əzizbəyov adına Azərbaycan Dram Teatrında Seyfəddin Dağlının "Kölgələr sürünür», «Qarabağ əfsanəsi», Gənc Tamaşaçılar Teatrında Əkrəm Əylislinin «Mənim nəğməkar bibim», Isi Məlikzadənin «Sağlıq olsun», I.Coşğunun «Ana laylası», «Kiçik təpə» tamaşalarına, Cəlil Məmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Hüseyn Cavidin «Ana», «Azər», Nazim Hikmətin «Bayramın birinci günü», Manaf Süleymanlının «Dəyirman», Kəmalə Ağayevanın «Mənim tanrım gözəllikdir, sevgidir» kimi bir çox tamaşalara musiqini Ramiz Mirişli yazmışdır.



***Arif Məlikov, Şövkət Ələkbərova, Ramiz Mirişli***



***Ramiz Mirişli Niyazi, Arif Məlikov və Şirin Məlikova ilə***

Bəstəkarın kino musiqisi sahəsindəki uğurlu yaradıcılığı diqqəti cəlb eldir. O, bütün yaradıcılığı boyu bir çox kinofilmlərə, sənədli flimlərə və cizgi filmlərinə musiqi yazmışdır. Cəfər Cabbarlı adına «Azərbaycan film» kino-studiyasında çəkilmiş rejissor A.Babayevin «Alma, almaya bənzər», T.Tağızadənin «Evdə kişi var», E.Qasımovun «Köhnə dərə», Ş. Ələkbərovun «Səhrasız gecə», oğlu Nazim Mirişli ilə birlikdə «Qəzəlxan» filmləri üçün yazdığı musiqilər buna parlaq misal ola bilər.

Ramiz Mirişli indi də əzmlə öz yaradıcılığını davam etdirir. O, öz bilik və bacarığını Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil alan gənc musiqiçilərə öyrədir. Onun tərtib etdiyi «Kamança məktəbi» dərsliyindən musiqi məktəblərində istifadə olunur. Beləliklə, bəstəkarın yaratdığı hər bir əsər musiqisevərlər tərəfindən rəğbətlə qarşılanır.

Qeyd etdiyimiz kimi 1978-ci ilin sentyabr ayında ulu öndərimizin göstərişi ilə Naxçıvanda Azərbaycan Bəstəkarlar Ittifaqının Naxçıvan Bölməsi yaradılmışdır. Görkəmli bəstəkar Ramiz Mirişli təşkilatın sədri, Məmməd Ələkbərov isə məsul katib

təyin olunmuşdular. Ramiz Mirişli 1978-ci ildən 1998-ci ilədək bu təşkilata rəhbərlik etmişdir. O, bu gün də Naxçıvan Bəstəkarlar Təşkilatı ilə yaxından əlaqə saxlayır, onlara lazımi məsləhətlər verir.



***Naxçıvan MR-nın əməkdar incəsənət xadimi, bəstəkar Məmməd Ələkbərov***

Bəstəkar Məmməd Ələkbərov Naxçıvan Muxtar Respublikasının musiqi incəsənətinin formalaşmasına, tərəqqisinə çalışan və onun təşəkkülündə böyük rol oynayan yüksək səviyyəli ziyalılardan biri idi.

1950-ci illərdən başlayaraq Məmməd Ələkbərov dəfələrlə Bakıda, Moskvada musiqi festivallarında xor və orkestr kollektivlərinə dirijorluq edərək çıxış etmişdir. O, 1958-ci ildə Naxçıvanda yaranmış «Araz» Dövlət Mahnı və Rəqs ansamblının bədii rəhbəri və direktoru kimi də uzun müddət fəaliyyət göstərmişdir. Məmməd Ələkbərov həm bəstəkarlıqla, həm də pedaqoji fəaliyyətlə məşğul olumş, 1975-ci ildən başlayaraq yeganə musiqi məktəbi olan «Şəhər musiqi» məktəbində dərs demiş, Dövlət Mahnı və Rəqs

ansamblında ilk dəfə xalq çalğı alətləri orkestrini yaratmış, Xalq Yaradıcılığı Evində işləmiş, xalq mahnıları və «Yallı» rəqslərini toplayıb nota yazmışdır. O, bir bəstəkar kimi də müxtəlif sahələrdə çalışmışdır. Məmməd Ələkbərov dram tamaşalarına musiqi, rəqs və xor süitaları, mahnı və romanslar, müxtəlif instrumental pyeslər və s. əsərlər bəstələmişdir.

Məmməd Ələkbərovun yazdığı əsərlər öz xüsusiyyətlərinə görə müxtəlif istiqamətlərə ayrılırlar. Burada yerli-vokal qrupu, Azərbaycan professional musiqi qrupu, ümumavropa klassik musiqi xarakterli və o dövrə xas olan kütləvi sovet mahnı janrları var.

Birinci qrup onun yaradıcılığında deniş yer tutur. Burada Naxçıvan xalq musiqisinə xas olan intonasiyalar - motivlər, ladlar aydın duyulur. Əsas mövzu isə yallı mövzusudur. Bəstəkar yallını Naxçıvan musiqisinin «emblemi» adlandırırdı. Yallı zəngin xəzinədir. Naxçıvan yallılarından bütün yerli bəstəkarlar, musiqisevərlər geniş istifadə etmişlər. Məhz elə bunun nəticəsi idi ki, Məmməd Ələkbərov hələ 1960-cı illərdə Naxçıvan yallılarını ilk dəfə qələmə alaraq nota salıb, Azərbaycan xalq yaradıcılığı evinə təqdim etmişdir. Bu mövzu altında bəstəkar «Şərur eskizləri» adlı üç hissəli suitasını, Zahid Xəlilin sözlərinə «Hacıleylək» mahnısını yazmışdır.

Məmməd Ələkbərovun əsərlərində aşıq motivi də özünə-məxsus yer tutur. Misal olaraq, S.Vurğunun sözlərinə «Dilican dərəsi», «Demə yarın vəfası yoxdur» və başqa mahnıları göstərmək olar.

Bəstəkar Naxçıvan xalq mahnılarının intonasiyalarından da geniş istifadə etmişdir. Kəmalə Ağayevanın sözlərinə yazılmış «Qaytardı yurduna övladın səni», Islam Səfərlinin sözlərinə «Bata-bat yaylağı» mahnıları buna parlaq misaldır.

Məmməd Ələkbərovun yaradıcılığında Azərbaycan bəstəkarlarının əsərlərinin yazı tərzi geniş yer tutur. Məsələn, bəstəkar Ü.Hacıbəylinin musiqi qəzəllərinə oxşar iki romans – Hüseyn Cavidin sözlərinə «Aləmi sevda nə imiş», Səməd Vurğunun sözlərinə «Sevdası var» romanslarını yazmışdır.

Qara Qarayevin musiqisinə bənzər əsərlərinə isə bəstəkarın şah əsəri olan «Məhsəti» dramına yazılmış musiqilərin bəzi parçalarını aid etmək olar. «Şah sarayında qızların rəqsi», «Tərgülün mahnısı» nömrələrini misal göstərə bilərik.

Kütləvi sovet mahnı janırı da bəstəkarın yaradıcılığında az yer tutmamışdır. Burada dostluq-qardaşlıq mahnıları – Hüseyn Razinin sözlərinə «Ufa-Naxçıvan», Nikolayevanın sözlərinə «Dom v Kaluqe», Elmira Qasımovanın sözlərinə «Tiflis haqqında mahnı» və başqaları var.

Bunlarla yanaşı mühüm hadisələrə, əmək qəhrəmanlarına həsr olunmuş Elman Həbibin sözlərinə «Baykal-Amur», Əliyar Yusiflinin sözlərinə «Yurdumun şöhrəti», Ilyas Tapdığın sözlərinə «Sovet ordusu», Səməd Vurğunun sözlərinə «Bu dünyaya sülh gərəkdir» kimi mahnıları yazmışdır.

Məmməd Ələkbərovun yaradıcılığında vətən mövzusu, Naxçıvana həsr olunmuş mahnılar əsas yer tutur. Elxan Əliyevin sözlərinə yazılmış «Doğma Naxçıvan», Əliheydər Qəhrəmanovun sözlərinə yazılmış «Araz» mahnıları buna parlaq misaldır.

Bəstəkar yaradıcılıq fəaliyyətinin ilk günlərindən Naxçıvan Dövlət Musiqili Dram teatrına bağlanmış, ömrünün sonuna qədər teatrda tamaşaya qoyulan bir çox əsərlərə musiqi bəstələmişdir. Onun dram əsərləri sırasında müxtəlif mövzulu əsərlərə rast gəlmək olur. Bunlardan I.Əfəndiyevin «Atayevlər ailəsi», M.Təhmasibin «Bahar» (1952), A.Muxtarovun «Ailə namusu» (1953), Qoqolun

«Evlənmə» (1954), R.Taqorun «Qanqa qızı» (1955), S.Əliyevin «Iki oğul anası» (1957), Karaqin Besin «Kərpic adam» (1962), K.Ağayevanın «Məhsəti» (1964), N.Hikmətin «Kor padşah» (1964), H.Fətullayevin «Vüqarlı gözəl» (1969), H. Razinin «Haray səsi» (1976), Ə.Əylislinin «Quşu uçan budaqlar» (1980) və başqa pyeslərə yazdığı musiqini nümunə göstərə bilərik. Buradan göründüyü kimi bəstəkar Azərbaycan yazıçıları ilə yanaşı, dünya xalqlarının yazıçı və dramaturqlarının əsərlərinə də müraciət etmişdir.

Uzun illər bəstəkar teatrın bədii şürasının yeganə musiqiçi üzvü olmuşdur. O, teatr tamaşalarının musiqi tərtibi ilə məşğul olaraq teatrda musiqi kollektivinin inkişafı sahəsində çox işlər görmüşdür. Tamaşaların musiqisi canlı müşayət olunduğundan bəstəkar ansambla dirijorluq edir, eyni zamanda ansambla yeni alətlər – skripka, violonçel əlavə edərək, ansamblın səslənməsini zənginləşdirmişdir.

Məmməd Ələkbərovun yaradıcılığında ayrı-ayrı alətlər və müxtəlif heyətli orkestrlər üçün yazılmış əsərlər də var. Maraqlı faktdır ki, o, alətlərdən əlinə ilk dəfə kamança aldığı  üçün skripkada da çala bilirdi. Bəstəkar skripka üçün ayrı-ayrı pyeslər, kamera orkestri üçün bir sıra əsərlər yazmışdır.

Məmməd Ələkbərov xalq çalğı alətləri orkestri üçün yazılmış əsərlərə qaboy, fleytanı əlavə edərək, qarışıq instrumental heyət yaradırdı. Ayrı-ayrı alətlər üçün əsərlər sırasında «Iki tar üçün pyes», qaboy və fleyta üçün minitürlər, skripka üçün rəqslər var. Bundan başqa bəstəkar Ü.Hacıbəylinin «Özbək rəqsi» adlı əsərini, Norveç bəstəkarı E.Qriqin «Per Qünt» süitasını orkestrləşdirmişdir.

Məmməd Ələkbərovun yaradıcılığının qiymətli səhifələrindən birini də onun musiqi haqqında yazdığı məqalələri təşkil edir.

Bəstəkar bütün yaradıcılığı boyu müxtəlif səpkili məqalələr yazmış, bir sıra musiqi məclislərində məruzələrlə çıxış etmişdir. Burada da janr və mövzu müxtəlifliyi diqqəti cəlb edir. Məsələn: bəstəkarlar haqqında (Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Müslüm Maqomayev, Frederix Şopen, Volfanq Amadey Motsart); ayrı-ayrı ifaçılar haqqında (Rəşid Behbudov, Qurban Primov, görkəmli dirijor, bəstəkar Napravnik, mahir skripkaçı David Oystrax); musiqi sənətinin problemləri haqqında (simfonik musiqi, xalq musiqisi, qədim alətlər, estetik tərbiyə haqqında, ideoloji tərbiyə problemləri, uşaqlara musiqi haqqında) yazılara rast gəlinir.

Bunlarla yanaşı bəstəkar folklor musiqisini toplamaq üçün kəndlərə, rayonlara gedərək, Naxçıvan MR-nın 40 illik yubileyi ərəfəsində «Naxçıvan şəhərinin xalq mahnıları» məcmüəsini yaradır. Buraya 1920-30-cu illərdə şəhərin məhşur olan folklor nümunələri daxil edilmişdir.

1964-cü ildə Məmməd Ələkbərovun mahnılarının ilk valı buraxılır. Moskvada «Melodiya» səs yazma firması tərəfindən lentə alınmış bu valda Naxçıvanın istedadlı müğənnisi Elbrus Mehdiyevin ifasında «Araz» və «Doğma Naxçıvan» mahnıları səsləndirilir.

1972-ci də ikinci val buraxılır. Buraya Cəfər Cabbarlı, Nəbi Xəzri, Kəmalə Ağayevanın sözlərninə Şövkət Ələkbərova, Ilhamə Quliyevanın ifasında bəstəkarın «Görüş», «Ulduzlar», «Tərgülün mahnısı», «Biz birlikdə» mahnıları daxil edilmişdir.

Məmməd müəllim 1978-ci ildə Naxçıvanda yaranmış Azərbaycan Bəstəkarlar Ittifaqının Naxçıvan Bölməsinin ilk məsul katibi kimi də uzun müddət fəaliyyət göstərmişdir. Radio və televiziya mərkəzində ilk dəfə klassik musiqi və «Mozalan» musiqili – satirik jurnalı haqqında veriliş aparmışdır. O, bir müddət orta ixtisas

musiqi məktəbində və Yusif Məmmədəliyev adına Pedaqoji Institutunda da dərs vermişdir.

Məmməd Ələkbərov Muxtar Resbubilikanın mədəni həyatında göstərdiyi səmərəli əməyinə görə Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi fəxri adına, bir sıra dövlət mükafatlarına layiq görülmüşdür.



***Bəstəkar Məmməd Məmmədov***

Bəstəkar Məmməd Məmmədov da Naxçıvan musiqi həyatında mühüm rol oynamış bir musiqiçidir. Onun fəaliyyəti əsasən uşaq və gənclər yaradıcıdığı ilə bağlı olmuşdur. O, uzun illər Naxçıvanda kütləvi musiqi tədbirlərinin keçirilməsində yaxından iştirak etmişdir. Onun yüksək təşkilatçılıq qabiliyyəti nəticəsində böyük həvəslə bir sıra uşaq müəssisələrində iş aparmış, Naxçıvanda truba və akkardeon siniflərinin açılmasının, vokal ansamblarının, xor kollektivlərinin yaradılmasının təşəbbüskarı olmuşdur.

Məmməd Məmmədovun yaradıcılıq irsi çox zəngindir. Bəstəkarın istər iri həcmli əsərləri, istərsə də kiçik pyesləri melodik dili, harmoniyası ilə fərqlənir. Bu əsərləri dinləyən və təhlil edən hər bir

musiqişünas Məmməd Məmmədovun özünəməxsus yaradıcılıq üsluba malik olmasını hiss edə bilər. Onun tamaşalara yazdığı musiqi dərin, psixoloji və fəlsəfi məzmunu, süitaları forma zənginliyi, kamera instrumental əsərlərini, mahnı və romansları melodikliyi və ritmik xüsussiyyəti ilə diqqəti cəlb edir.[1]

O, Cəlil Məmmədqluzadə adına Naxzçıvan Dövlət Musiqili Dram Teatrının kollektivi ilə gənc yaşlarından başlayaraq daim yaradıcılıq əlaqəsi saxlamışdır. Bu teatr üçün 30-dan artıq müxtəlif janrlarda yazılmış tamaşalara musiqi bəstələmişdir. Bəstəkar uzun müddət teatrın musiqi hissə rəhbəri vəzifəsində işləmişdir. O, Mirzə Fətəli Axundovun «Lənkaran xanının vəziri», Hüseyn Cavidin «Səyavuş», Bəxtiyar Vahabzadənin «Ədalət», Lope de Veqanın «Sevilya ulduzu», Andrey Qlobanın «Dağılmış piyalə», K.Qoldoninin «Mehmanxana sahibəsi», Hüseyn Razinin «Arxalı dağlar», Əliyar Yusiflinin «Vicdan əzabı», Əşrəf Qəmbərovun «Ilan yuvasında fırtına», Həmid Arzulunun «Inam» və digər pyeslərə musiqi bəstələmişdir. Bu tamaşaların musiqiləri sonralar konsert salonlarında ifa edilərək, dinləyicilərin böyük rəğbətini qazanmışdır.

Bəstəkarın yazdığı bir çox mahnılar, o cümlədən Hüseyn Razinin sözlərinə «Gənclik mahnısı», Müzəffər Nəsirlinin sözlərinə «Dostluq mahnısı», «Azərbaycanım», «Ana vətən», Kəmalə Ağayevanın sözlərinə «Olaydım mən», «Nəğmə çalır ürəyim» mahnıları 1980-ci ildə nəşr olunmuş «Naxçıvan təranələri» adlı not məcmüəsinə daxil edilmişdir.

Məmməd Məmmədov kamera-instrumental musiqinin bir çox janrlarında da əsərlər yaratmışdır. Nəfəsli alətlər orkestri üçün

[1] Nazim Quliyev «Bəstəkar Məmməd Məmmədov». Bakı, 1998, s. 21

marşlar, pyeslər, fortepiano üçün «Kiçik prelüdiyalar», klarnet və fortepiano üçün «Miniatürlər», «Qaytağı», truba və fortepiano üçün «Lirik rəqs», «Vals», xor üçün əsərlər, səs və fortepiano üçün mahnı romanslar buna parlaq misal ola bilər.

Məmməd Məmmədov musiqi mədəniyyətimizi mətbuat səhifələrində, radio və televiziya vasitələri ilə daima işıqlandırmış, məqalələri, çıxışları ilə həmişə musiqiçilərimizi yaradıcılıqla məşğul olmağa çağırmışdır.



***Azərbaycan Respublikasını əməkdar incəsənət xadimi, bəstəkar Rəşid Məmmədov***

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, bəstəkar, pedaqoq Rəşid Rza oğlu Məmmədov Naxçıvan Muxtar Respublikasında tanınmış ictimai xadim və bəstəkar kimi şöhrət qazanmışdır.

Qeyd etmək lazımdır ki, 1980-ci ildən başlayaraq onun bəstəkarlıq sənəti geniş vüsət almışdır. Azərbaycan Bəstəkarlar Ittifaqının Naxçıvan Təşkilatının ən fəal üzvlərindən biri olan Rəşid

Məmmədov musiqinin müxtəlif janrlarına müraciət edərək mahnılar, marşlar, miniatürlər, süitalar, bir çox dram tamaşalarına musiqi yazmışdır. Bu əsərlər istər musiqi forması, istər məzmunu Rəşid müəllimin özünəməxsus yaradıcılığından danışır. Bəstəkarın partituralarındakı sadə, yaddaqalan melodiyalar, maraqlı faktura, zəngin orkestrləşdirmə, ritmik quruluş onun professionallığından xəbər verir.



***Bəstəkarlar  Rəşid Məmmədov və Şəmsəddin Qasımov***

Iri həcmli əsərlərlə yanaşı mahnı janrı bəstəkarın yaradıcılığının əsasını təşkil edir. Onun Hüseyn Razinin sözlərinə yazdığı «Doğma Naxçıvan», «Yağış yağır», Əliyar Yusiflinin sözlərinə «Ürək pıçıldayır», Kərim Quliyevin sözlərinə «Küsmə ay qız»,

«Baxma oğlan» mahnıları «Naxçıvan təranələri» adlı not məcmüəsinə daxil edilmişdir. Şair, dramaturq Həmid Arzulunun sözlərinə bəstələdiyi «Sənsən xilaskar» mahnısı dünya şöhrətli siyasətçi, ulu öndərimiz Heydər Əliyevə həsr olunmuşdur. Əsərin partiturasına diqqət yetirdikdə mahnının melodik dili ilə yanaşı, harmonik dili, gözəl orkestrləşdirməsi, musiqi ilə mətnin vəhdəti musiqişünasları onun haqqında dəyərli fikirlər söyləməyə sövq edir.[1]

Əgər bəstəkar fortepiano üçün yazdığı miniatürlərdə lirikaya üstünlük verirsə, tar üçün yazdığı pyeslərdə alətin texniki imkarlarını yüksək sənətkar ustalığı ilə təqdim etməyə nail olur. Xalq çalğı alətləri orkestri üçün yazdığı əsərlər isə gözəl orkestrləşdirməsi ilə diqqəti cəlb edir. Orkestr alətlərinə dərindən bələd olduğundan onun orkestr üçün yazdığı istər iri, istərsə də kiçik həcmli əsərlərin orkestrləşdirilməsi rəvan, səlist professional keyfiyyət etibarilə diqqəti cəlb edir.

Hüseyn Cavid poeziyası bəstəkarı daim düşündürmüşdür. Heç də təsadüfü deyildir ki, Rəşid Məmmədov bəstəkar dostu Məmməd Məmmədovla birlikdə şair dramaturqun «Səyavuş» mənzum dramına musiqi bəstələmiş və bir sıra gözəl, lirik şerlərinə yaddaqalan melodiyalar yazmışdır. Cavid fəlsəfəsi, Cavid dramaturgiyası Rəşid Məmmədov musiqisində ustalıqla açıqlanmışdır.

Bəstəkar Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə sıx yaradıcılıq əlaqəsi saxlayaraq, bu teatr üçün 25-dən artıq tamaşaya musiqi bəstələmiş və musiqi tərtibatı vermişdir. Cəfər Cabbarlının «Nəsrəddin şah», «Od gəlini», Hüseyn Razinin «Odlu diyar», Kəmalə Ağayevanın «İsmət», Məhərrəm

[1] Nazim Quliyev «Naxçıvan musiqi mədəniyyəti tarixindən». Bakı, Elm. 1999, s.108

Əlizadənin «İki könül bir olsa», Ramiz Rövşənin «Dərs», Firudin Aşurovun «Qanlı çinar», Həsən Fətullayevin «Alınmaz qala», Həmid Arzulunun «İtilənən xəncərlər» və bir çox başqa tamaşalar üçün yazdığı musiqi vasitəsilə bəstəkar əsərlərin ümumi mövzusunun fəlsəfi, psixoloji mənasının açılmasına kömək etmiş, obrazların xüsusiyyətlərinə, xarakterinə uyğun musiqi nümunələri yaratmışdır.

Əminik ki, özü həyatda olmasa da onun yazdığı musiqi əsərləri həmişə ifaçılarımızın repertuarını zənginləşdirəcək.

Yaradıcılıqları Naxçıvan teatrı ilə sıx bağlı olan musiqiçilər sırasında Səfər Rəcəbli və Vahid Axundovun da adları var.



***Səfər Rəcəbli, görkəmli tarzən və pedaqoq***

Səfər Rəcəbli görkəmli tarzən və pedaqoq idi. Naxçıvanda Səfər müəllim kimi tanınırdı. Naxçıvandakı Pionrelər evində dərs verən Səfər Rəcəblinin Naxçıvan mədəniyyəti üçün xidmətləri böyükdür. 1950-ci illər Naxçıvan Ptorenlər evi kiçik konservatoriyanı xatırladırdı. Orada gözəl abu-hava, sözlü-nəğməli ovqat yaradan Səfər müəllim çoxlu musiqiçilər nəsli yetişdirmişdir. Musiqi folklorumuzun dərin və təkrarsız bilicisi idi. Eyni zamanda gözəl

melodik dilə malik olan, Naxçıvan teatrında musiqi rəhbəri işlədiyi dövrdə Ə. Haqverdiyevin «Pəri cadu», N.Vəzirovun «Adı var, özü yox», «Yağışdan çıxdıq, yağmura düşdük» tamaşaları üçün yaddaqalan, əsas məzmunlu obrazları açmağa kömək edən, maraqlı musiqi təritibatları verən istedadlı sənətkar sadə rəqslər və mahnıların da müəllifi idi. Belə ki, o, «Segah rəngi», «Səfəri rəqsi», «Dostluq», «Müəllim», «Cənnət Ordubad», «A dostlar», «Baxçanızda gül varmı» və bir çox məhşur mahnılar yazmışdır. Naxçıvan Muxtar Respublikasının əməkdar artisti fəxri adına layiq görülmüşdür.[1]



***Vahid Axundov, bəstəkar-tarzən***

Muxtar Respublikanın tanınmış musiqiçilərindən biri də Vahid Axundovdur. Onun bəstəkarlıq qabiliyyəti sanki ifaçılıq və pedaqoji fəaliyyətini tamamlayır. O, tarın müşayiəti ilə öz mahnılarını daha

[1] Cəlil Vəzirov, Jalə Əliyeva (Qulamova). «Sözlü nəğməli Naxçıvan». Bakı, Sabah, 2003, s. 17

təbii, məlahətlə ifa edirdi. Onun «O Naxçıvandadır», «Ordubad», «Ay qız» adlı mahnıları «Naxçıvan təranələri» adlı not məcmüələrində öz əksini tapmışdır.



***Tarzən Əkrəm Məmmədov***

Naxçıvanın görkəmli ifaçılarından biri də ustad tarzən Əkrəm Məmmədovdur. O, instrumental və mahnı janrlarında gözəl melodik dilə malik əsərlər yaratmışdır. Bilavasitə mahnı və rəqs ansamblı üçün «Naxçıvan» süitası, «Naxçıvan təranələri» məcmüəsinə daxil edilmiş «Tarla qızı», «Bayram axşamı» və bir sıra digər mahnılarla yanaşı, Həmid Arzulunun «Əlincə qalası» tamaşasına yazdığı gözəl, axıcı musiqi təranələri, tar və fortepiano üçün pyeslər bu illərin yaradıcılıq məhsuludur.

Əkrəm Məmmədovu bir ifaçı kimi dinləyicilərə sevdirən əsas amil sənətdə axtarışları, yeni-yeni məziyyətləri, ifaçılıq sahəsində qeyri-adi tapıntıları və nəticədə onun çalğısının bədii ifa üsullarının yüksək səviyyədə dənləyicilərə çatdırılması ilə səciyyələnir. Məhz bu xüsusiyyətlrə görə də görkəmli tarzənin repertuarı daim maraqlı məzmunu və dolğunluğu ilə diqqəti cəlb edir.

Qeyd edək ki, ifaçılıq Əkrəm Məmmədovun yeganə fəaliyyət istiqaməti deyil. Solo ifaçı olmaqla yanaşı o, ansambl rəhbəri və müəllim kimi fəaliyyət göstərir. Məhz bu səbəbdən də Əkrəm Məmmədov müxtəlif təşkilatlarda müəllim, orkestr və ya ansambl rəhbəri kimi çalışaraq mədəni-kütləvi tədbirlərdə yaxından iştirak edir. Məsələn, 60-cı illərin sonlarında onun səyi ilə Naxçıvanda öz quruluşuna, alətlər seçiminə və tembrinə görə maraq doğuran «Əlvan çiçəklər» adlı yeni ansambl yaranır. «Əlvan çiçəklər» mahnı və rəqs ansamblının bədii rəhbəri kimi Əkrəm Məmmədov müxtəlif tədbirlərdə böyük uğurla musiqili-bədii kompozisiyalar yaradır.



***Gülər Quliyeva, Gülnaz Məmmədova, Əkrəm Məmmədov, 1986-cı il***

Əkrəm Məmmədov yorulmadan öz fəaləyyətini bu gün də əzmlə davam etdirir.

Istedadlı bəstəkar Elxan Muradov «Babək qızları», «Yolunu gözlədim», «Qarabuğdayı qız», «Ürəyim mənim», «Səndən dönən deyiləm», «Kaş» və digər lirik mahnıların müəllifidir. Naxçıvan Dövlət Musiqidi Dram Teatrı ilə də yaradıcılıq əlaqəsi saxlayaraq Cəfər Cabbarlının «Solğun çiçəklər», O.Bokayevin «Yetkinlər», C.Əfruzun «Qanqın böyük dalğası», Y.Yakovlevin «Oğlum Volodya» tamaşalarına diqqəti cəlb edən musiqi lövhələri bəstələmişdir.

Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını tar ixtisası üzrə bitirməsinə baxmayaraq, istedadlı ifaçı Azər Abbasov həm fortepianoda xalq mahnı və rəqslərinin mahir ifaçısı kimi, həm də bir sıra maraqlı musiqi əsərlərinin müəllifi kimi tanınmışdır. Bəxtiyar Vahabzadənin sözlərinə yazdığı «Dodaqda gəz» mahnısı, fortepiano üçün «Etüd», «Marş», kiçik pyeslər, xalq çalğı alətləri kvarteti üçün «Süita», xalq mahnı və rəqslərinin fortepiano üçün işləmələri müəllifin məhsuldar yaradıcılığının bəhrəsidir.

Gənc bəstəkar Nizami Məmmədovun bu illər yazdığı klarnet və fortepiano üçün «Skertso», «Adajio» pyesləri, «Arzuladığım qız», «Naxçıvanım» və i.a. mahnıları musiqisevərlər tərəfindən rəğbətlə qarşılanan əsərlərdəndir. Bu dövrdə Səyavuş Əlizadənin «Xətrinə dəydi» (sözləri E.Əliyevindir), Vidadi Heydərovun «Komsomol» (sözdəri A.Seyidovundur), «Vətən» (sözləri C.Novruzundur), Həlimə Məhərrəmovanın «Səni unuda bilmirəm» (sözləri D. Məhərrəmovundur), Sadiqə Qulubəyovanın «Niyə gəlmirsən» (sözləri A.Qulubəyovanındır) mahnıları, Vidadi Heydərovun

fortepiano üçün yazdığı «Prelüdiya», «Elegiya», «Uşaq pyesi» müəlliflərin ilk yaradıcılıq nümunələri kimi diqqəti cəlb edəndir.

Istedadlı pianoçu Yusif Məmmədov təhsilini SSRI xalq artisti, məşhur bəstəkar Arif Məlikovun sinfində başlamış, sonra isə ixtisasını dəyişərək tarix-nəzəriyyə şöbəsində oxumuşdur. O, bir sıra prelüdiyaların, instrumental pyeslərin, lirik mahnıların müəllifidir.

Naxçıvan musiqi həyatında bəstəkarlıq sənətinin inkişafı dirijorluq sənətinin inkişafına da mühüm təsir göstərmişdir. Belə ki, bəstəkarlar Məmməd Məmmədov, Məmməd Ələkbərov, Rəşid Məmmədov, Nazim Quliyev, Səidə Məmmədova, Əkrəm Məmmədov, Kamal Əhmədov öz əsərlərinə geniş konsert salonlarında dirijorluq edərək həm bəstəkar, həm də dirijor kimi tanınmışlar.



***Səidə Məmmədova, Naxçıvan MR-nın əməkdar incəsənət xadimi, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi***

Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Səidə Məmmədovanın da Naxçıvan musiqi mədəniyyətinin inkişafında öz payı var.

Onun zəngin sənət aləmində mənimsədiyi nəzəri biliyini, əldə etdiyi bacarığını musiqi mədəniyyətinin inkişafı prosesinə tətbiq etməsi yaradıcılığının nəzərə çarpan əsas cəhətlərindəndir.

Səidə xanım uzun illərdir ki, Muxtar Respublikanın mədəni həyatında yaxından iştirak edir. Belə ki, o, Naxçıvanda ilk xor kollektivinin əsasını qoymuş, Naxçıvan MR Xor Cəmiyyətinin sədri kimi bu sənətin inkişafına xeyli əmək sərf etmişdir. Səidə Məmmədova respublikada keçirilən əksər mədəni-kütləvi tədbirlərdə və bayram konsertlərində çıxış etmiş, çalışdığı musiqi, mədəni-maarif müəssisələrinin, ayrı-ayrı musiqi kollektivlərinin hər birində rəğbət qazanmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, XX əsrin əvvəllərində professional musiqi incəsənətinin ənənəvi formaları ilə yanaşı, musiqi ifaçılığında yeni formalar, o cümlədən, xor ifaçılığı yaradıcılığı başlayır. Bu baxımdan Naxçıvanda Səidə Məmmədova fəaliyyətinin əhəmiyyəti əvəzsizdir.

1975-ci ildə Naxçıvanda Üzeyir Hacıbəyli adına orta ixtisas musiqi məktəbi yaradılır. Səidə Məmmədova 1975-ci ildən 1983-cü ilədək bu məktəbin ilk direktoru işləmiş, sonrakı illərdən 1994-cü ilədək bu məktəbdə müəllim kimi fəaliyyət göstərmiş, 1994-cü ildən isə Naxçıvan Dövlət Universitetində yaranmış «Ifaçılıq» kafedrasının müdiridir.

O, pedaqoji fəaliyyətlə yanaşı yaradıcılıqla da məşğul olur. Səidə Məmmədova əsasən mahnı janrında müvəffəqiyyət qazanaraq, bir çox lirik, könül oxşayan mahnılar yaradır. Onun Naxçıvanın tanınmış şairlərindən M.Nəsirlinin, Ə.Yusiflinin, H.Razinin, K.Ağayevanın, E.Qasımovanın, Ə.Vəliyevin sözlərinə bəstələdiyi «Ürəyimdə hər gün», «Ağırdır», «Ayrılıq», «Könlümdəsən həmişə», «Görüş», «O kaman səsi» mahnıları –

«Naxçıvan təranələri» not məcmüəsinə daxil edilmişdir. Onun repertuarından «Ürəyimdə hər gün», «Doğma Naxçıvan» mahnıları bu dövrdə də konsert salonlarında ən çox səslənən mahrılardan hesab edilir.



***Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Səidə Məmmədova və sənətşünaslıq namizədi, musiqişünas Jalə Qulamova***

Hal-hazırda gözəl pedaqoq, həssas qəlbli insan, ictimai xadim kimi fəaliyyətini davam etdirən Səidə Məmmədova Naxçıvan Dövlət Universitetində yaranan «Opera studiyası»na da rəhbərlik edir. Onun səhnəyə qoyduğu Üzeyir Hacıbəylinin məşhur «Arşın mal alan» operettası bu gün də tələbələrin ifasında sevə-sevə təfsir olunur.

Bu dövrdə dirijor Rəfayıl Kərimovun, Məhin Orucovanın fəaliyyətləri də diqqət mərkəzində olmuşdur.

Qeyd edək ki, Naxçıvan musiqi mədəniyyətinin inkişaflı, məhsuldar dövründə qazanılan nailiyyətlər, mətbuatda, radio dalğalarında, televiziya verilişlərində işıqdandırılmışdır. Bu səciyyəli verilişlərdə ifaçıların, bəstəkarların, dirijorların həyat və yaradıcılıqları, Muxtar Respublikada keçirilən musiqi festivalları, müsabiqələr Naxçıvan musiqi mədəniyyəti haqqında tarixi materiallar öz əksini tapır və musiqisevərlərin diqqətini cəlb edir.

Musiqişünas Səyavuş Əlizadənin «Naxçıvan yallıları» elmi-tədqiqat işinin Muxtar Respublikanın musiqi həyatında ilk elmi əsər kimi diqqəti cəlb etməsi, Məmməd Ələkbərovun «Naxçıvan el mahnıları» toplusunun işıq üzü görməsi və hazırda bir sıra musiqiçilərin elmi-tədqiqat işləri üzərində çalışmaları Naxçıvan musiqi mədəniyyətində musiqişünaslığın inkişafından danışmağa imkan verir.



***Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi,***
***bəstəkar Nazim Quliyev***

Professional bəstəkarlıq təhsili almış bəstəkarlarımız sırasında Nazim Quliyevin də rolu diqqətəlayiqdir.

Ilk musiqi təhsilini Naxçıvan şəhər 1 saylı uşaq musiqi məktəbinin tar sinfində alan Nazim hələ məktəbdə oxuduğu illərdən özünün kiçik həcmli əsərlərini – orkestr üçün «Lirik rəqs», «Qaytağı», B.Vahabzadənin sözlərinə «Gör kimi sevdin», E.Əliyevin sözlərinə «Naxçıvan» mahnılarını yazır. 1972-ci ildə Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbinin, 1983-cü ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) xalq çalğı alətləri şöbəsində təhsilini başa vuran gənc musiqiçi, eyni zamanda bəstəkarlıq sinfində də təhsil alır. Onun bu illərdə yazdığı fortepiano üçün «6 miniatür», «9 prelüd», «Vapiasiyalar», xalq çalğı alətləri orkestri üçün «Nəqşi-cahan» süitası, B.Vahabzadənin sözlərinə «Səninlə», M.Arazın sözlərinə «Dağlar küsüb» romanslarını, M.P.Vaqifin sözlərinə «Adını deməRəm». Aşıq Ələsgərin sözlərinə «Çeşmə başında», A.Qasımovun sözlərinə «Ordubad» kimi mahnıları onun əsərləri arasında ilk nümunələr sırasındadır.

Yaradıcılıqla yanaşı Nazim Quliyevin Muxtar Respublikanın musiqi həyatında da xidmətləri böyükdür.

1974-78-ci illərdə Naxçıvan Televiziyası və Radio Verilişləri Komitəsində musiqi redaktoru işləyən gənc bəstəkar televiziyada bədii özfəaliyyət kollektivlərinin müsabiqələrini təşkil edir, mavi ekranda, radio dalğalarında, «Şərq qapısı» qəzetində Naxçıvan musiqi həyatının inkişafını əks etdirən verilişlərlə, məqalələrlə çıxış edir. 1983-88-ci illərdə təyinatla Naxçıvan orta ixtisas musiqi məktəbində müəllim işləyir, 1986-cı ildə yeni yaradılmış Naxçıvan Xalq Konservatoriyasının rektoru, 1988-98-ci illərdə Naxçıvan Dövlət Universitetində «Musiqi» kafedrasının müdiri vəzifəsində çalışır.

Onun müraciətinə əsasən bü gün də öz fəaliyyətlərini inamla davam etdirən Naxçıvan şəhər 1 saylı uşaq musiqi məktəbinə Məmməd Məmmədovun, 3 saylı musiqi məktəbinə isə Səfər Rəcəblinin adları verilir.

1994-cü ildə Azərbaycan Bəstəkarlar Ittifaqının Naxçıvan Təşkilatına məsul katib təyin olunan Nazim Quliyevin bu qurumun fəaliyyətində xidmətləri danılmazdır. Məhz bu illərdə o, özünün daha maraqlı əsərlərini yazır. Kamera orkestri üçün «Cavidi düşünərkən», «Naxçıvan eskizləri», «Xatirə pyesləri», qarışıq xor və xalq çalğı alətləri orkestri üçün «Naxçıvan» kantatası, xor və fortepiano üçün «Naxçıvan axşamları» və bir sıpa mahnı və romanslarını buna misal gətirmək olar. Sonra o, Bakıya köçərək Azərbaycan Dövlət Filarmoniyasının direktor müavini, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik orkestrinin direktoru, Azərbaycan Milli Konservatoriyasının nəzdində Respublika Incəsənət Gimnaziyasında direktor vəzifələrində çalışmışdır. Hal-hazırda Azərbaycan Milli Konservatoriyasında və Incəsənət Gimnaziyasında pedaqoji fəaliyyətini davam etdirir. 2000-ci ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb.

Nazim Quliyevin 2008-ci ildə yazdığı iri həcmli «İlham və Fərizə» operası onun yaradıcılığında xüsusi yer tutur. İki hissədən ibarət olan operanın librettosu da bəstəkara məxsusdur. Operadan Fərizənin ariozosu 2009-cu il 12-17 noyabr tarixlərində Azərbaycan Bəstəkarlar Ittifaqının 75 illik yubileyilə əlaqədar keçirilən «Musiqi fevstivalı»nda səslənərək Azərbaycan Respublikasının əməklar artisti Gülnaz İsmayılovanın ifasında maraqla qarşılandı.



***(soldan) Xalq artisti, dirijor Ağaverdi  Paşayev, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru Rauf Abdullayev, dünya şöhrətli violonçel ifaçısı  M.Rastropoviç, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, bəstəkar Nazim Quliyev***



***Nazim Quliyevin simfonik orkestrin  ifasında «Nəqşi-cahan» konserti. 7 mart, 2003-cü il***



***(soldan) bəstəkar Nazim Quliyev, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru Rauf Abdullayev, Azərbaycan bəstəkarlar Ittifaqının katibi Ramiz Zöhrabov, bəstəkar Tofiq Bakıxanov***

Nazim Quliyev bu gün də pedaqoji və yaradıcılıq fəaliyyətini əzmlə davam etdirir, yeni-yeni uğurlar qazanır. O, «Azərbaycan xalq musiqisində çoxsəslilik», tar üçün «Qamma və arpeciolar» elmi-nəzəri kitablarının, «Bəstəkar Məmməd Məmmədov», «Saçlar ağarmasın neyləsin», «Naxçıvan musiqi mədəniyyəti tarixindən» adlı 3 monoqrafiyanın, yüzdən artıq elmi-publisistik məqalələrin, 2 metodik tövsiyyənin müəllifidir. Eyni zamanda son illərdə yazdığı əsərlərdən görkəmli kamança ifaçısı Ədalət Vəzirova həsr etdiyi «Ədalətsiz kaman» poemasının, «6 portret» süitasının, Mikayıl Müşfiqin xatirəsinə həsr etdiyi tar və fortepiano üçün «Səni kim unudar» pyesinin, f-no üçün sonatinalarının və s. adlarını çəkə bilərik.

Yuxarıda qeyd etdiyimiz kimi, 1994-cü ildə Azərbaycan Bəstəkarlar Ittifaqının Naxçıvanda səyyar plenumu keçirilmiş və Naxçıvan Təşkilatının hesabat seçki yığıncağında Ramiz Mirişli – sədr, Nazim Quliyev və Əqidə Ələkbərova – müavinlər, Vasif Allahverdiyev – məsul katib vəzifələrinə təyin edilmişlər. Səyyar plenumda Azərbaycan Bəstəkarlar Ittifaqının sədri görkəmli bəstəkar Tofiq Quliyev, Azərbaycan Bəstəkarlar Ittifaqının katibi, musiqişünas Ramiz Zöhrabov, bəstəkar Ramiz Mirişli, müğənni Yaşar Səfərov iştirak etmişlər. Bu görkəmli sənətkarların Naxçıvan səfəri, eləcə də onların Naxçıvan bəstəkarlarının əsərləri haqqında söylədikləri xoş sözlər, dəyərli fikirlər gənc bəstəkarları yeni-yeni əsərlər yaratmağa ilhamlandırmışdır.

AZƏRBAYCAN
BƏSTƏKARLAR İTTİFAQI

370001 Bakı, M. Muxtarov, k-6 Tel.: 92-65-75
E— mail root C ELMA. azerbaijan. SU

№

«06» јанвар 1998 il.

Ә М Р №2

Азәрбајҹан Бәстәкарлар Иттифагы үзрә
05.01.1998-чи ил

Нахчыван Муxтар Республикасынын Баш Назири Ш.h.Хан-Бабајевин 4/409 сајлы 30.XII-1997-чи ил тарихли тәгдиматына әсасән әмр едирәм:

1.Бәстәкар Гулијев Назим Паша оглу Азәрбајҹан Бәстәкарлар Иттифагы Нахчыван Муxтар Республикасы Тәшкилатынын Сәдри тә"јин едилсин.

2. Мусигишүнас Әлијева Севда Аббасгулу гызы мәс"ул катиб вәзифәсинә тә"јин едилсин.

3. Азәрбајҹан Бәстәкарлар Иттифагы Нахчыван Муxтар Республикасы Тәшкилатынын Сәдри Гулијев Назим Паша оглуна тапшырылсын ки, макинaчы-стенографчы штатына ихтисасчы тә"јин етсин вә Нахчыван Бәстәкарлар Тәшкилаты үчүн бина ајрылмасы /концерт салону илә/ һаггында Нахчыван Муxтар Республикасынын Баш Назиринин гаршысында вәсатәт галдырсын.

Азәрбајҹан Бәстәкарлар
Иттифагынын Сәдри Т.Ә.ГУЛИЈЕВ

1998-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Naxçıvanın yaradıcı ziyalıları ilə görüşdə yaradıcı təşkilatların fəaliyyətlərini ciddi müzakirə etmişdir. Bu görüşün nəticəsində Azərbaycan Bəstəkarlar Ittifaqı Naxçıvan Təşkilatının hesabat-seçki yığıncağı keçirilmiş, Azərbaycan Bəstəkarlar Ittifaqının sədri Tofiq Quliyevin əmrinə əsasən Nazim Paşa oğlu Quliyev – sədr, Sevda Abbasqulu qızı Əliyeva – məsul katib vəzifələrinə təyin edilmişlər.

Sonrakı illərdə Naxçıvan musiqi mədəniyyətinin inkişafında mühüm xidmətləri olan bəstəkarlar Məmməd Məmmədov və Rəşid Məmmədov haqqında kitablar nəşr edilmiş, Məmməd Məmmədov haqqında sənədli film çəkilmişdir. Bu filmin ərsəyə gəlməsində bəstəkar Nazim Quliyev və rejissor Əsgər Əsgərovun böyük xidmətləri olmuşdur.

XX əsrin görkəmli bəstəkarı Qara Qarayevin 80 illik yub-ileyi Naxçıvan televiziyasında, mətbuatda geniş işıqlandırılmış, həmin ilin may ayında Türkiyə Respublikasının Ərzurum şəhərində keçirilən fəlsəfə konqresində «Naxçıvan aşıq yaradıcılığının fəlsəfi mahiyyəti» mövzusunda Nazim Quliyev məruzə etmişdir. Naxçıvan Muxtar Respublikasının 75 illk yubileyi ilə əlaqədar olaraq Nazim Quliyevin «Naxçıvan» kantatası (sözləri Elxan Əliyevindir) Azərbaycan Dövlət Xor Kapellasının, «Cavidi düşünərkən» əsəri Qara Qarayev adına Azərbaycan Dövlət Kamera orkestrinin, tar ilə simfonik orkestr üçün «Nəqşi-cahan» konserti Azərbaycan Dövlət Televiziya və Radiosunun simfonik orkestrinin repertuarlarına daxil edilmişdir.

Azərbaycan professional kollektivlərinin, professional musiqi-çilərinin Naxçıvanda qastrol səfərləri şəhər və rayonların musiqi həyatının zənginləşməsində böyük rol oynamışdır. Müxtəlif illərdə dahi bəstəkarımız Üzeyir Hacıbəylinin, görkəmli sənətkarlar Bülbülün, Xan Şuşinskinin, Tofiq Quliyevin rəhbərlik etdiyi estrada orkestrinin. SSRI Xalq artisti Niyazinin rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin, SSRI xalq artisti Rəşid Behbudovun rəhbərlik etdiyi Azərbaycan Dövlət Mahnı Teatrının, Səid Rüstəmov adına Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin, SSRI və Azərbaycan SSR-nin xalq artistləri Zeynəb Xanlarovanın, Lütfiyar Imanovun, Fərhad Bədəlbəylinin və

bir çox məşhur müğənni və musiqiçilərin Naxçıvandakı konsertləri Muxtar Respublikanın musiqi tarixinin parlaq səhifələrindəndir.

Dövlətimiz Naxçıvan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə bir çox musiqiçiləri müxtəlif illərdə fəxri adlarla, fəxri fərmanlarla təltif etmişdir. Belə ki, bəstəkar Ramiz Mirişli Azərbaycan Respublikasının xalq artisti, bəstəkar Nəriman Məmmədov - Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, dirijor Səidə Məmmədova - Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, tarzən Məmməd Məmmədov, akkardeon ifaçısı Yusif Əliyev – Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi, bəstəkar Məmməd Ələkbərov – Naxçıvan Respublikasının əməkdar incəsənət xadimi, bəstəkar Rəşid Məmmədov, tarzən Əkrəm Məmmədov – Naxçıvan Respublikasının əməkdar mədəniyyət işçisi, xənəndə Qurban Qasımov – Naxçıvan Respublikasının əməkdar artisti, xənəndə Abdulla Babayev Azərbaycan Respublikasının xalq artisti fəxri adlarına layiq görülmüşlər.

2000-ci ildə isə Nazim Quliyevin Bakıya köçməsi ilə əlaqədar Naxçıvan Təşkilatının rəhbərliyi Şəmsəddin Qasımova həvalə edilmişdir.

Азәрбајҹан Бәстәкарлар Иттифагы

үзрә

Ә М Р № 06

05.05.2000-чи ил

Нахчыван МР Баш Назири Ә.Бахшијевин 4/207 сајлы 29 апрел 2000-чи ил тарихли тәгдиматына әсасән әмр едирәм:

I. Бәстәкар Шәмсәддин Мустафа оглу Гасымов Азәрбајҹан Бәстәкарлар Иттифагынын Нахчыван МР Тәшкилатынын Сәдри вәзифәсинә тә"јин едилсин.

2. Бәстәкар Камал Рүстәм оглу Әһмәдов, мәс"ул катиб вәзифәсинә тә"јин едилсин.

3. Азәрбајҹан Бәстәкарлар Иттифагы Нахчыван Мухтар Республикасы Тәшкилатынын сәдри Назим Паша оглу Гулијев Бакы шәһәринә көчдүјү үчүн Тәшкилатын сәдри вәзифәсиндән азад едилсин.

4. Азәрбајҹан Бәстәкарлар Иттифагы Нахчыван МР-сы Бәстәкарлар Тәшкилатынын мәс"ул катиби Әлијева Севда Абасгулу гызы Бакыја көчдүјү үчүн Тәшкилатын мәс"ул катиби вәзифәсиндән азад едилсин.

5. Азәрбајҹан Бәстәкарлар Иттифагы Нахчыван МР-сы Тәшкилатынын Сәдри Ш.М.Гасымова тапшырылсын ки, макиначы-стенографистка штатына ихтисасчы тә"јин едилсин.

Азәрбајҹан Бәстәкарлар Иттифагы
Идарә Һеј"этинин Биринчи Катиби — В.З.АДЫГЕЗАЛОВ

Bu gün Naxçıvan Bəstəkarlar Təşkilatına böyük qayğı göstərilir, bəstəkar və musiqişünasların yaradıcılığının inkişafı üçün lazımi şərait yaradılır. Bu qayğının və Naxçıvan Muxtar Respublikasında ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan möhtəşəm vəzifələrin layiqincə yerinə yetirilməsinin nəticəsidir ki, 1998-ci ildə Naxçıvan Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbovun yaradıcı ziyalılarla görüşündən sonra Azərbaycan Bəstəkarlar Ittifaqı Naxçıvan Təşkilatının fəaliyyətində ciddi dönüş yarandı və 2000-ci ilin may ayından yeni tələb və tapşırıqlarla fəaliyyətə başlayan Naxçıvan Muxtar Respublikasının

Bəstəkarlar Təşkilatı artıq 10 ildir ki, müntəzəm olaraq Muxtar Respublikanın ictimai – mədəni həyatında yaxından iştirak edir, musiqi mədəniyyətimizin zənginləşməsi və inkişafı yolunda geniş fəaliyyət göstərir.

Bəstəkarlar Təşkilatının məqsədi xalqın mənəvi zənginləşməsinə xidmət göstərən Azərbaycan musiqi mədəniyyətini inkişaf etdirməkdən, musiqi irsinin qeydinə qalmaqdan, Azərbaycan bəstəkarlarının əsərlərini ölkəmizdə və onun hüdudlarından kənarda təbliğ etməkdən ibarətdir. Bunun üçün Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı öz fəaliyyətində Azərbaycan və eləcə də Naxçıvan diyarının musiqi sənətinin yaradıcılıq çoxcəhətliliyini, milli musiqi klassikasının və dünya musiqi mədəniyyətinin ən yaxşı ənənələrinin qorunub saxlanması və yeniləşdirilməsi prinsiplərini əsas kimi qəbul etmişdir. Bu məqsədlə təşkilat üzvləri ayrı-ayrılıqda öz öhdəsinə düşən vəzifələri dərindən dərk edərək, musiqi mədəniyyətimizin inkişafı naminə öz yaradıcılıq potensiallarını daha da artırmışlar. Üç bəstəkar və dörd musiqişünası öz ətrafında birləşdirən təşkilat fəaliyyətinin 10 ili müddətində muxtar respublika rəhbərliyinin qayğısı və köməkliyi ilə 2001-ci, 2005-ci və 2007-ci illərdə Naxçıvan bəstəkarlarının müxtəlif janrlarda yazdıqları əsərlərindən ibarət üç hesabat konserti keçirmişdir. Konsertlərdə Naxçıvan bəstəkarlarının yazdıqları yeni əsərlər musiqisevərlərin dərin marağına səbəb olmuşdur.

Qeyd etdiyimiz kimi 2001-ci ildə Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının birinci hesabat konsertinin uğurlu çıxışından sonra 2005-ci il aprelin 16-17-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Bəstəkarlar Ittifaqının Səyyar Plenumu keçirilmişdir. Plenum bütövlükdə Naxçıvan Bəstəkarlar Təşkilatının işinə həsr olunmuşdur. Onun işində iştirak etmək üçün Bakıdan

Azərbaycan Bəstəkarlar İttifaqının katibi, əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabov, respublikanın xalq artisti, professor Tofiq Bakıxanov, respublikanın xalq artisti Nəriman Məmmədov və Azərbaycan Bəstəkarlar Ittifaqının məsul katibi, sənətşünaslıq namizədi Lalə Hüseynova Naxçıvana ezam edilmişlər. Nümayəndə heyəti Naxçıvanın bir sıra mədəniyyət ocaqlarında, o cümlədən Naxçıvan Dövlət Filarmoniyasında, Dövlət Xalça Muzeyində, Hüseyn Cavidin ev muzeyində və Möminə Xatun məqbərəsində olmuş, habelə Naxçıvan Dövlət Universitetində tələbələrin hazırladığı Üzeyir Hacıbəylinin «Arşın mal alan» operettasından fraqmentlərə baxmışlar. Universitetin rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Isa Həbibbəyli qonaqları Universitet şəhərciyi və yenicə istifadəyə verilmiş, texnikanın son nailiyyətləri ilə təchiz edilmiş elektron kitabxana ilə tanış etmişdir.



***(soldan) Bəstəkarlr Nəriman Məmmədov, Tofiq Bakıxanov, Bəstəkarlar İttifaqının katibi Ramiz Zöhrabov, Naxçıvan Bəstəkarlar Təşkilatının sədri***

***Şəmsəddin Qasımov, Azərbaycan Bəstəkarlar İttifaqının məsul katibi Lalə Hüseynova, Naxçıvan MR Baş Nazirinin müavini Təranə Quliyeva.***

Aprelin 16-da Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Plenumun açılışı olmuşdur. Tədbiri giriş sözü ilə Təşkilatın Sədri Şəmsəddin Qasımov açaraq bildirdi ki, bu gün Naxçıvan bəstəkarlıq məktəbinin yetirmələri özlərinin müxtəlif janrlarda yazdıqları yeni əsərləri ilə Sizlərin qarşısında çıxış edəcək, növbəti yaradıcılıq hesabatı verəcəkdir. Sonra o, əsərləri səsləndiriləcək müəlliflərin yaradıcılığı haqda geniş məlumat verdi. Eyni zamanda bütün bu uğurların əldə edilməsində Ali Məclisin Sədri Vasif Talıbovun da böyük diqqət və qayğısının danılmaz olduğunu qeyd etdi.

Hesabat konsertində bəstəkar Rəşid Məmmədovun Elçin Nağıyevin ifasında Elman Həbibin sözlərinə yazdığı «Sən əbədiliksən», Həmid Arzulunun sözlərinə «Xoşbəxt ol ay qız» və «Qurban gedər eşqimiz» mahnıları; Kamal Əhmədovun xalq çalğı alətləri orkestri üçün «Rekviyem», fortepiano üçün «Prelüdlər», «Lirik rəqs», solist Azər Cəfərovun ifasında Həsən Valehin sözlərinə «Qoşa çinar» mahnısı və Mübariz Əsgərovun ifasında Elbəyi Maqsudovun sözlərinə «Vətəndir» romansı; Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, musiqişünas Əqidə Ələkbərovanın yazdığı Naxçıvan Dövlət Universitetinin xor kollektivinin ifasında Vəli Qaraxanın sözlərinə «Vətənim gülşən» mahnısı; Şəmsəddin Qasımovun Naxçıvan Dövlət Universitetinin və Qızlar Litseyinin xor kollektivi və solist Azər Cəfərovun ifasında Həmid Arzulunun sözlərinə «Sən həmişə bizimləsən» elegiyası, Qəribə Hüseynovanın ifasında Rövşən Hüseynovun sözlərinə «Zərifə həkim» mahnısı, Ilyas Fərəməzoğlunun sözlərinə «Naxçıvan lövhələri» vokal süitası, Naxçıvan Qızlar Litseyinin xoru və rəqs kollektivinin ifasında

«Naxçıvan», Naxçıvan Dövlət Universitetinin və Qızlar Litseyinin xor kollektivinin və solist Elçin Nağıyevin ifasında Ələkbər Qasımovun sözlərinə «Xalqımın Ilhamı» mahnı-marşı; Yaşar Xəlilovun «Odlu torpaq» 4 hissəli xoreoqrafik süita, tar və xalq çalğı alətləri orkestri üçün «Konsert»indən ikinci və üçüncü hissələr (tarda ifa edir Beynəlxalq müsabiqələr luareatı Zeynalabdin Babayev), müəllifin öz ifasında fortepiano üçün «Prelüdiya» səsləndi. Beləliklə, Naxçıvan bəstəkarlarının son üç ildə yazdığı əsərlərlə tanışlıq tamaşaçıların zövqünü oxşadı.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının 2007-ci ilin aprel ayında keçirilmiş növbəti - üçüncü hesabat konsertində də Azərbaycan Bəstəkarlar Ittifaqının birinci katibi, əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabov, məsul katib sənətşünaslıq namizədi Lalə Hüseynova iştirak etmiş, konsertdə ifa olunan əsərlərin müzakirəsini keçirmiş, məsləhət və təkliflərini, tövsiyyələrini söyləmişlər.



***Ramiz Zöhrabov və Şəmsəddin Qasımov***

Tədbiri giriş sözü ilə açan Şəmsəddin Qasımovdan sonra Azərbaycan Bəstəkarlar Ittifaqının birinci katibi Ramiz Zöhrabov çıxış edərək Naxçıvan Bəstəkarlar Təşkilatının bugünkü vəziyyətinin qənaətbəxş olduğunu, ikinci hesabat konsertinin yüksək səviyyədə olmasını, bu günkü konsertdən də çox şey gözlədiklərini, eyni zamanda həmişə olduğu kimi Naxçıvan Ali Məclisinin Sədri Vasif Talıbovun bəstəkarlara göstərdiyi böyük diqqət və qayğının şahidi olduqlarını qeyd etdi.

Sonra o, Bəstəkarlar Təşkilatına yeni qəbul olunan 3 nəfərə – Yeganə Əsədovaya, Bənövşə Rzayevaya və Günay Məmmədovaya üzvlük kitabçasını təqdim etdi. Ardınca bəstəkarların – Şəmsəddin Qasımovun, Kamal Əhmədovun, Yaşar Xəlilovun, Günay Məmmədovanın əsərlərindən ibarət konsert proqramı dinlənildi.



***Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Bəstəkarlar İttifaqının katibi Ramiz Zöhrabov Naxçıvan Muxtar Respublika Bəstəkarlar Təşkilatının uçuncu hesabat konsertində***



***Naxçıvan musiqi Kollecinin birləşmiş xorunun üçüncü hesabat konsertindən çıxışı***



***Naxçıvan MR Ali Məclisinin Sədri Vasif TalıbovNaxçıvan Bəstəkarlar təşkilatının III konfransının nümayəndələri ilə birlikdə.***

Qeyd edək ki, Naxçıvan Bəstəkarlar Təşkilatının Azərbaycan Bəstəkarlar Ittifaqının Bakıda keçirdiyi plenumlardakı çıxışları və Muxtar Respublikamızda ərsəyə gələn mədəni-kütləvi tədbirlərdəki iştirakı təşkilatın fəaliyyətinin genişlənməsini əks etdirir.

2007-ci ilin iyun ayında Bakıda keçirilən Azərbaycan Bəstəkarlar Ittifaqının VIII qurultayında bəstəkar və musiqişünaslarımız bu qurultayda tam heyətdə iştirak etmiş, Naxçıvan bəstəkarlarının əsərləri qurultayın konsert proqramına daxil edilərək səsləndirilmişdir.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı öz potensialını genişləndirərək Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi, Yazıçılar Birliyi, Gənclər və Idman Nazirliyi, Dövlət Filarmoniyası, Naxçıvan Dövlət Musiqili

Dram Teatrı, Dövlət Kukla və Uşaq teatrları ilə də sıx yaradıcılıq əlaqələri saxlamışdır. Bu müddət ərzində bir çox yerli şairlərin sözlərinə Naxçıvan bəstəkarları tərəfindən mahnılar bəstələnmiş və bu mahnılar vaxtaşırı Naxçıvan televiziyası və radiosu ilə səsləndirilmişdir.

Qeyd etdiyimiz kimi, Naxçıvan Bəstəkarlar Təşkilatının təşəbbüsü ilə tez-tez bir çox görkəmli sənətkarların yaradıcılıq gecələri keçirilir.

Belə tədbirlərdən biri Naxçıvan Bəstəkarlar Təşkilatının rəhbərliyinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbova müraciətinə əsasən, xalq artisti, professor Tofiq Bakıxanovun 75 illik yubileyi 2006-cı il may ayının 19-20-də Naxçıvanda yüksək dövlət tədbiri səviyyəsində qeyd olundu.



***(soldan) Naxçıvan Bəstəkarlar Təşkilatının sədri Şəmsəddin Qasımov, bəstəkar Nəriman Məmmədov, Azərbaycan Bəstəkarlar Ittifaqının məsul katibi Lalə Hüseynova, bəstəkar Tofiq Bakıxanov, Azərbaycan Bəstəkarlar Ittifaqının katibi Ramiz Zöhrabov, Naxçıvan MR Mədəniyyət və Turizm***

***naziri Sarvan Ibrahimov ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki büstü qarşısında***

Gənclik mərkəzində keçirilən və dövlət rəsmilərinin, geniş ictimaiyyətin iştirak etdiyi bu tədbirdə çıxış edən Ali Məclisin sədri cənab Vasif Talıbov görkəmli bəstəkarın böyük həyat yolu, musiqimizi zənginləşdirən irsi barədə ətraflı söz açdı.

O, bəstəkar üçün çox zəruri sayılan, bilavasitə Tofiq Bakıxanovun yaradıcılıq üslubunu səciyyələndirən bir keyfiyyəti xüsusi vurğuladı: «Elə bəstəkarlar var ki, mahnı janrından yuxarı qalxa, elələri də var ki, klassik janrlardan aşağı, yəni mahnı janrına enə bilmirlər. Tofiq Bakıxanov üçün belə problem yoxdur. O, musiqinin bütün janrlarında yazıb-yaratmışdır».



***Azərbaycan Bəstəkarlar Ittifaqının***
***Sədri Firəngiz xanım Əlizadə Ittifaqın kollektivi ilə birlikdə***



***Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Bəstəkarlar Ittifaqının katibi Ramiz Zöhrab***

Azərbaycan Bəstəkarlar Ittifaqının katibi, əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabovun konsertdə ön sözündən sonra Tofiq Bakıxanovun ümummilli lider Heydər Əliyevə həsr olunmuş «Həmişə bizimiləsən» simfonik poeması lent yazısında səsləndirdi və bu əzəmətli musiqi çox uğurlu şəkildə Heydər Əliyevin həyat və fəaliyyətini işıqlandıran kinoxronika kadrları ilə müşəyiət olundu.

Ümumiyyətlə, konsertdə Tofiq Bakıxanovun çoxşaxəli yaradıcılığı kifayət qədər geniş əhatə olunmuşdu. Bəstəkarın məşhur «Xəzər balladası» baletindən «Neft fəvvarəsi rəqsi», «Şərq poeması» baletindən isə «Qızların rəqsi»ni orijinal bir ifada - qarmonda Zakir Mirzəyevin və pianoda Arzu Səfərovanın, habelə tarda Sahib Paşazadənin, nağarada Məmmədəli Babayevin ifasında səsləndi. Bundan başqa Zakir Mirzəyev görkəmli tarzən Əşməd Bakıxanova

həsr olunmuş «Xatirə» konsertinin ikinci və üçüncü hissələrini özünəməxsus təfsirdə ifa etdi.

Tofiq Bakıxanovun irsində çox geniş və mühüm yer tutan konsert janrının bir nümunəsini – Üzeyir Hacıbəyliyə həsr olunmuş «Azərbaycan» simfoniyasını ustad turzən, xalq artisti Ramiz Quliyev həmişə olduğu kimi alovlu bir ilhamla, emosional coşğunluqla musiqisevərlərə çatdırdı. Nəhayət, Tofiq Bakıxanovun proqramda geniş əks olunmuş mahnı nümunələrini istedadlı müğənnilər Nuriyyə Hüseynova və Cavid Hüseyn yüksək şövqlə ifa etdilər. Iki saatdan artıq davam edən və hər ifadan sonra sürəkli alqışlarla qarşılanan konsertdəki auditoriyanın məhz ciddi musiqiyə, əsl sənətə olan böyük marağının və həssas münasibətinin parlaq təcəssümünə çevrildi.[1]

2008-ci ilin iyul ayının 29-da isə Naxçıvan Bəstəkarlar Təşkilatının 30 illik yubileyi də təntənə ilə qeyd olundu. Bu möhtəşəm tədbirdə iştirak etmək üçün Azərbaycan Bəstəkarlar Ittifaqının sədri, Azərbaysan Respublikasının xalq artisti, Şöhrət ordenli, professor, «Yunesko»nun xətti ilə «Dünyanın artisti» fəxri adına layiq görülmüş Firəngiz xanım Əlizadə, Azərbaycan Bəstəkarlar Ittifaqının katibi, sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabov, Azərbaycan Bəstəkarlar Ittifaqının məsul katibi, sənətşünaslıq namizədi Lalə xanım Hüseynova, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, kino-rejissor – Cahangir Zeynallı da dəvət olunmuşdular.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Bəstəkarlar Təşkilatının sədri Şəmsəddin Qasımov açaraq, təşkilatın yaranması, bu 30 ildə onun keçdiyi yolu səciyyələndirdi. O, eyni

[1] «Naxçıvan təəssüratları: Bəstəkar Tofiq Bakıxanovun yubileyindən qeydlər». Musiqi dünyası jurnalı, №3-4/2006.s.20

zamanda Naxçıvan rəhbərliyi tərəfindən təşkilata böyük diqqət və qayğı göstərildiyini, bəstəkarların musiqi yaradıcılığının inkişafı üçün hərtərəfli şərait yaradıldığını bildirdi.

Öz ürək sözlərini və təbriklərini çatdırmaq üçün Azərbaycan Bəstəkarlar Ittifaqının sədri Firəngiz xanım Əlizadə səhnəyə dəvət olundu. O, yubiley münasibətilə musiqiçiləri təbrik etdi, eyni zamanda Naxçıvanda gedən böyük quruculuq işlərindən, hər sahəyə olan diqqət və qayğıdan, eləcə də Bəstəkarlar Təşkilatına və onun üzvlərinə olan isti münasibətdən danışdı. Firəngiz xanım həmçinin qeyd etdi ki, «bizim Azərbaycanın bir çox bölgələrində təşkilatlarımız fəaliyyət göstərir. Lakin Naxçıvan Təşkilatı ən fəal, öndə gedən təşkilatlarımızdandır. Biz həmişə Naxçıvan musiqiçilərini çox böyük məhəbbətlə qarşılamışıq və onların əsərlərinə, musiqişünaslarının isə yazdıqları kitablara böyük diqqət yetirmişik». Sonra Firəngiz Əlizadə Şəmsəddin Qasımova müstəqil Azərbaycanın Bəstəkarlar Ittifaqının yeni üzvlük kitabçasını təqdim etdi.



*ə*

əstə-
karl nsert
keç xtəlif

janrlı seçmə əsərləri uğurla səsləndirildi və tamaşaçıların zövqünü oxşadı.



***Azəbaycan Bəstəkarlar Ittifaqının Sədri Firəngiz Əlizadə və Naxçıvan Bəstəkarlar Təşkilatının Sədri Şəmsəddin Qasımov***

Konsertdə Üzeyir Hacıbəylinin «Koroğlu» operasından uvertura, müxtəlif səciyyəli mahnı və digər musiqi nümunələri səsləndirildi. Bəstəkarlardan Ramiz Mirişlinin, Rəşid Məmmədovun, Əkrəm Məmmədovun, Şəmsəddin Qasımovun, Kamal Əhmədovun, Yaşar Xəlilovun, Günay Məmmədovanın yazdıqları əsərlər Naxçıvan Dövlət Filarmoniyasının xalq çalğı alətləri və kamera orkestrinin müşaiyətilə solistlər tərəfindən ifa edildi.

Ifaçılar müəlliflərin duyğu və düşüncələrini, hiss və həyəcanlarını musiqinin təkrarsız, ecazkar gücü ilə dinləyicilərə

çatdırdılar. Muxtar Respublikanın əməkdar artistləri Mübariz Əsgərovun, Gülyanaq Fərzəliyevanın, Filarmoniyanın solisti, Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Tural Nəcəfovun, solistlərdən Qəribə Həsənovanın, Azər Cəfərovun, Elçin Nağıyevin ifa etdikləri «Naxçıvan təranələri», «Vətəndir», «Sən həmişə bizimləsən», «Haydı ər oğullar», «Zərifə həkim» mahnıları tamaşaçılar tərəfindən rəğbətlə qarşılandı. Ordubad rayon uşaq musiqi məktəbinin xor kollektivinin ifasında səslənən «Azərbaycanım», «Bizim ellər», «Heydər himni», xalq çalğı alətləri ifaçılarından Zeynalabdın Babayevin, Çingiz Babayevin, gənc pianoçu Ülvi Əhmədovun çaldıqları əsərlər, Naxçıvan Dövlət Filarmoniyasının «Araz» Dövlət Mahnı və Rəqs ansamblının ifa etdikləri «Naxçıvan» süitası tamaşaçılara xoş ovqat bəxş etdi



***Ifa edir Naxçıvan Dövlət Filarmoniyasının xalq çalğı alətləri orkestri. Orkestrin bədii rəhbəri və dirijoru Azərbaycan Respublikasının əməkdar artisti Elman Əliyevdir***



***Naxçıvan Dövlət Filarmoniyasının kamera və xalq çalğı alətləri orkestrinin çıxışı. Solist Mübariz Əsgərov. Dirijor Elman Əliyev***



***Azərbaycan Respublikasının xalq artisti, Naxçıvan Dövlət Filarmoniyasının kamera orkestrinin bədii rəhbəri və dirijoru Çingiz Axundov kamera orkestrinə dirijorluq edərkən***



*Skripkada ifa edir Cahangir Qurbanov*



*Solist Azər Cəfərov*




*Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Tural Nəcəfov*



***Naxçıvan Dövlət Filarmoniyasının kamera və xalq çalğı alətləri orkestrinin çıxışı. Soist Elçin Nağıyev, dirijor Çingiz Axundov***



***Naxçıvan Musiqi Kollecinin birləşmiş xoru. Dirijor Aynur Əhmədova***



***Naxçıvan Dövlət Filarmoniyasının «Araz» Dövlət Mahnı və Rəqs ansamblı***



***Gənc pianoçu Ülvi Əhmədov***

O da aydın oldu ki, ötən 30 il bəstəkarlar təşkilatı və onun üzvləri üçün əziz və unudulmazdır. Təşkilatın kollektivi 30 ildə əldə olunan uğurları bundan sonra da artıraraq ümummilli liderimiz Heydər Əliyevin ideyalarının həyata keçirilməsi işində bütün qüvvə və bacarıqlarını sərf edəcəklər.

Beləliklə, Naxçıvan musiqi mədəniyyəti böyük tarixi inkişaf yolu keçərək, XX əsrin sonlarında artıq yüksək səviyyə əldə etmişdir. Yaradıcılıq nailiyyətləri ilə dolu olan bu illər, Naxçıvan musiqi mədəniyyətinin parlaq, unudulmaz tarixi səhifələrindəndir.



***Ifa edir Naxçıvan Dövlət Filarmoniyasının «Araz» Mahnı və Rəqs Ansamblı. Bədii rəhbər Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Zöhrab Axundov, baletmeystr Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Tamerlan Bağırov***

Tarixi baxımdan şərəfli bir yol keçmiş Naxçıvan Muxtar Respublikasının Bəstəkarlar Təşkilatı və onların üzvləri bu gün də öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirir və musiqi mədəniyyətimizin inkişafı naminə var qüvvələrini əsirgəməyərək Azərbaycan musiqisinin zənginləşdirir, xalqımıza yeni-yeni töhfələr bəxş edirlər.

# II FƏSIL

# NAXÇIVAN MUXTAR RESPUBLIKASI BƏSTƏKARLAR TƏŞKILATININ ÜZVLƏRININ YARADICILIĞINA BIR BAXIŞ



Naxçıvan Muxtar Respublika Bəstəkarlar Təşkilatı bir çox bəstəkar və musiqişünasların sənətinin püxtələşməsində və təkmilləşməsində mühüm rol oynamışdır. Hal-hazırda Bakı şəhərində yaşayıb-yaradan bəstəkarlardan Nazim Quliyev, Vasif Allahverdiyev, musiqişünaslardan Sevda Əliyeva, Güllü Ismayılova, Jalə Qulamova (Əliyeva), Türkiyə Cümhuriyyətinin Qars şəhərində pedaqoji fəaliyyətini davam etdirən musiqişünas alim Əqidə Ələkbərova Naxçıvan Muxtar Respublika Bəstəkarlar Təşkilatının yetirməsidirlər. Bu gün Naxçıvan Muxtar Respublika Bəstəkarlar Təşkilatında fəaliyyət göstərən 7 üzv öz yaradıcılıq imkarlarından istifadə edirlər. Təşkilatda fəaliyyət göstərən bu üzvlərinin yaradıcılıq yoluna nəzər salaq.

## ŞƏMSƏDDIN QASIMOV



Doğma Azərbaycanımızın musiqi mədəniyyəti, onun ifaçılıq və bəstəkarlıq sənəti çox qədim və zəngindir. Əlbəttə ki, musiqi

mədəniyyətimizin öyrənilməsi tariximizlə sıx bağlıdır. Indiki dövrdə məhz musiqi tariximizin açılmayan, qaranlıq qalan səhifələrini açmaq olduqca zəruridir.

Naxçıvanın musiqi tarixi, musiqiçiləri haqqında aparılan tədqiqatlar da bu baxımdan əhəmiyyətlidir.

Naxçıvan MR-nın əməkdar incəsənət xadimi Şəmsəddin Qasımovun Respublikanın musiqi mədəni həyatında özünəməxsus yeri vardır.




Şəmsəddin Mustafa oğlu Qasımov 1955-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Uşaqlıqdan musiqiyə böyük həvəs göstərən Şəmsəddin ilk musiqi təhsilini Naxçıvan şəhərində 1 saylı uşaq musiqi məktəbinin tar sinfində almış, 1971-75-ci illərdə isə Asəf Zeynallı adına Bakı orta ixtisas musiqi məktəbində təhsilini davam etdirmiş və bu məktəbi müvəffəqiyyətlə bitirmişdir. Sonra istedadlı tarzən Naxçıvana qayıtmış, uşaq musiqi məktəbində

müəllim kimi fəaliyyətə başlamışdır. Şəmsəddin Qasımov istedadlı uşaqların tar aləminin sirlərinə yiyələnməsində xüsusi səy göstərmişdir. Belə ki, o, həssas musiqi duyumu, musiqi qavrayışı ilə bərabər çox böyük həvəslə tarda çalmağın, xüsusilə muğam ifaçılığının sirlərini sevimli şagirdlərinə indi də xüsusi ilhamla aşılayır.

Ətraf aləmə, oxuyub-öyrənməyə, sənətə olan böyük maraq onu 1980-ci ildə Azərbaycan Dövlət Incəsənət Universitetinə gətirmişdir. O, uğurla imtahanlarını verib mədəni-maarif fakultəsinə daxil olur. 1985-ci ildə universitetin mədəni-maarif fakultəsini bitirməklə özfəaliyyət teatr kollektivinin rəhbəri ixtisasına yiyələnir.

O, 1981-ci ildə Nehrəm və Cavidabad kəndlərində musiqi məktəblərinin açılmasına nail olmuş və bu məktəblərin direktoru vəzifəsində çalışmışdır. Sonralar o, Naxçıvanın 1 və 2 saylı uşaq musiqi məktəblərində əvvəl müəllim, sonra isə dərs hissə müdiri işləmişdir.

Tarzən olmaqla yanaşı Şəmsəddin Qasımov 1970-ci illərdə həm də bəstəkar kimi fəaliyyətə başlayır. O, bəstəkar kimi yaradıcılıq prosesində əlinə qələm aldığı vaxtdan insanların bədii estetik zövqünü oxşayan mahnı janrına xüsusi diqqət yetirir.

Ümumiyyətlə, mahnı sözün həqiqi mənasında tez qavranılması baxımından və bədii-estetik təsir gücünə görə xalq arasında ən çox sevilən janrdır. Heç təsadüfi deyildir ki, böyük bəstəkarımız Fikrət Əmirov «Musiqi tərbiyə vasitəsidir» adlı məqaləsində mahnı janrı haqqında belə bir fikir söyləyir: «Xalqın ən çox sevdiyi, oxuduğu, həmişə eştiməyə ehtiyas duyduğu kütləvi musiqi janrlarından biri, bəlkə də birincisi mahnıdır. Mahnı adı məişət məsələlərindən tutmuş, ta yüksək humanist, beynəlmiləl, bəşəri fikirlərə qədər çox geniş bir

sahəni əhatə edə bilən ən demokratik, ən operativ janrdır. Mahnı qanadlı quş kimidir».

Şəmsəddin Qasımov da Azərbaycan xalq musiqisinin ana xəttini təşkil edən saysız-hesabsız mahnı nümunələrinin melodiya və mətn əsası ilə daha yaxından tanış olmuş, bu kimi amilləri öz yaradıcılıq istiqaməti üçün əsas meyar götürmüşdür. Məhz bütün bunların nəticəsidir ki, bəstəkarın qələmindən olduqca şirin, təravətli mahnı melodiyaları ərsəyə gəlmişdir.

Əsasən kütləvi mahnı janrında çalışan Şəmsəddin Qasımov mərhum şair Ibrahim Orucovun sözlərinə 20-ə qədər, müxtəlif şairlərin və şəxsən özünün sözlərinə 30-dan artıq mahnının müəllifidir.

M.Araz, B.Vahabzadə, H.Arif, I.Orucov, A.Yadigar, M.Qasımzadə, Z.Vedili, A.Mirzəyev, R.Hüseynov, I.Fərəməzoğlu, Ə.Qasımov, L.Əsgərzadə, F.Seyidov və başqa şairlərin sözlərinə yazılmış mahnılarda bəstəkar doğma Vətəni, onun füsunkar gözəlliklərini, əməksevər insanları vəsf etməklə yanaşı, öz yaradıcılığında lirik məhəbbət mövzusunda mahnılara da geniş yer vermişdir.

Ibrahim Orucovun sözlərinə bəstələdiyi «Gözlə məni», «Sevmək necə olur bəs», Abasqulu Mirzəyevin sözlərinə «Dedin: məhəbbət hanı», Muxtar Qasımzadənin sözlərinə «Bilə-bilə». Asim Yadigarın sözlərinə «Unut bu sevdanı» və «Unutsam dözəcəkmi?», öz sözlərinə «Mən anlamadım», «Sənin sevgin, mənim sevgim», «Getmə», «Darıxmışam sənin üçün» və s. kimi lirik mahnılarında sözlə musiqinin sıx vəhdəti, melodiyalarında xoş təravət, ürəyəyatımlılıq dənləyicidə ən xoş duyğular oyadır.

Şəmsəddin Qasımov son illərdə günün nəbzini tutan mövzulara müraciət edərək, gənclərə mənəvi dayaq olan, onlara cəsarət aşılayan

və qələbəyə ruhlandıran vətənpərvərlik səciyyəli mahnılar bəstələmişdir. Ələkbər Qasımovun sözlərinə «Müstəqil Respublikam», Rövşən Hüseynovun sözlərinə «Müstəqillik nəğməsi», Ilyas Fərəməzoğlunun sözlərinə «Azərbaycan gəncləri», Zaur Vedilinin sözlərinə «Azərbaycan» kimi mahnılar məhz bu qəbildəndir.

Eyni zamanda bəstəkar xalqımızın başına gələn «20 yanvar» müsibətinin, nahaqdan tökülmüş qanın ağrı-acıların əks sədası kimi Azərbaycanın milli qəhrəmanları Ibrahim Məmmədova həsr olnumuş «Altı bacı», Yusif Mirzəyevə həsr edilmiş «Yusifim», polis mayoru Məhərrəm Seyidova həsr olunmuş «Məhərrəm», Sədərəyin ən kiçik şəhidləri Malik və Elvin qardaşları haqqında «Malikim, Elvininm mənim», Ibrahim Orucovun sözlərinə «Sədərəklilər», «Mənim Azərbaycanım», «Marş irəli», Mir Fazil Seyidovun sözlərinə «Mən əsgərəm» kimi mahnılar yazmışdır. Bu mahnılar vətənpərvər bir insan olaq Şəmsəddin Qasımovun öz vətənini, onun şəhidlik zirvəsinə ucalmış oğullarını vəsf edən özünəməxsus musiqi nümunələridir.

Bəstəkar romans janrını da unutmamışdır. Bu janrda Nizami Gəncəvinin sözlərinə yazdığı «Ay üzlü nigarım kimə mehman olacaqsan», «Dəyişmərəm» bəstəkarın maraqlı və uğurlu romanslarından hesab oluna bilər.

Şəmsəddin Qasımovun ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycanın görkəmli alimi, tibb elmləri doktoru, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 80-illik yubileyləri ilə bağlı Lütfiyyə Əsgərzadənin sözlərinə «Ər oğlu ər, Heydərimiz», Rövşən Hüseynovun sözlərinə yazdığı «Zərifə həkim» mahnıları da geniş yayılmışdır.

Bəstəkarın mahnıları bu gün də tanınmış müğənnilərin, o cümlədən Ağadadaş Ağayevin, Kəmalə Rəhimlinin, Elxan Şirinovun və başqalarının ifasında musiqisevərlər tərəfindən rəğbətlə qarşılanır.



***Bəstəkar Şəmsəddin Qasımov filarmoniyanın solisti Qəribə Həsənova ilə hesabat konsertinə yeni mahnı hazırlayarkən***

Şəmsəddin Qasımov kamera-instrumental janrında da öz bacarığını nümayiş etdirmişdir. Aydın musiqi dili, ifadə vasitələri baxımından diqqəti cəlb edən bu əsərlər əlvan intonasiyalarla bəzədilmişdir. Bəstəkarın instrumental əsərləri sırasına onun fortopiano üçün 2 pyesini («Fikirli» və «Xatirə»), skripka və fortopiano üçün pyesini aid etmək olar. Onun instrumental əsərləri içərisində

kamera orkestri üçün yazdığı 3 hissəli «Naxçıvan lövhələri» süitası xüsusi yer tutur. Bu orkestrləşdirilmiş əsərin lad əsası, melodik dili diqqəti cəlb edir.



***Bəstəkarlar Şəmsəddin Qasımov istedadlı tarzən Zeynalabdin Babayevlə birlikdə***

Şəmsəddin Qasımov xor üçün də bir sıra iri həcmli əsərlər yazmışdır. Onun Naxçıvanlı şair Hüseyn Razinin sözlərinə yazdığı, görkəmli yazıçı, dramaturq Cəlil Məmmədquluzadəyə həsr etdiyi «Mirzə Cəlil» kantatası böyük estetik-emosional təsiri ilə seçilir.

Daim yaradıcılıq axtarışında olan bəstəkar səhnə əsərlərinin taleyi, onların musiqi tərtibatı məsələsini də bir problem kimi qarşıya qoyur və bu sahədə səmərəli fəaliyyət göstərir. Hələ 1970-ci illərdə Naxçıvanda fəaliyyət göstərən «Gənclik» xalq teatrında o, Q.Fiqeyrodonun «Ezop», Ə.Haqverdiyevin «Bəxtsiz cavan», H.Cavidin «Ana», B.Vahabzadənin «Yollara iz düşür», S.Axundovun «Məhəbbət nişanəsi» və s. kimi onlarla tamaşaya orjinal musiqi bəstələmişdir.

Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə sıx yaradıcılıq əlaqələri saxlayan Şəmsəddin Qasımov bu illər ərzində Rəsul Rzanın «Bir gün də insan ömrüdür» (rejissor Vəli Babayev), Mirzə Fətəli Axundovun «Hacı Qara» (rejissor Tofiq Seyidov), Anarın «Sizi deyib gəlmişəm» (rejissor Kamran Quliyev), Hüseyn Cavidin «Topal Teymur» (rejissor Kamran Quliyev), Mərkəz Quliyevin «Qarğanın iflası» (rejissor Ələkbər Qasımov), Həmid Arzulunun «Ərsizlər və arsızlar» (rejissor Kamran Quliyev) və s. tamaşalara yazdığı musiqi hadisələrin məzmununu və dinamikliyini açıqlayır, ümumilikdə ssenarinin tamaşaçılar tərəfindən emosional şəkildə qavranılmasına zəmin yaradır.

Məlumdur ki, incəsənətin ən qədim növlərindən biri də kukla teatrıdır. Azərbaycanda da bu teatrın böyük tarixi vardır. Əslində kukla teatrının ənənəvi, milli forması Azərbaycan xalqı içərisində də ən çox yayılmış tamaşa növlərindən biri sayılır.

Adət-ənənyə görə Kukla Teatrında bir neçə kukla oynadan aktyor və musiqiçi iştirak edir. Burada saz, kaman, təbil, qoşa nağara və s. kimi Azərbaycan alətlərindən istifadə olunur. Bir sözlə kukla teatrının bütün növləri özündə musiqili səhnə hərəkətlərinin sintezini əks etdirir. Bəstəkar Şəmsəddin Qasımovun 1984-cü ildə Azərbaycan Nazirlər Sovetinin qərarı ilə yaradılmış Naxçıvan Dövlət Kukla teatrındakı fəaliyyəti xüsusilə təqdirə layiqdir. Belə ki, teatrın repertuarında özünə möhkəm yer tutan Kəmalə Ağayevanın «Məlik Məmməd» və «Sirli sözlər», Səməd Canbaxışın «Cik-cik xanım», Aybəniz Ağayevanın «Tənbəl Əhməd», Vüsal Rzayevin «Cəsus dovşan», və s. kimi kukla tamaşalarına, məktəblilərin zövqünü oxşayan onlarla əsərlərə musiqi yazmışdır.

Şəmsəddin müəllim fəal bəstəkarlıq işi ilə bərabər pedaqoji, ictimai fəaliyyətini Naxçıvan Dövlət Universitetinin «Incəsənət»

fakultəsində davam etdirir. Onun yaradıcı, pedaqoji ictimai fəaliyyətinə nəzər saldıqda, Naxçıvan musiqi mədəniyyətinin inkişafı üçün çoxsəmərəli işlər gördüyünün şahidi oluruq.



**Şəmsəddin Qasımov Naxçıvan Dövlət Universitetinin müəllim kollektivi ilə birlikdə**



**Şəmsəddin Qasımov Naxçıvan Dövlət Universitetinin Konservatoriya binasında müəllim kollektivi ilə birlikdə**

Onu da deyək ki, Muxtar Respublikada keçirilən mədəni-kütləvi tədbirlərdə Şəmsəddinin mahnıları məktəblilərin, vokal qrupların və müğənnilərin ifasında tez-tez səslənir və onların ən yaxşıları kollektivlərin repertuarına daxil edilir.

Artıq 10 ildir ki, fəal musiqi ictimai xadim, bəstəkar Şəmsəddin Qasımov Azərbaycan Bəstəkarlar Ittifaqının Naxçıvan Muxtar Respublika Təşkilatının sədridir.



O, bu gün də bəstəkarlıq sahəsində həvəslə yazıb-yaradır, musiqi mədəniyyətimizin xəzinəsinə yeni töhvələr bəxş edir, musiqiçi kadrlar hazırlayır.

# KAMAL ƏHMƏDOV



Naxçıvan musiqi mədəniyyətinin inkişafında özünəməxsus xidmətləri olan professional bəstəkarlardan biri də Kamal Əhmədovdur. Onun musiqi əsərləri çoxcəhətli və məhsuldardır. Müstəqil yaradıcılıq yoluna qədəm qoyandan sonra onun yaradıcılığı müxtəlif mərhələlərdən keçərək inkişaf etmişdir. Kamal Əhmədovun həyat və yaradıcılıq yoluna diqqət yetirək.



Kamal Rüstəm oğlu Əhmədov1948-ci ildə Azərbaycanın qədim diyarı olan Naxçıvan şəhərində anadan olmuşdur. Ilk musiqi təhsilini Naxçıvan şəhər 1 saylı uşaq musiqi məktəbinin tar sinfində, orta musiqi təhsilini isə Bakı şəhər Asəf Zeynallı adına Musiqi Texnikumunda almışdır. Həssas musiqi duyumu, fəal musiqi qavrayışı elə ilk anlardan özünü büruzə verən Kamal Əhmədov 1973-cü ildə Asəf Zeynallı adına Musiqi Texnikumunun xalq çalğı alətləri şöbəsinin tar sinfini bitirərək, işləmək üçün təyinatına əsasən Ordubad şəhərinin musiqi məktəbinə gedir. Bəstəkar tezliklə Ordubad şəhərinin mədəni həyatının inkişafında yaxından iştirak etməyə başlayır. O, ilk növbədə musiqi məktəbində xalq çalğı alətləri orkestri yaradır. Ordubadda ilk xalq çalğı alətləri orkestri sayılan bu kollektivlə Kamal müəllim müntəzəm surətdə məşqlər keçirir və az bir müddətə geniş konsert proqramı hazırlayaraq dəfələrlə bir çox konsert salonlarında, eləcə də Naxçıvan televiziyasında mütəmadi çıxışlar edir.

Elə bu illərdə də Kamal Əhmədovda bəstəkarlıq sənətinə maraq yaranmışdır. Xalq çalğı alətləri orkestri üçün işləmələr və mahnılar onun yaradıcılığının ilk nümunələridir.

Öyrənib-öyrətmək həvəsi gənc Kamalı Azərbaycan Dövlət Konservatoriyasına gətirir. Iki il Ordubadda, bir il Naxçıvan musiqi məktəbində işlədikdən sonra 1976-cı ildə o, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının xalq çalğı alətləri şöbəsinə daxil olur. Lakin bəstəkarlığa olan böyük həvəsi onu üç il sonra yenidən təhsil almağa sövq edir. O, Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsinə uğurla imtahan verir və bu ixtisas üzrə təhsilini davam etdirməyə nail olur. Respublikamızın görkəmli bəstəkarı, xalq artisti, professor Xəyyam Mirzəzadənin sinfində bəstəkarlıq sənətinin sirlərini mənimsəyir, eyni zamanda dünya musiqi korifeylərinin klassik və müasir səpkili əsərlərini xüsusi öyrənir. Hələ konservatoriyada təhsil alarkən Kamal Əhmədovun bir neçə maraqlı əsərləri yaranır. Belə ki, konservatoriyada keçirilən konsertlərdə onun bir sıra əsərlərinin ifası da musiqisevərlərin rəğbətini qazanır.

Diplom işi kimi Böyük Simfonik Orkestr üçün yazdığı «Cavid» simfonik poeması təhsil illərinin ən mükəmməl və uğurlu əsəri husab oluna bilər. Əsər Azərbaycanın böyük şairi, dramaturqu Hüseyn Gavidə ithaf edilmişdir. Bəstəkar bu əsərdə orkestr alətlərinin tembr xüsusiyyətlərindən, musiqinin dramaturji inkişafından bacarıqla istifadə edərək polifonik səpkili əsas mövzu-nun müxtəlif kolorit və ritmik dəyişikliyə uğrayan inkişafı vasitəsilə nakam şairimizin ağır taleyini göstərməyə nail olmuşdur.

Müəllif xalq musiqisinin elementlərindən, muğam intonasiya-larından istifadə edərək əsərin simfonik dilini zənginləşdirmiş, milli koloritlə Avropa musiqi koloritinin sintezini yaratmışdır. Təsadüfi deyil ki, bu poema 1988-ci ildə Ukrayna Respublikasının xalq artisti Aleksey Fedoseyoviç Qulyaniskinin idarəsilə Krım Dövlət

Filarmoniyasının orkestri tərəfindən ifa edilmiş və orkestrin repertuarına salınmışdır.

Musiqişünas Sokolik «Sovetskiy Krım» qəzetində əsərin uğurlu ifası və özünəməxsus maraqlı bəstəkar manerası haqqında müsbət resenziya yazmaqla bərabər, müəllifi böyük istedada malik musiqiçi adlandırmışdır.

1985-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsində təhsilini başa vuran Kamal Əhmədov bəstəkarlıq yaradıcılığı yolunda əzmlə çalışır. O, Naxçıvana gələrək, burada yeni yaranmış Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru vəzifəsinə təyin olunur. Bu illərdən başlayaraq bəstəkar yaradıcılığını xalq çalğı alətləri orkestri ilə bağlayır, orkestr üçün müxtəlif janrlı orijinal əsərlər yazır, orkestr üçün işləmələr yaradır.



***Krım Dövlət Simfonik Orekstrinin bədii rəhbəri və baş dirijor Ukrayna xalq artisti Aleksey Qulyaniski və Kamal Əhmədov***

1985-ci ildən 1997-ci ilədək Naxçıvan Dövlət Filarmoniyasının xalq çalğı alətləri orkestrinin yaranmasında və formalaşmasında böyük zəhməti olan Kamal Əhmədovun idarəsilə bu orkestr Bakı, Sumqayıt şəhərlərində dəfələrlə müvəffəqiyyətli konsertlər vermişdir. Xalq çalğı alətləri orkestrinə dərindən bələd olan bəstəkar bir sıra orkestr əsərlərinin müəllifidir. Bu baxımdan «Cəngi», «Süita», «Naxçıvan eskizləri», «Rekviyem» kimi əsərləri öz orijinallığı ilə seçilir.



***Naxçıvan MR Bəstəkarlar Təşkilatının I konfransının üzvləri - (soldan) bəstəkarlar Kamal Əhmədov, Rəşid Məmmədov və Şəmsəddin Qasımov***

1990-cı ildə xalqımızın başına gələn 20 yanvar müsibəti, nahaqdan tökülən qanın, ağrı-acıların əks sədası kimi səslənən Azərbaycanın azadlığı uğrunda həlak olmuş şəhidlərə müəllifin həsr etdiyi «Rekviyem» xalq çalğı alətləri orkestrinin ifasında diqqəti cəlb etdi. Onu da xatırladaq ki, bu əsər dəfələrlə «Şəhidlər» simfoniyası adı altında televiziya və radio dalğalarında səsləndirilir.

Kamal Əhmədovun yaradıcılığı xalq çalğı alətləri orkestri üçün yazdığı əsərlərlə məhdudlaşmır. O, bir sıra vokal, instrumental və simfonik janrlara müraciət edərək maraqlı əsərlər yaratmışdır.

Bəstəkarın instrumental musiqi yaradıcılığında müxtəlif xarakterli pyeslər, rəqslər, prelüdlər, variasiyalar, sonatalar və s. xüsusi yer tutur. Bu istiqamətdə fortepiano üçün «Prelüd və fuqalar», «Variasiya», tar ilə fortopiano üçün «Sonata», truba aləti üçün «variasiyalar», simli alətlər ansamblı üçün «kvartet» və s. əsərlər təsirli və orijinaldır. Həmin əsərləri dinləyən hər bir professional musiqiçi əlvan səciyyəli melodiyaların təsiri ilə müxtəlif xarakterli hisslər və duyğular aləmini yaşayır.



**(Soldan) pianoçu SvetlanaƏhmədova, tarzən Sahib Paşazadə, bəstəkar Kamal Əhmədov, gənc pianoçu Ülvi Əhmədov**

Kamal Əhmədov yaradıcılığında vokal musiqiyə, xalqın ürəyindən xəbər verən nəğmələrə, xor əsərlərinə də xüsusi yer ayırır. Onun qarışıq xor üçün «Fuqa» və bir-birini təkrar etməyən dəyərli

melodiyaya, məzmuna malik olan mahnılarında doğma Vətən, onun bənzərsiz təbiəti, xalqın həyatı tərənnüm olunur.



***Bəstəkar Kamal Əhmədov qardaşı oğlu, gənc pianoçu Ülvi Əhmədovla***

Bəstəkar mahnı yaradıcılığında əsasən Naxçıvanlı şairlərin sözlərinə müraciət edir. Müzəffər Nəsirlinin sözlərinə «Qızlar bulağı», Həsən Valehin sözlərinə «Qoşa çinar», Yaqub Şirinoğlunun sözlərinə «Saçlarıma qar da yağdı», «Gözlərinə baxan zaman», Qəzənfər Maqsudovun sözlərinə «Zəfər mahnısı», «Anacan», Rövşən Əhmədin sözlərinə «Milli ordumuz», Tərifə Şükürqızının sözlərinə «Bənövşə», digər şairlərin sözlərinə «Unutdun məni», « Kaman səsi», «Bu yolu seçdim», «Keşmə» və s. maraqlı mahnılar

yazmışdır. Onu da əlavə edək ki, «Azadlıq türküsü», «Sevdam» mahnılarının sözləri bəstəkarın özünə məxsusdur.



***Bəstəkar Kamal Əhmədov və Şəmsəddin Qasımov müğənni Y.Səfərovla birlikdə***

Göründüyü kimi bəstəkar Kamal Əhmədov aktual, zamanla səsləşən mövzularda yazılmış şeirlərə müraciət edir, onları öz yaradıcılıq süzgəcindən keçirərək dinləyicilərin ixtiyarına verir.

Müxtəlif illərdə bəstələdiyi aşıq mahnılarının əsasında «Kapel-lalar», böyük simfonik orkestr və fortepiano üçün «Konsert», kamera orkestri üçün «Simfoniya» və s. nümunələr bəstəkarın diqqətəlayiq əsərlərindəndir.

Onu da deyək ki, Kamal Əhmədovun simfonik janrda yazılmış ən maraqlı əsəri olan «Simfoniya» musiqisevərlər tərəfindən böyük maraqla qarşılanmışdır. Kamera orkesti üçün yazdığı bu 3 hissəli simfoniya Türkiyənin istedadlı dirijoru Saim Aksilin rəhbərlik etdiyi Borusan Oda Orkestri tərəfindən səslənmiş və orkestrin daimi repertuarına salınmışdır.

Beləliklə, musiqinin bir çox janrlarında əsərlər yazan bəstəkar bütün bu illər ərzində onun özünəməxsus dəsti-xəttini püxtələşdirməyə nail olmuşdur.

Keçmiş SSRI Bəstəkarlar Ittifaqının üzvü olan Kamal Əhmədov hal-hazırda Azərbaycan Bəstəkarlar Ittifaqı Naxçıvan Muxtar Respublika Təşkilatının məsul katibidir. O, həmçinin Naxçıvan Dövlət Universitetinin Incəsənət fakultəsinin «Bəstəkarlıq» kafedrasına rəhbərlik edir, pedaqoji fəaliyyətini davam etdirir.



***Kamal Əhmədov və Şəmsəddin Qasımov Naxçıvan Dövlət Universitetinin Konservatoriya binasının foyesində***

Kamal Əhmədov Bakıda keçirilən qurultay, plenum, festival və başqa tədbirlərdə yeni-yeni əsərlərlə çıxış edir, musiqi xəzinəmizi zənginləşdirir.

# YAŞAR XƏLILOV



Musiqini dinləmək, onu daxilən hiss etmək, duymaq, öz fikirlərini bilavasitə musiqi dilinə çevirə bilmək istedadına malik olan insan çox xoşbəxtdir. Bu kimi nadir istedada malik, çağdaş Azərbaycan bəstəkarlıq məktəbinin istedadlı və çalışqan, orijinal yaradıcılıq üslubu olan bəstəkardan biri Yaşar Xəlilovdur.

Yaşar Xəlilov bir çox janrlarda qələmini sınamış, zövqləri oxşayan onlarla əsərlər yazmışdır. Onun əsərlərində aydın, özünəməxsus dəsti-xətti, melodik təsvir vasitələrindən çox böyük həssaslıqla faydalanmaq bacarığı parlaq şəkildə nəzərə çarpır.

Xəlilov Yaşar Südeyf oğlu 1956-cı ildə Ordubad şəhərində anadan olmuşdur. Ilk musiqi təhsilini buradakı musiqi məktəbində almışdır. Xatırladaq ki, o vaxtlar Ordubadda bir musiqi məktəbi var idi. Gənc kadrlar bu məktəbdə yetişir, buradan pərvazlanıb böyük musiqi aləminə yol alırdılar.

O da məlumdur ki, insanın bir şəxsiyyət kimi formalaşmasında, istedad və qabiliyyətinin lazımi səviyyəyə yönəldilməsində

mühitin, şəraitin çox böyük rolu var. Bu mənada Ordubad rayon uşaq musiqi məktəbinin müstəsna əhəmiyyəti var.

Onu deyək ki, sözü gedən məktəb 1965-ci ilin sentyabrından Naxçıvan şəhəri 1 saylı uşaq musiqi məktəbinin filialı kimi fəaliyyət göstərirdisə, 1966-cı ildən sərbəst fəaliyyət göstərməyə başlayır. Məktəbin ilk direktoru Həmid Qəniyev, ilk müəllimlərdən isə Rəsul Məmmədovun, Kamil Qəniyevin, Tofiq Tağıyevin, Əsəd Bayramovun adlarını çəkə bilərik.

Bu məktəbdə xalq çalğı alətləri, fortepiano, nəfəsli alətlər, simli alətlər, zərb alətləri və başqa şöbələr fəaliyyət göstərirdi. Yarandığı gündən Ordubad rayonunun uşaq musiqi məktəbində professional musiqinin yaradıcı abu-havası həmişə hakim olmuşdur. Bu məktəbin onlarla məzunu Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (indiki Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasını), yüzlərlə məzunu isə orta ixtisas musiqi məktəbini bitirmişdir. Məktəbin instrumental muğam müəllimi tarzən Rəsul Məmmədov 1977-ci ildə Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür. Beləliklə, bu məktəb öz qoynunda istedadlı musiqiçilər bəsləməklə kifayətlənməmiş, onlara eyni zamanda müstəqil düşüncə tərzi, həyat hadisələrinə zamanın fövqündən baxmaq bacarığını da aşılamaq iqtidarında olmuşdur.

Məhz bu musiqi mühiti Yaşar Xəlilovda musiqiyə böyük maraq oyatmışdır. O, musiqi məktəbində tar sinfində ixtisas üzrə Kamil Qəniyevdən, muğam üzrə isə Rəsul Məmmədovdan dərs almışdır. Hər iki müəllimin öz sənətlərinə məsuliyyətlə yanaşmaları Yaşarda bu sənətə qarşı böyük maraq oyatmış və onun tarzən kimi formalaşmasında mühüm rol oynamışdır. Hələ musiqi məktəbində oxuyarkən xalq mahnılarına və muğamlara olan böyük həvəs onu

gələcəkdə musiqi təhsilini davam etdirməyə sövq edir. Yaşar eyni zamanda orta məktəbdə də fəal oxuyur, əsasən ədəbiyyata böyük maraq göstərirdi. O, uşaqlıq illərindən şerlər yazır, gələcəkdə şair olmaq arzusu ilə yaşayırdı. Lakin musiqiyə getdikcə artan həvəsi bu arzunu tədricən üstələmiş və onu qəti qərara gəlməyə sövq etmişdir.

Beləliklə, 1972-ci ildə Yaşar Asəf Zeynallı adına Bakı şəhər Orta Ixtisas Musiqi Məktəbinin tar sinfinə daxil olur. O, həvəslə tar çalmağın sirlərinə yiyələnir, öz üzərində çılğınlıqla çalışırdı. Vaxtilə musiqi təhsili alan və hazırda bü şərəfli sənətin müxtəlif sahələrində çalışan hər kəs yaxşı bilir ki, istedadın üzə çıxmasında orta ixtisas musiqi məktəblərinin, musiqi texnikumlarının əhəmiyyətli təsiri var. Bu mənada Asəf Zeynallı adına Bakı şəhər Orta Ixtisas Musiqi Məktəbi də yarandığı vaxtdan neçə-neçə yeniyetmə gənc istedada, o cümlədən Yaşar Xəlilova sözün əsl mənasında yaradıcılıq fərəhi bəxş etmiş, böyük sənətə gedən yolun əsas cığırlarını göstərmişdir.

Bu məktəbdə oxüdüğü ilk aylardan Yaşarda dünyəvi musiqiyə sönməz maraq yaranır. O, tar üçün düşündüyü ilk musiqi fantaziyalarını nota almağa başlayır. Yaşar, çılğın və sönməz bir məhəbbətlə yazmaq-yaratmaq istəyirdi. Mirzə Fətəli Axundov adına kitabxana onun ən sevimli və saatlarla çalışdığı yer idi. O, həvəslə çalışır, müxtəlif dünya bəstəkarlarının əsərlərinin klavir və partituralarını araşdıraraq, eyni zamanda həmin əsərlərin ifalarına qulaq asırdı.

Yaşar Xəlilovun ən böyük çətinliyi onun fortepianoda ifaçı səviyyəsində çala bilməməsi idi. Nəyin bahasına olur-olsun bu musiqi alətində yaxşı çalmağı, öyrənməyi qarşısına məqsəd qoyan və tezliklə buna nail olan gənc bəstəkar nəhayət forteptano üçün ilk əsərlərini yazmağa başlayır. Yaşar öz yazılarını ixtisas müəllimi A.B.Kabakova göstərir. A.B.Kabakov diqqətlə onun yazdıqlarını

təhlil edir və Yaşarı bəstəkarlıq kursuna imtahan verməyə həvəsləndirir. Beləliklə, o, 1974-cü ildən etibarən bəstəkarlıq şöbəsində istedadlı bəstəkar L.M.Vaynşteynin sinfində oxumağa başlayır. 1975-ci ilin aprel ayında məktəbin tarixində ilk dəfə olaraq tələbə bəstəkarların əsərlərindən ibarət konsert təşkil olunur. Yaşar bu konsertdə özünün 2 prelüdünü müvəffəqiyyətlə ifa edir və həmkarlarının alqışlarını qazanır. Sonralar o, bir sıra pyeslər, poema, skripka və forteptano üçün «Skertso» və forteptano üçün «Sonatina» yazır.

Musiqi mədəniyyətinə yiyələnmək və bu mədəniyyəti təbliğ etmək üçün daha geniş dünyagörüşə, zəruri nəzəri biliyə və təcrübi ifaçılıq qabiliyyətinə yiyələnmək lazım idi. Məhz bu anlamla o, 1976-cı ildə müvəffəqiyyətlə imtahan verərək Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası) bəstəkarlıq fakultəsinə daxil olur. O, böyük arzusuna çatır və  Qara Qarayevin sinfində təhsil almağa başlayır. Orta ixtisas musiqi məktəbindən başlanan yol burada daha da təkmilləşir və buranın sənət abu-havası onun artıq tələbəlik illərində kamilləşməsinə, təkmilləşməsinə münbit şərait yaradır.

Konservatoriyada oxuduğu illərdə Yaşarın bir bəstəkar kimi formalaşmasında müəllimlərindən Qara Qarayevin, Fərəc Qarayevin, Boris Ivanoviç Yermolayevin böyük xidmətləri olmuşdur. 1977-ci ilin payızında Alma-Atada keçiridən musiqi festivalında Yaşarın ifa etdiyi prelüdləri ona müvəffəqiyyət qazandırır.

1979-cu ildə Azərbaycan bəstəkarlarının növbəti Y qurultayında klarnet və forteptano üçün yazdığı «Sonata» ona böyük uğur gətirir. O vaxtlar SSRI-də ən məşhur klarnetçalan sayılan L.Mixaylov bu əsəri öz repertuarına daxil edir. Əsər SSRI musiqi

fondu tərəfindən müqavilə əsasında alınır. «Sonata» sonralar bir neçə dəfə müxtəlif klarnetçalanlar tərəfindən uğurla ifa edilir.

1980-cı ildə «Soprano, skripka, violonçel və arfa üçün noktürn» əsəri Ümumittifaq müsabiqəsinin fərqlənmə diplomuna layiq görülür. Həmin əsər 28 noyabr 1980-cı ildə Moskva Dövlət Konservatoriyasının məhşur kiçik zalında ifa edilir. «Muzıkalğnaə ciznğ» jurnalında bu əsərə yüksək rəy verilmişdir. Həmin əsər 17 mart 1982-ci ildə SSRI Bəstəkarlar Ittifaqının zalında Moskva Dövlət Filarmoniyasının solistlərinin ifasında ikinci dəfə səsləndirilir.

Konservatoriyada təhsil aldığı illərdə Yaşar Xəlilov skripka və fortepiano üçün «Skertso», fortepiano üçün «Tema və variasiyalar», «Simli kvartet», kamera orkestri üçün «Partita-Re major» və diplom işi kimi simfonik orkestr üçün «I saylı simfoniya» kimi əsərlər yazmışdır.

1981-ci ildə Konservatoriyanı bitirdikdən sonra o, təyinatla Naxçıvana göndərilir və 1986-cı ilə qədər Üzeyir Hacıbəyli adına Naxçıvan orta ixtisas musiqi məktəbində müəllim işləyir. Bu illərdə müəllimliklə yanaşı bir sıra əsərlər, o cümlədən kamera orkestri üçün «Simfonietta», 1982-ci ildə Hüseyn Cavidin 100 illik yubileyi ərəfəsində cənazəsi vətənə gətirilərkən, onun sözlərinə bir sıra romanslar bəstələyir.

1985-ci ildə SSRI Bəstəkarlar Ittifaqının üzvlüyünə qəbul olunan Yaşar Xəlilov 1986-cı ildə Bakıya qayıdaraq bəstəkarlıq və müəllimlik fəaliyyətini davam etdirir. Bu illərdə yazdığı Üzeyir Hacıbəyliyə həsr etdiyi skripka və fortepiano üçün «Sonata», görkəmli fransız bəstəkarı Klod Debüssinin xatirəsinə həsr etdiyi skripka və fortepiano üçün «Sonata» ilə yanaşı, Yaşar simli kvar-

tetini də yazır və bu əsərlər Azərbaycan Bəstəkarlar Ittifaqının plenumlarında böyük müvəffəqiyyətlə səsləndirilir.

1990-cı ildə Yaşar Xəlilovun bəstələdiyi «Ağlaram», «Ay qız» və S.Şirazinin sözlərinə yazdığı «Rübai» romansları bu sahədə gözəl örnəklərdir.

1990-cı ildə bəstəkar Azərbaycan Mədəniyyət Fondunun təqaüdçüsü seçilir.

1991-ci ildə yazdığı tar və xalq çalğı alətləri orkestri üçün «Konsert»də xalq yaradıcılığından bəhrələnən bəstəkarın özünəməxsus musiqi dili, üslubu, fərdi yaradıcılıq prinsipləri özünü parlaq şəkildə göstərir.

Ən ümdə cəhət odur ki, Yaşar Xəlilovun yaradıcılığı xalq musiqisi ilə dərindən bağlıdır. Onun əsərlərində millilik üstün yer tutur. Onun yazdığı bütün əsərlərində xalq musiqisinin, əsasən muğamların təsiri çox duyulur. Milli musiqi ənənələrinə sədaqət, xalq musiqi dilinin sadəliyindən, aydınlığından yüksək professionallıqla bəhrələnmək qabiliyyəti Yaşar Xəlilovun musiqi üslubunda əsas səciyəvi cəhətlərdəndir.

Əlvan ritmlər, təravətli intonasiyalar, folklora əsaslanan melodik çalarlar bəstəkarın sənət palitrasında cazibədar bir ahəng yaradır.

Bəstəkar əsərlərində milli ruhu qoruyub saxlamaqla yanaşı, milli intonasiyaları da müasir musiqi ilə sintez edir, onların vəhdətini yaradır. Onun əsərlərində neoklassizm, ekspressionizm, impressionizm üslubuna tez-tez rast gəlmək olur və bəzi əsərlərdə K.Debüssi, I.Stravinski, A.Skryabinin musiqi üslubuna yaxınlıq hiss olunur. Onu da qeyd edək ki, bəstəkarın əsərləri fakturasına görə də çox zəngindir, həm də mürəkkəbdir.

Onun hətta romanslarında da sadəlik yox, mürəkkəblik özünü büruzə verir. Bu cəhət Yaşar Xəlilovun daha ciddi janrlarda musiqi bəstələməsindən irəli gəlir.

Bəstəkarın neoklassik üslubda yazılmış «D-dur partitası»-nın I hissəsində çahargah, II hissəsində segah, III hissəsində şur, IV hissəsində isə aşıq musiqisinin xarakter elementlərindən istifadə olunmuşdur.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin yaradıcılığı hər zaman sənət adamlarının, o cümlədən bəstəkarlarımızın diqqət mərkəzində olmuş, onun əsərlərinə müxtəlif janrlı musiqi yazmışlar. Ədibin əsərlərinə Azərbaycan bəstəkarları çoxsaylı musiqi nümunələri həsr edərək, dram tamaşalarının repertuarlarını daha da zənginləşdirmişlər. Cəlil Məmmədqluzadənin anadan olmasının 140 illik yubileyilə əlaqədar Yaşar Xəlilovun myuzikl janrında yazdığı «Çay dəstgahı» adlı əsəri yubiley üçün layiqli töhvə olmuşdur.

Bəstəkar bu əsərdə real həyat prinsiplərini musiqi lövhələrində aydın təsvir edə bilmişdir. Burada 9 musiqi nömrəsi mövcuddur. Əsərin yazılmasında bəstəkar Azərbaycan xalq musiqi nümunələrindən də bəhrələnmişdir. Buradakı obrazlar əsərin ifası zamanı gözəl musiqi dili ilə dövrün ziddiyyətlərini ifşa edirlər.

Əsər 16 noyabr 2008-ci ildə ilk dəfə Iran Islam Respublikasının Təbriz şəhərində keçirilən Kukla teatrlranın Beynəlxalq Festivalında oynanılmışdır. Onu da qeyd edək ki, bu festivalda Iran və Tacikistan Kukla Teatrları ilə yanaşı Naxçıvan Kukla Teatrı da iştirak etmişdir. Kukla Teatrının əməkdaşları eyni zamanda dahi dramaturq Hüseyn Cavidin «Ana» pyesini də oynamışlar. Bu tamaşanın da musiqisi Yaşar Xəlilov tərəfindən yazılmışdır.

Muxtar Respublikada 2007-ci ilin oktyabr ayında dahi dramaturq Hüseyn Cavidin 125 illk yubileyinə həsr olunmuş təntənəli zirvə tədbiri keçirilmişdir. Tədbirdə böyük dramaturqun yubileyinə layiqli töhvə olaraq «Səyavüş» əsərinin tamaşası göstərilmişdir. Beş pərdəli faciənin quruluşçu rejissoru Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Azərbaycan Respublikasının xalq artisti Kamran Quliyev, musiqi tərtibatçısı isə Yaşar Xəlilov olmuşdur. Onu da qeyd edək ki, tamaşanın musiqisini əvvəldən axıra kimi Yaşar Xəlilov royalda özü müşayiət etmişdir.

Yaşar Xəlilovun Hüseyn Cavid irsinə müraciəti bununla bitmir. O, «Səyavuş» əsərinə yazdığı musiqi əsasında xalq çalğı alətləri orkestri üçün süita, fortepiano və kamera orkestri üçün «2 pyes», Hüseyn və Ərtoğrul Cavidlərin xatirələrinə həsr etdiyi xalq çalğı alətləri orkestri üçun «Muğam dastanı», «Çoban türküsü», «Bizim ellər», «Gövərçinim» şeirlərinə mahnılar bəstələmişdir. Eyni zamanda «Çahargah», «Bayatı-Şiraz» etüdləri, «Məcnunun harayı» proqramlı pyesi, tar ilə fortepiano üçün «Sözsüz mahnı» (əsər ilk dəfə bəstəkar Tofiq Bakıxanovun yubiley konsertində ifa olunmuşdur), akapella xoru üçün «Bahar oldu», xor və fortepiano üçün «Laçın», Dmitriy Şostakoviçə həsr olunmuş «Payız səması». Qara Qarayevə həsr olunmuş «Dan ulduzu», Vaqif Mustafazadəyə həsr olunmuş «Həsrət» prelüdləri və s. əsərlərin də müəllifidir. Yaşar Xəlilov bir neçə il Ordubad Rayon Mədəniyyət Şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Hazırda isə Naxçıvan Musiqi Kollecində pedaqoji fəaliyyət göstərir. O, 2009-cu ildə Naxçıvan MR-nın əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Yaşar Xəlilov həmişə olduğu kimi bu gün də Naxçıvanın musiqi həyatında var qüvvəsi ilə çalışır. O, Naxçıvanda fəaliyyət göstərən orkestrlər və xor kollektivləri ilə sıx yaradıcılıq əlaqəsin-

dədir. Onun yazdığı əsərlərdə vətənpərvərlik, vətənə bağlılıq ruhu çox güclüdür. Yaşarın ulu öndərimimz Heydər Əliyevin 85 illik yubileyinə həsr etdiyi «Rekviem», «Heydər himni», «Ordubad kapriççiosu», xor ilə fortepiano üçün yazdığı «Doğma yurdum Naxçıvanım» (sözləri Yaşar Xəlilova məxsusdur) adlı himn, skripka və fortepiano üçün «Mömünə Xatun» pyesi, görkəsmli akademik Yusif Məmmədəliyevin 100 illik yubileyinə həsr olunmuş xor və simli orkestr üçün «Qurtuluş çələngi», yenə Yusif Məmmədəliyevin xatirəsinə zərb alətləri və fortepiano üçün «Kapriççio-Ordubad» və başqa əsərləri parlaq nümunə göstərmək olar.

Bəstəkarın fortepiano ilə simfonik orkestr üçün «b-moll konserti» onun yaradıcılığında özünəməxsus bir yer tutur. Belə ki, əsər Yaşar Xəlilovun bu sahədə ilk debütüdür.

Bildiyimiz kimi 2009-cu il noyabr ayının 12-dən 17-ə kimi Azərbaycan Bəstəkarlar Ittifaqının 75 illik yubileyilə əlaqədar Bakıda möhtəşəm musiqi festivalı keçirildi. Bu festivalda Yaşar Xəlilovun Tar və Xalq Çalğı Alətləri Orkestri üçün Konserti səsləndi. 1991-ci ildə yazdığı bu konsertdə xalq yaradıcılığından bəhrələnən bəstəkarın özünəməxsus musiqi üslubu, fərdi yaradıcılıq prinsipləri özünü parlaq şəkildə büruzə verir. 2008-ci ildə Yaşar Xəlilov həmin əsər üzərində yenidən işləyərək onu redaktə etmişdir. Əsər Beynəlxalq müsabiqələr laureatı tarzən Sahib Paşazadəyə həsr olunub və o, bu əsəri ilk dəfə ifa etdi. Üç hissədən ibarət olan konsertdə muğam intonasiyalarından geniş istifadə olunsa da, forma cəhətdən ənənəvi klassik konsert forması saxlanılıb. Belə ki, I hissə sonata, II hissə mürəkkəb üç hisssəli, III hissə isə rondo formasındadır. Ilk dəfə olaraq burada muğama aid bəzi səciyyəvi ştrixlər də nota alınıb. Bununla da ifaçıya improvizasiya etmək əvəzinə yalnız notda olanları çalmaq imkanı verilib. Beləliklə, biz

onu deyə bilərik ki, milli musiqi ənənələrinə sədaqət, xalq musiqi dilinin sadəliyindən, aydınlığından yüksək professsionallıqla bəhrələnmək məhz əsərin əsas səciyyəvi səhətlərindəndir.

Hazırda bəstəkar «Əshabü-kəf» baleti üzərində işləyir. Söz yox ki, bu əsər Yaşar Xəlilova yeni uğurlar gətirəcəkdir.

## ƏQIDƏ ƏLƏKBƏROVA



Azərbaycan musiqişünaslıq elmi böyük və zəngin bir yol keçmişdir. Onun intibah dövru orta əsrlərə təsadüf edərək meydana Səfiəddin Urməvi və Əbdülqadir Marağalı kimi alimlər çıxara bilmişdir. Bu elm xadimlərinin musiqi sərvətindən bəhrələnən dahi Üzeyir Hacıbəyli müasir musiqişünaslıq elminin yaradıcısı hesab olunur. Məhz bu səbəbdən milli bəstəkarlıq məktəbinin özülündə «elm» durur və musiqi mədəniyyətimizi gələcəyə aparanlar sırasında bəstəkarlımızla yanaşı addımlayan musiqişünaslarımızın da böyük xidmətləri olub və olacaq.

Bu gün Azərbaycan musiqişünaslıq məktəbi aktiv fəaliyyət göstərir və artıq bu məktəbin istedadlı nümayəndələri müxtəlif ölkələrdə öz elmi əsərləri ilə tanınırlar.

Belə musiqişünaslarımızdan biri Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, dosent, Naxçıvanın ilk qadın musiqişünası Əqidə Ələkbərovadır.

Əqidə Ələkbərova 1956-cı ildə aprel ayının 25-də Naxçıvan şəhərində ziyalı ailəsində dünyaya göz açmışdır. Onun ata tərəfi Şərur rayonunun Şahtaxtı kəndində yaşayan Əkbərilər tayfasındandır. Bu tayfada bir çox musiqiçilər yetişmişdir. Belə ki, əmisi Tağı Ələkbərov 1938-ci ildə Naxçıvanda açılan ilk musiqi məktəbinin direktoru olmuş, atası Məmməd Ələkbərov istedadlı musiqiçi, xeyirxah insan, görkəmli ictimai xadim və pedaqoq kimi bütün həyatını Naxçıvan Muxtar Respublikasının musiqi mədəniyyətinin yaranması və inkişafına həsr etmişdir. Əmisi oğlu Şulan Ələkbərov isə Azərbaycanın ilk professional musiqişünaslarından biri olmuşdur. Təsadüfi deyil ki, belə bir mühitdə böyüyən Əqidə xanım həyatını məhz musiqi ilə bağlamalı idi.

Əqidə Ələkbərova ilk musiqi təhsilini Naxçıvandakı 1 saylı uşaq musiqi məktəbində almış, 1971-ci ildə Asəf Zeynallı adına Bakı Orta Ixtisas Musiqi Məktəbinin fortepiano sinfinə daxil olmuş, 1975-ci ildə həmin təhsil ocağını bitirərək, Naxçıvanda uşaq musiqi məktəbində müəllim kimi əmək fəaliyyətinə başlamışdır. Burada işlədiyi üç il müddətində şəhərin bir çox mədəni tədbirlərində fəal iştirak etmiş, lakin musiqi elminə, Naxçıvanın musiqi tarixinə olan böyük marağı onu Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) tarix-nəzəriyyə şöbəsinə gətirib çıxarmışdır. Əmisi oğlu Şulan Ələkbərovun yaradıcılıq yolunu

davam etdirən Əqidə xanım 1983-cü ildə bir musiqişünas kimi konservatoriyanı bitirir.

O, elmi fəaliyyətinə təhsil aldığı illərdən başalmış, dəfələrlə Tələbə Elmi Konfranslarında, Moskva, Qorki, Tibilisi şəhərlərində Ümumittifaq konfranslarda çıxış etmişdir.

Onun diplom işi Naxçıvan yallılarına həsr olunmuşdur. Yallı zəngin xəzinədir. Atası Məmməd Ələkbərov yallını Naxçıvan musiqisinin «emblemi» adlandırmışdır. Bu fəaliyyətinin nəticəsində Konservatoriyanı bitirərkən diplom işi ən yaxşı iş kimi qiymətləndirilərək Azərbaycan Təhsil Nazirliyinin göndərişi ilə o, Moskva Sənətşünaslıq Elmi-Tədqiqat Institutunun aspiranturasına qəbul olunur və 1992-ci ildə aspiranturanı bitirir, 1994-cü ildə Bakı şəhərində namizədlik dissertasiyasını müdafiə edir və musiqi sənəti üzrə sənətşünaslıq namizədi elmi dərəcəsinə layiq görülür.

Azərbaycan Dövlət Konservatoriyanı (indiki Bakı Musiqi Akademiyası) bitirib Naxçıvana qayıdan Əqidə Ələkbərova Naxçıvan orta ixtisas musiqi məktəbində musiqi nəzəri fənnlrəi üzrə müəllim işləməyə başlayır.



***Naxçıvan Musiqi Texnikumunun 20 illik yubileyi. Aparıcı Ə.Ələkbərova. Oktyabr 1995-ci il***

1983-1996-cı illərdə bu məktəbdə müəllim, şöbə müdiri, direktor vəzifələrində çalışan Əqidə xanım 1996-cı ildə Naxçıvan Dövlət Universitetində müəllim, 1997-ci ildə «Pedaqoqika» fakultəsində dekan müavini, 1998-ci ildə «Incəsənət» fakultəsində dekan, 2000-ci ildə «Musiqişünaslıq və metodika» kafedrasının müdiri kimi fəalityyət göstərir. Eyni zamanda Naxçıvan Dövlət Universitetində konservatoriya ixtisaslarının, Universitet Tələbə Teatr Studiyasının, musiqi kollektivləri və incəsənət növlərinə aid dərnəklərin açılmasında onun böyük əməyi olmuşdur.



***Naxçıvan MR Bəstəkarlar Təşkilatının I konfransının nümayəndələri - (soldan) Rövşən Hüseynov, Xalubər Namazova, Əqidə Ələkbərova, Kamal Əhmədov, Şəmsəddin Qasımov***

Dövrü mətbuatda çıxış edən bir çox məqalələrdə, o cümlədən «Bakinskiy raboçiy» qəzetinin 1 aprel 1999-cu il tarixli nömrəsində Svetlana Mirzoyevanın «Oni ne toropətsə domoy» adlı, 27 mart 1999-cu ildə Moskvda nəşr olunmuş Georgiy Ivanoviç Smolenskinin «Blokadnaə konservatoriə» adlı məqalələrində Əqidə Ələkbərovanın Naxçıvan Dövlət Universitetdə gördüyü işlərdən, yüksək təşkilatçılıq qabiliyyətindən bəhs olunur.



***(soldan) bəstəkar Kamal Əhmədov, sənətşünaslıq namizədi, musiqişünas Əqidə Ələkbərova, bəstəkar Şəmsəddin Qasımov, sənətşünaslıq namizədi, musiqişünas Güllü Ismayılova Naxçıvan Dövlət Universitetinin Konservatoriya binasının foyesində***

Lakin daşıdığı bütün vəzifələr onun istedadlı bir musiqişünas kimi fəaliyyətinə mane ola bilməyib. Əqidə Ələkbərova müntəzəm olaraq öz üzərində çalışmaqla elmi-pedaqoji fəaliyyətini artırır. O, 40-dan artıq elmi-publisistik məqalələrin, o cümlədən «Göçəri türk xalqlarının məişətində», «Yallının musiqi yozumu» («Elm və həyat» jurnalı, № 12, 1995); «Kitabi Dədə Qorqud musiqi yozumuna dair» («Elmi əsərlər» elmi məqalələr toplusu, Naxçıvan Dövlət Universiteti»); «Ərtoğrul Cavid – Azərbaycanın elm xadimidir» («Elmi əsərlər» №4, Naxçıvan Dövlət Universiteti, 1999); «Yallı sənəti və onun Gəmiqaya rəsmləri ilə bağlılığı» («Qobustan» jurnalı, № 2, 1999); «Heydər Əliyevin Azərbaycan musiqi mədəniyyətinin inkişafında rolu» («Elmi əsərlər», Naxçıvan Dövlət Universiteti, № 7, 2000); «Kərim Kərimov və Naxçıvan mühiti» («Fikir» jurnalı, Naxçıvan Dövlət Universiteti, № 7, 2002); «Musiqi türkalogiyası zəfər yürüşünü Naxçıvandan başladı» («Musiqi dünyası», № 4, 2003) və digər elmi məqalələrin, 3 kitabın, o cümlədən «Naxçıvan musiqi mədəniyyətinin inkişaf mərhələləri» adlı elmi-metodiki kitabın və s. müəllifidir.

Əqidə xanımın ən diqqətəlayiq işi isə 1992-ci ildə Kanadada Holandiyanın «Paradoks» firmasının köməyi ilə yazdırdığı «Heyvagülü» adlanan kompakt diskidir.




***1992-ci il Naxçıvanın musiqi folklorunun ilk kompakt diski.***
***Mətnin müəllifi Ə.Ələkbərova***

Bu diskdə dünya folklor festivallarının – Fransanın Şen-Şartye şəhərində tulumçalanların və Kanadanın Monreal şəhərinin 350 illiyənə həsr olunmuş festivalın iştirakçıları olan Naxçıvandan getmiş «Dədə Qorqud» adlı qrupun ifa etdiyi xalq musiqi nümunələri yazılmışdır. Diskin içərisindəki kitabçada Naxçıvan ərazisi, onun mədəniyyəti haqqında ingilis dilində məlumat verilir. Həmişə ictimai işlərdə qabaqcıl olan Əqidə Ələkbərovanın xaricdə Azərbaycanın musiqi folklorunu nümayiş etdirən belə bir disk yazdırmağa nail olması əsl vətənpərvər səciyyə daşıyan xeyriyyəçilikdir.



***Əqidə Ələkbərova və Jalə Qulamova Naxçıvan Bəstəkalar Təşkilatının yığıncağında***

O, 1985-ci ildən Azərbaycan Bəstəkarlar Ittifaqının üzvüdür. Əqidə xanım müxtəlif illərdə Azərbaycan Bəstəkarlar Ittifaqının plenum və qurultaylarının iştirakçısı olmuş, 1980-ci ildə «Gənclər seksiyası» bölməsində dinləyici kimi, 1990-cı ildə Azərbaycan Bəstəkarlar Ittifaqının qurultayında «Naxçıvan bəstəkarlıq məktəbi, onun tarixi və inkişafı yolları» adlı məqaləsi ilə ətraflı çıxış etmişdir.

25 ilə yaxın Azərbaycan Bəstəkarlar Ittifaqının üzvü olan sənətşünas həm də onlarla musiqi əsərinin müəllifidir. Böyük rus bəstəkarı Pyotr Iliç Çaykovskinin belə bir maraqlı fikri vardır. O, demişdir: «Musiqişünas, yaxud musiqi nəzəriyyəçisi olmaq istəyən hər bir kəs gərək bəstəkarlıqla məşğul olub musiqi yazmaq yollarını, daha doğrusu yaradıcılıq texnologiyasını nəzəri deyil, öz

iş təcrübəsində öyrənib sınaqdan keçirsin». Bu baxımdan onun yazdığı fortopiano üçün pyeslər, teatr üçün yazdığı musiqilər və s. əsərlər diqqətəlayiqdir.

Əqidə Ələkbərova mahnı janrında da gözəl, yaddaqalan nümunələr yaratmışdır. Onun mahnıları çox istedadlı müğənnilərin repertuarını bəzəyir. Əqidə xanımın ilk mahnıları 1978-ci ildə «Naxçıvan təranələri» adlı məcmüədə nəşr olunmuşdur.

Ulu öndərimiz Heydər Əliyevə həsr etdiyi Vaqif Məmmədovun sözlərinə «100 il yaşa», «Hər daşında izin var sənin», Gülxar Əhmədovanın sözlərinə «Müstəqillik yollarında», Dədə Qorquda vəsf etdiyi Həsən Elsevərin sözlərinə «Dədə Qorqud dastanı», Vaqif Məmmədovun sözlərinə «Dədə Qorqud boylarında», Novruz bayramına həsr edilmiş Bəxtiyar Vahabzadənin sözlərinə «Səməni» mahnıları; Vəli Qaraxanın sözlərinə «Ya Hüseyn, can Hüseyn» adlı dini-musiqili kompozisiyası da Əqidə xanıma məxsusdur.

Onun mahnı yaradıcılığında gələcəyə inam və etibar motivləri həmin əsərlərin estetik təsirini, emosionallığını daha da qüvvətləndirir.

Bütün bunlarla yanaşı Əqidə Ələkbərova müxtəlif illərdə Naxçıvanda dövrü musiqi gecələri, görkəmli musiqiçilərlə görüşlər, silsilə televiziya verilişləri aparmış, o cümlədən 1991-ci ildən 1993-cü ilə qədər «Cəngi» hərbi-musiqili verilişin müəllifi olmuşdur.




***Naxçıvan Dövlət Universitetində Lətif Hüseynzadənin 100 ililk yubiley tədbirində. (soldan) sənətşünaslıq namizədi Əqidə Ələkbərova, filoloji elmlər namizədi, Azərbaycan Respublikasının əməkdar müəllimi Lətif Hüseynzadə, Naxçıvan Dövlət Universitetinin Rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik Isa Həbibbəyli, sənətşünaslıq namizədi Jalə Qulamova***

Daima yaradıcılıq axtarışlarında olan Əqidə Ələkbərova hal-hazırda doktorluq dissertasiyası üzərində işləyir. Dissertasiya Naxçıvan Muxtar Respublikasının mədəniyyəti və qonşu Iran, Türkiyə dövlətləri ilə əlaqə problemlərinə həsr olunmuşdur.

Sənətçinin 2000-ci ilin əvvəllərində ən maraqlı və perspektivli nailiyyəti – Amerikanın Açıq Səhmdar Cəmiyyət Institutunun Qrand layihəsi ilə yaratdığı – «Naxçıvan incəsənət mərkəzi»dir. Artıq bu mərkəz Əqidə xanımın fəaliyyətində «Heyvagülü» kompakt diskindən sonra Naxçıvanın incəsənətini dünya səviyyəsinə çıxarmaqda yeni bir addım idi. Belə ki, mərkəz sərgilər vasitəsilə Naxçıvanı Gürcüstanın paytaxtı Tibilisi şəhərində Beynəlxalq Festivalda təmsil etmiş və reklam bukletini ingilis dilində çap etdirmişdir.

Əqidə Ələkəbrova Muxtar Respublikanın mədəni həyatında göstərdiyi səmərəli əməyinə görə 1999-cu ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri aldına layiq görülmüşdür.

Hal-hazırda sənətşünas Türkiyə Cümhuriyyətinin Qars şəhərində «Kafkaz Universiteti Dövlət Konservatoriyası»nda pedaqoji fəaliyyətini davam etdirir.

## YEGANƏ ƏSƏDOVA



Fikrimi görkəmli pianoçu Anton Rubinşteynin sözlərilə başlamaq istəyirəm. O, demişdir: «Hər hansı başqa sənətlər kimi, musiqi sənəti də onunla məşğul olanlardan özlərinin bütün düşüncələrini, bütün duyğularını, bütün vaxtlarını bü sənətə qurban verməyi tələb edir». Üzeyir Hacıbəyli adına Naxçıvan Musiqi Texnikumunun (indiki Musiqi Kolleci) 35 illik inkişaf yolu pianoçuluq məktəbi sahəsində də böyük yaradıcılıq nailiyyətləri ilə əlamətdardır. Bu məktəbdə fortepiano şöbəst formalaşmış və inkişaf etmişdir. Haqqında söhbət açmaq istədiyimiz şəxs də Naxçıvan Musiqi Texnikumunun yetirməsi olan Yeganə Əsədovadır. O, yüksək pedaqoji tələbkarlığı, iradəli təşkilatçılığı, vətənpərvərliyi və öz xalqının gələcəyinə inamı ilə seçilən bir pianoçudur. Yeganə Əsədova onun haqqında deyilənləri sözdə yox, öz işi, fəaliyyəti ilə həmişə döğruldub və doğrultmaqdadır. Bu baxımdan tərcümeyi-halı da bu deyilənlərə sübutdur.

Yeganə Həmzə qızı Əsədova 1963-cü il iyulun 9-da Naxçıvan şəhərində anadan olmuşdur. Musiqiyə böyük həvəsini görən valideynləri onu 1970-ci ildə Naxçıvan şəhər 1 saylı uşaq musiqi məktəbinin fortepiano sinfinə qoyurlar. 1978-ci ildə Yeganə Naxçıvan şəhəri Üzeyir Hacıbəyli adına orta ixtisas musiqi məktəbinin fortepiano şöbəsinə daxil olur, 1982-ci ildə oranı fərqlənmə diplomu ilə bitirdikdən sonra o, Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyasının) fortepiano ixtisası şöbəsinə daxil olur. Gənclərin və yeniyetmələrin ideya-mənəvi aləminin müəyyənləşməsində mühüm əhəmiyyət kəsb edən musiqi tərbiyəsinin inkişafı ilk növbədə musiqi təhsili ilə bağlıdır. Musiqi təhsili prosesinin yüksək səviyyəyə çatmasında musiqi müsabiqələri, musiqi baxışlarının və sair tədbirlərin keçirilməsi çox mühüm əhəmiyyətə malikdir. Belə ki, şagirdlər arasında yaxşı mənada «rəqabət» hissinin aşılanması, əsl sənət yarışının təşkil edilməsi onların ifaçılıq səviyyəsinin yüksəlməsinə, daxilən zənginləşməsinə səbəb olaraq, onlara gələcəkdə öz ifaçılıq qabiliyyətlərini daha da artırmağa sövq edir. Konservatoriyada görkəmli musiqiçilərdən dərs alan və parlaq fortepiano ifaçılığı ilə fərqlənən Yeganə hələ tələbə ikən keçirilən Beynəlxalq Müsabiqələrdə dəfələrlə çıxış etmişdir.

1989-cu ildə Naxçıvana qayıdan Yeganə Əsədova Musiqi Texnikumunda pedaqoji fəaliyyətə başlayır. O, bu təhsil ocağında ifaçılıqla pedaqoji fəaliyyətini müvəffəqiyyətlə uyğunlaşdırmaq qabiliyyətini göstərə bilir. Heç təsadüfi deyil ki, çox keçmədən onu rəhbərliyə cəlb edirlər. Belə ki, 1997-ci ildən 2000-ci ilə qədər o, Texnikumda fortepiano şöbəsi üzrə Fənn Birləşmə Komissiyasının sədri, 2002-ci ildən 2005-ci ilə qədər isə texnikumun direktoru vəzifəsində çalışır.



***Yeganə Əsədova Naxçıvan Musiqi Texnikumunun müəllim kollektivi ilə birlikdə. 2004-cü il.***

Pedaqoji və ictimai fəaliyyətlə yanaşı Yeganə Əsədova elmi işlə də əsaslı məşğul olur. O, Bakı Musiqi Akademiyasının dissertantı kimi elmi fəaliyyətə başlayır və aktual səciyyəli dissertasiya mövzusu üzərində 4 il çalışır. Nəhayət, Yeganə Əsədova 2004-cü ildə Bakı Musiqi Akademiyasında maraqlı bir mövzunu uğurla müdafiə edir. «XX əsr Azərbaycan musiqişünaslığında xalq musiqisinin tədqiqi məsələləri» (tarixi aspekt) adlanan mövzu ilk dəfə tədqiq olunur və Yeganə Əsədova həm opponentlərin, həm də müdafiə şurasının müsbət rəylərini qazanır, sənətşünaslıq namizədi elmi dərəcəsinə layiq görülür. Hal-hazırda o, dissertasiya işini monoqrafiya kimi işləyir.



***Naxçıvan muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov texnikumda keçirilən musiqi günlərində, Sentyabr 2000-ci il***



***Naxçıvan Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan musiqi Texnikumunun kollektivi ilə birlikdə***



***Texnikumda keçirilən tədbir, 2000-ci il***



***Bakıda keçirilən IX Respublika müsabiqəsinin laureatları. Naxçıvan Musiqi Texnikumunun direktoru Yeganə Əsədova laureatlarla birlikdə. May, 2004.***

Bu gün Yeganə Əsədova Naxçıvan şəhər Mədəniyyət və Turizm Nazirliyində «Mədəniyyət və irs» şöbəsi üzrə aparıcı məsləhətçi vəzifəsində çalışır.

## BƏNÖVŞƏ RZAYEVA



Azərbaycan xalqının sevimli aləti olan kamança neçə yüzilliklərdir ki, onun bədii zövqünü oxşayan və musiqiçilərimizin ifasında səslənən əhəmiyyətli musiqi alətidir. Ötüşən əsrlərdə kamança xalq musiqisinin əsas çalğı aləti olmuş, xüsusilə muğamat aləti kimi formalaşmış və inkişaf etmişdir. Hər bir azərbaycanlının nəzərində kamança tardan ayrılmaz olub, onunla birgədir. Yəni, kamança XX yüzillikdə sazəndə dəstəsinin çalğı aləti olmuş, indi də belədir.

Xalqımızın milli sərvəti olan kamança ifaçılığını daha da inkişaf etdirmək, bu alət üçün orijinal və maraqlı əsərlər yaratmaq bu gün bəstəkar və ifaçıların qarşısında duran mühüm vəzifələrdən biridir. Hazırda Naxçıvanda kamança ifaçılığı sənətinin tanınmış nümayəndələri arasında Bənövşə Rzayevanın öz yeri vardır.

Bənövşə Mirismayıl qızı Rzayeva 1962-ci ildə martın 15-də Bərdə şəhərində anadan olmuşdur. Sonralar ailəsi ilə Şahbuz rayonunun Kükü kəndinə köçərək orta məktəbi bu kənddə bitirmişdir. Hələ kiçik yaşlarından musiqiyə böyük həvəs göstərən Bənövşə 1976-cı ildə Şahbuz rayonunun 7 illik uşaq musiqi məktə-

binin kamança sinfinə daxil olmuş və təhsil illərində – 1979-cu ildə Azərbaycan Respublikası üzrə keçirilən «Bahar-79» müsabiqəsinin qalibi olmuşdur.



***Bənövşə Rzayeva Naxçıvan Bəstəkarlar Təşkilatının III konfransının nümayəndəri ilə birlikdə***

Bənövşə Rzayeva 1979-cu ildə Naxçıvan orta ixtisas musiqi məktəbinin kamança şöbəsinə daxil olmuş və təhsil illərində - 1983-cü ildə Şuşa şəhərində keçirilən IV Respublika müsabiqəsinin laureatı adını qazanmışdır. 1983-cü ildə orta ixtisas musiqi məktəbini bitirən, həssas duyuma, musiqi ifaçılıq qabiliyyətinə malik olan bu qız böyük sənətin sirlərinə yiyələnmək və təhsilini davam etdirmək üçün Bakıya gedərək Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) xalq çalğı

alətləri şöbəsinin kamança ixtisasına qəbul olunur və 1988-ci ildə oranı bitirərək Naxçıvan Dövlət Universitetinin «Musiqi və təsviri incəsənət» fakultəsində müəllim kimi əmək fəaliyyətinə başlayır. Hazırda Universitetin dissertantı olan Bənövşə Rzayeva «Musiqi alətləri» kafedrasında baş müəllim kimi fəaliyyət göstərir.

2007-ci ildən Azərbaycan Bəstəkarlar Ittifaqının üzvlüyünə qəbul edilən Bənövşə Naxçıvan Muxtar Respublika Bəstəkarlar Təşkilatının yaradıcı üzvlərindəndir.



***Azərbaycan Bəstəkarlar Ittifaqının katibi Ramiz Zöhrabov Bənövşə Rzayevaya Bəstəkarlar Ittifaqına üzvlük kitabçasını təqdim edərkən***

Musiqi mədəniyyətinə yiyələnmək və bu mədəniyyəti təbliğ etmək üçün geniş dünyagörüşə, zəruri biliyə və təcrübi ifaçılıq qabiliyyətinə yiyələnmək lazım olduğunu dərk edən Bənövşə elmi

iş götürərək Naxçıvan Dövlət Universitetinin dissertantı kimi vaxtaşırı dövrü mətbuatda məqalələrlə çıxış edir. Onun müxtəlif illərdə mətbuatda çap edilmiş «Naxçıvan musiqi mədəniyyətinin yadigarı, Tulum» (Bakı, 1996), «Naxçıvanda zurna ifaçıları» (Bakı, 1998), «Tar ifaçıları» (Qeyrət nəşriyyatı, Naxçıvan 2000). «Naxçıvanda kamança xalq çalğı alətinin inikişafı tarixindən» (NDU-nin Elmi əsərləri, Naxçıvan-2004), «Naxçıvan musiqi mədəniyyətinin tarixində maestro Niyazinin rolu» (Naxçıvan, 2005), «Naxçıvan Musiqi mədəniyyətinin inkişafında Hacıbəyovlar nəslinin xidmətləri» (Musiqi dünyası, Bakı, 2006), «Faydalı vəsait» («Musiqi dünyası», Bakı, 2007), «Çay dəstgahı əsərinin musiqi taleyi», («Musiqi dünyası», Bakı, 2009) və sair elmi məqalələri təsdiq edir ki, Bənövşə Rzayeva musiqi mədəniyyətimizin inkişafında uğurlu fəaliyyət göstərən istedadlı musiqiçilərimizdəndir.

O, bu gün də əzmlə çalışır, öz bilik və təcrübəsini tələbələrinə yorulmadan aşılayır.

## GÜNAY MƏMMƏDOVA



Azərbaycan bəstəkarlıq sənətinin bu günkü mənzərəsi çoxşaxəli və rəngarəngdir. Bu məktəbin bütün nümayəndələri yaşından və xidmətlərindən asılı olmayaraq mədəniyyətimizin müasir durumu və gələcək taleyi ilə yaxından maraqlanır, həyati əhəmiyyətli bədii vəzifələrin həllinə səy göstərirlər. Onların arasında öz dəsti-xətti ilə seçilən gənc musiqişünas Günay Məmmədova da var.

Günay Məmmədova 1980-ci ildə Naxçıvan şəhərində dünyaya göz açıb. 1995-ci ildə Naxçıvan Musiqi Texnikumunun nəzəriyyə şöbəsinə daxil olmuş, 1999-du ildə oranı müvəffəqiyyətlə bitirərək Naxçıvan Dövlət Universitetinin «Ifaçılıq» fakultəsində musiqişünas üzrə təhsil almağa başlamış, 2003-cü ildə isə Azərbaycan Milli Konsevatoriyasının magistratura pilləsinə musiqişünas ixtisası üzrə qəbul olunmuşdur.

O, hələ təhsil illərində Naxçıvanda bir çox ictimai işlərdə və dövlət tədbirlərində yaxından iştirak etmiş, keçirilən bütün Tələbə Elmi Cəmiyyətinin konfranslarında çıxış etmiş, müxtəlif dərəcəli diplomlara layiq görülmüşdür.



***Günay Məmmədova Bəstəkar Nəriman Məmmədov və Naxçıvan Musiqi Texnikumunun direktoru Rza Abbasov ilə birlikdə Naxçıvan Musiqi Texnikumunun foyesində. 1995-ci il***

Musiqişünaslıq üzrə təhsil alan gənc Günay öz qabiliyyətini bəstəkarlıq sahəsində də sınamışdır. Bir çox mahnıların, instrumental əsərlərin müəllifidir. Onun mahnılarının bir çoxu tədbirlərdə səslənir. Məsələn, 2002-ci ilin 2 fevralında keçirilən tədbirdə «2001-ci ilin ən yaxşı gənc bəstəkarı» adına layiq görülmüşdür. Onu da qeyd edək ki, Naxçıvan Muxtar Respublikası üzrə keçirilən mahnı müsabiqələrində onun mahnıları I, II dərəcəli diplomlarla təltif olunmuşdur.

Bir musiqişünas kimi isə onun publisist məqalələri vaxtaşırı mətbuatda çap edilir. Elmi iş üzərində də işləyən Günay hazırda Naxçıvan Dövlət Universitetinin «Ifaçılıq» kafedrasında pedaqoji fəaliyyətlə məşğul olur.



***Naxçıvan Muxtar respublikasının Ali Məclisinin sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının üçüncü konfransının nümayəndələri ilə birlikdə. (Günay Məmmədova (sağdan birinci))***

Biz inanırıq ki, Günay bu gənc yaşlarında hələ neçə-neçə gözəl musiqi əsərləri yaradacaq, öz musiqi peşəkarlığını daha da zənginləşdirəcəkdir.

* * *

Qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı, əzəli və əbədi Naxçıvan torpağı, qədim türk-oğuz yurdu, bəşər sivilizasiyasının beşiklərindən olub, Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzlərindən biridir. Naxçıvan ərazisində aşkar edilən daş və metal dövrünün abidələri, Gəmiqayanın sərt qayalarında yazılan iki minə qədər müxtəlif quruluşlu təsvirlər, öz sənətkarlığı ilə seçilən boyalı qablar, yüksək qədim şəhərsalma mədəniyyətinin izləri bu yurdun ilkin sivilizasiya beşiklərindən olduğunu sübut edir.

Naxçıvan musiqi mədəniyyəti də böyük, geniş tarixi irkişaf yolu keçərək, XXI əsrdə zənginləşərək özünəməxsus yüksək səviyyə əldə etmişdir.

Bu gün Azərbaycan Respublikası özünün intibah dövrünü yaşayır desək yanılmarıq. Əgər milli dövlətin qurulan və formalaşan bir dövründə onun başçısı xalqın müğənnisini, balet ustasını, bəstəkarını qəbul edib onun problemləri ilə məşğul olursa, onlarla yubileylər keçirirsə, yeni incəsənət ocaqları açdırırsa, deməli həmin dövlətin sənət ustaları öz dövlət rəhbəri ilə fəxr etməlidir. Ulu Öndərimiz Heydər Əliyev də Aazərbaycan mədəniyyətinin sağlam, sivil, milli və dünyəvi gələcəyini istedadlı, savadlı gənclikdə görürdü. Xüsusi istedadı olan gənc musiqiçilərə dövlət qayğısı və himayəsi – onun bütün siyasi fəaliyyətinin əsas məqsədlərindən biri olmuşdur. Müstəqil Azərbaycanın gənc istedadlarının incəsənətdə qazandıqları yeni-yeni nailiyyətlər, onu bir dövlət başçısı və milli lider kimi sevindirir, fərəhləndirirdi. Sitat: «Azərbaycanda incəsənət sahəsində, musiqi sahəsində böyük şəxsiyyətlər – bəstəkarlar, ifaçılar, müğənnilər yetişib. Onların adları məşhurdur və bizim

tariximizə yazılıb. Həyatdan gedənləri də bizim üçün əzizdir, bu gün yaşayanlar da xalqımızın, cəmiyyətimizin hörməti və qayğısı ilə əhatə olunublar… Şübhəsiz ki, istedad qayğı istəyir. Qayğı olmayanda istedad bəzən özünə yol tapa bilmir, yaxud da ki, onun yolu çətin olur. Istedadı cəmiyətə, xalqa göstərmək, ona istedadını inkişaf etdirmək üçün kömək etmək, istedada yol açmıq lazımdır…».

Xalqımız dahi liderimiz Heydər Əliyevin ideyalarını əldə rəhbər tutaraq möhtərəm prezidentimiz Ilham Əliyevin rəhbərliyi ilə qalibiyyətə doğru gedir. Azərbaycan Respublikasının Prezidenti cənab Ilham Əliyevin Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının 3 nəfər üzvünü fəxri ad və Prezident təqaüdünə layiq görməsi bəstəkarlarımızı döğma Azərbaycanımızın gündən-günə gözəlləşən həyatına həsr edilmiş yeni-yeni əsərlər yazmağa ruhlandırır. Bu şərəfli yolda Naxçıvan Muxtar Respublikası bütün sahələrdə inamla irəliləyir. Naxçıvan Ali Məclisinin sədri hörmətli Vasif Talıbovun Muxtar Respublikada həyatın bütün sahələrində olduğu kimi musiqi sənətinə, bu sahənin inkişafına, xüsusilə ifaçılıq sənəti ilə yanaşı, bəstəkar-musiqişünaslıq sənətinə də hər vəchlə kömək göstərir. Onun təşəbbüsü ilə ayrıca konservatoriya açılmış, onun nəzdində bir çox kafedralarla yanaşı bəstəkarlıq kafedrası da geniş fəaliyyət göstərir. Bütün bu diqqət və qayğı musiqiçiləri daha yaxşı işləməyə, böyük uğurlar qazanmağa sövq edir.

Naxçıvan Bəstəkarlar Təşkilatı gənc və həvəskar bəstəkarlarla da müntəzəm əlaqə saxlayır, yaradıcılıq işlərində onlara qayğı və köməklik göstərir, yeni, istedadlı bəstəkar və musiqişünasların cəlb olunması hesabına öz sıralarını əzmlə genişləndirir.

Şərəfli və tarixi bir yol keçmiş Naxçıvana Muxtar Respublikası Bəstəkarlar Təşkilatı bu gün də öz üzərinə düşən ən çətin vəzifələri layiqincə yerinə yetirmək və musiqi mədəniyyətimizin

inkişafı naminə var qüvvələrini sərf etməklə zəngin Azərbaycan bəstəkarlıq məktəbinin yüksəlişi naminə yeni-yeni töhfələr yaradırlar.

Qarşımızda yalnız bir yol var: qədim tarixi köklərə, çoxəsrlik zəngin ənənələrə malik olan milli musiqi mədəniyyətimizi dünyaya tanıtmaq. 30 illik sənət yolu keçən, öz qoynunda onlarla istedadlı gəncə «yaşıl işıq» yandıran, milli musiqi incəsənətimizin təbliği sahəsində böyük xidmətlər göstərmiş, Naxçıvan mədəniyyətinin mənəvi inkişafında xüsusi yeri və layiqli xidmətləri olan Naxçıvan Bəstəkarlar Təşkilatının bu günkü bədii mənzərəsinə diqqət yetirəndə iftixar hissi keçirirsən. Öyünürsən ona görə ki, bu gün milli dəyərlərimiz, milli əxlaqi keyfiyyətlərimiz, soy kökümüz özümüzə qayıdıb. Ulu öndərimiz Heydər Əliyevin belə bir müdrik sözü var: «Mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. Müvəffəqiyyət isə heç zaman öz-özünə gəlmir, müvəffəqiyyətlərə nail olmaq üçün böyük, düşünülmüş, ardıcıl və müntəzəm iş aparılmalıdır».

Bu gün 30 yaşlı sənət ocağı – Naxçıvan Bəstəkarlar Təşkilatı bütün aydınlığı ilə göstərir ki, hələ onun işıqlı günləri qabaqdadır. Və yəqin ki, o işıq getdikcə daha da güclənəcək, musiqi selinə çevrilərək insanların qəlbində xoş duyğular oyadacaqdır.

**Texniki redaktor:** ***Valeh Əsgərov***

**Kompüter yığımı**
**və dizayn:** ***Aygün Hüseynova***

**Operator:** ***Rüstəm Məmmədov***

**Jalə Elman qızı Qulamova**
Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının
30 ildə keçdiyi yaradıcılıq yolu. Monoqrafiya.

Çapa imzalanıb 20.04.2010. Həcmi – 8,5 ç.v. Format A5. Tiraj – 200 nüsxə.
«Mars-Print» nəşriyyat-poliqrafiya firmasında çap olunub.